AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCAN RESPUBLİKASINDA AQRAR SAHƏNİN LİBERALLIQ-DİRİJİSTLİK SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: 53 - İqtisad elmləri

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

DİSSERTASİYA

İddiaçı: _____ Lalə Allahverdi qızı Cabbarlı

Elmi rəhbər: _____ __iqtisad elmləri doktoru, dosent

Allahyar Niyaz oğlu Muradov

Bakı – 2026

Mündəricat

Giriş.....3

I FƏSİL. AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI

1.1. İqtisadiyyatın dövlət tənzimlənməsinin nəzəri-konseptual əsasları.....10

1.2. Aqrar sahəyə dövlət müdaxiləsinin vacibliyini səciyyələndirən amillərin nəzəri əsasları.....24

1.3. Dünya təcrübəsində aqrar sahənin dövlət tənzimlənməsi mexanizmləri.....33

II FƏSİL. AZƏRBAYCANDA AQRAR SAHƏDƏ İSLAHATLAR: MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ DÖVLƏT MÜDAXİLƏSİ SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

2.1. Aqrar sahədə aparılan liberal yönümlü institusional transformasiya prosesinin qiymətləndirilməsi.....43

2.2. Aqrar sahədə dövlət müdaxiləsinin ölçülməsi: metodologiya, ölkələrarası müqayisəli təhlil və qiymətləndirmə.....58

2.3. Azərbaycanda aqrar sahənin iqtisadi təhlili və ASLDİ ilə qarşılıqlı əlaqəsinin qiymətləndirilməsi.....75

2.4. Azərbaycanda aqrar sahəyə dövlət dəstəyi səviyyəsinin qiymətləndirilməsi.....90

III FƏSİL. AZƏRBAYCANDA AQRAR SAHƏNİN DÖVLƏT DƏSTƏYİNİN İQTİSADİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

3.1. Ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətləri.....103

3.2. Aqrar sahədə dövlət dəstəyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi yolları.....121

Nəticə və təkliflər.....135

İstifadə edilmiş ədəbiyyat.....140

Əlavələr.....154

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Dövlətin ümumilikdə iqtisadiyyatı və onun alt sahələrini effektiv şəkildə tənzimlənməsi inkişafın və sosial rifahın təmin olunması üçün mühüm şərtdir. Dövlət tənzimlənməsinin strateji əhəmiyyət daşıdığı əsas istiqamətlərdən biri də aqrar sahədir. Müasir ədəbiyyatda və beynəlxalq təşkilatların təsnifatında "aqrar sahə" (*agricultural sector*) anlayışına dar və geniş mənada baxılır. Dar mənada bu anlayış bitkiçilik, heyvandarlıq, meşə təsərrüfatı, balıqçılıq və bu fəaliyyətlərə xidmət edən sahələri əhatə edir. Geniş mənada isə aqroemal sənayesi də aqrar sahəyə aid edilir.

BMT-nin "İqtisadi fəaliyyət növlərinin beynəlxalq sənaye standartı təsnifatı"nda (ISIC – International Standard Industrial Classification of All Economic Activities) [71; 153], Dünya Bankının metodologiyasında [154], FAO-nun terminoloji yanaşmasında [69], eləcə də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin metodoloji izahında dar mənada təqdim olunur [18]. Qida məhsullarının emalı, daşınması, bölüşdürülməsi və digər sonrakı mərhələlər isə daha geniş məzmun daşıyan aqroərzaq sistemləri (agrifood systems) anlayışı çərçivəsində nəzərdən keçirilir [65]. Hesab edirik ki, qida sənayesi aqrar sahəyə daxil edilməməlidir. Çünki qida sənayesi emal sənayesinin tərkibinə daxildir.

Son illərdə əhali artımı, hərbi münaqişələr, məcburi köçkünlər, iqlim dəyişmələri və ərzaq təminatına təhdidlər aqrar sahənin tənzimlənməsinin əhəmiyyətinin daha da artırmışdır. Çünki ərzaq təminatı bütün ölkələr üçün strateji əhəmiyyət daşıyır. Bu amil aqrar sahəyə dövlətin aktiv stimullaşdırıcı müdaxiləsini aktuallaşdırır.

Azərbaycan dövləti də aqrar sahənin sosial-iqtisadi əhəmiyyətini nəzərə alaraq, bu sahənin inkişafına müxtəlif alətlərlə (vergi güzəşti, subsidiya, güzəştli kredit və digər mexanizmlər) stimullaşdırıcı müdaxilə edir və istehsala dəstək verir.

Aqrar sahənin inkişafı məqsədilə son 10 ildə bir sıra strateji əhəmiyyət kəsb edən sənədlər qəbul olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2016-cı il tarixli Fərmanı ilə *"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"* qəbul edilmişdir [14]. Bu sənədin qəbul olunmasında əsas məqsəd *"həm orta, həm də uzunmüddətli dövrdə*

kənd təsərrüfatı sektorunun yüksək rəqabət qabiliyyətinə və dayanıqlı inkişafına nail olmaqdır"[14]. 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"* [13] sənədində və 22 iyul 2022-ci il tarixli Sərəncamla qəbul edilən *"Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"*nda [20], həmçinin 25 may 2026-cı il tarixli Sərəncamı ilə təsdiq olunan "*Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nda* [15] kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsinə dair hədəf və çağırışlar müəyyən edilmişdir.

Bu tədbirlər aqrar sahənin inkişafına və özünütəminetmə səviyyəsinin yüksəlməsinə töhfə versə də, infrastruktur və texniki-texnoloji təminat və məhsuldarlıqla bağlı problemlər öz aktuallığını saxlayır. Bu problemlər bir çox hallarda dövlət dəstəyinin təsirini zəiflədir. Aqrar sahəyə dövlət dəstəyinin səmərəliliyin yüksəldilməsi, iqtisadi və qeyri-iqtisadi amillərlə əlaqəsinin müqayisəli qiymətləndirilməsi üçün dövlət müdaxiləsinin dərinliyinin (liberallıq-dirijistlik) kəmiyyətcə ölçülməsini aktuallaşdırır.

Dünya təcrübəsi və statistik ölçmələr göstərir ki, aqrar sahəyə dövlət müdaxiləsində (dəstək və təşviq tədbirlərində) əsas məsələ onun dərinliyi deyil, qarşıya qoyulan məqsədlərə nə dərəcədə nail olunmasıdır. Müdaxilənin liberallıq dirijistlik səviyyəsinin ölçməsi dövlət dəstəyinin nəticələrini qiymətləndirməyə, aqrar sahədə daha doğru siyasət qərarlarının qəbuluna imkan verə bilər. Bu baxımdan dissertasiyanın mövzusu aktual hesab olunur.

Bildiyimiz kimi, iqtisadiyyatın və onun sahələrinin dövlət tənzimlənməsi problemi uzun illərdir iqtisad elmində müzakirə olunur. İqtisadiyyatın və onun alt-sahələrinin dövlət tənzimlənməsi problemi Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə [131], N.M. (İmanov) Müzəffərli [43], H.P.Allahverdiyev [6], İ.H.Alıyev [4], K.S.Qafarov [5], R.S.Abdullayeva [3], A.N.Muradov [39], L.A.Allahverdiyeva [7], Ş.M.Muradov [40], Ə.X.Nuriyev [44], A.F.Musayev [41], T.H.Hüseynov [32], F.F.Mustafayev [42] və digər tədqiqatçılar tərəfindən araşdırılmışdır. Azərbaycanda aqrar siyasət və kənd təsərrüfatının dövlət tənzimlənməsi məsələləri isə E.R.İbrahimov

[33], E.A.Quliyev [48], V.Ə.Qasımlı [46], B.X.Ataşov [11], N.C.Qafarov [45], S.V.Salahov [52], A.H.Vəliyev [55], V.İ.İsmayılov [36], A.F.Abbasov [1], R.Z.Hüseyn [31], F.F.Fikrətzadə [27], R.Ə.Balayev [26], V.M.Abbasova [2], F.V.Rüstəmov [51], R.K.İsgəndərov [35], Ş.N.Yusifzadə [56] və digər alimlərin elmi araşdırmalarında öz əksini tapmışdır.

Xarici iqtisadçılar arasında iqtisadiyyatın dövlət tənzimlənməsi məsələləri ilə bağlı C.Keyns [86], A.Smit [110], K.Marks [127], C.Stiqliz [111], F.Quesnay[105], E.Alimkulova [121], R.S.Miller [94], H.Ritçe [106], V.Kenton [84], G.Meijerink [91], R.**Vos [115], P.**Feindt [70], T.Bhandari [62], G.Alons [58], L.Cui [64], S.Singh [109], Q.He [77], Y.Zhang [118] və digər tədqiqatçılar tərəfindən mühüm elmi araşdırmalar aparılmışdır. Bu araşdırmaların nəzəri və praktiki əhəmiyyətini azaltmadan qeyd etmək olar ki, bu tədqiqatlarda iqtisadiyyata və aqrar sahəyə dövlət müdaxiləsinin səviyyəsi kəmiyyətcə ölçülməmişdir. İqtisadiyyata dövlət müdaxiləsi səviyyəsi prof.N.Müzəffərli tərəfindən ölçülmüşdür. Bu tədqiqatda aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik səviyyəsi eyni yanaşma ilə ölçülmüş və müqayisəli təhlillər aparılmışdır.

Tədqiqatın obyekti Azərbaycan Respublikasında aqrar sahənin dövlət tənzimlənməsi prosesidir.

Tədqiqatın predmeti isə aqrar sahəyə dövlətin birbaşa və dolayı müdaxiləsi, bununla bağlı iqtisadi hadisə və münasibətlərin nəzəri, metodoloji və praktiki məsələləri təşkil edir.

Tədqiqatın məqsədi və vəzifələri. Tədqiqatın məqsədi aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik səviyyəsini ölçmək, ölkələrarası müqayisələr aparmaq, mövcud vəziyyəti qiymətləndimək, müdaxilə və nəticələr arasında uyğunsuzluğu müəyyənləşdirmək, müdaxilənin nəticəliliyinin yüksəldilməsi üçün təklif və tövsiyələr hazırlamaqdır.

Bu məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

– liberal və dirijist tənzimləmənin üstün və zəif tərəflərinin nəzəri əsaslarını sistemləşdirmək, dövlət müdaxiləsi və dövlət dəstəyi, anlayışlarına aydınlıq gətirmək;

– aqrar sahəyə dövlət müdaxiləsinin zəruriliyini şərtləndirən amillərin nəzəri aspektlərini tədqiq etmək və qabaqcıl ölkələrin təcrübəsini öyrənmək;
– müstəqillik dövründə Azərbaycanda aqrar sahədə aparılan institusional transformasiyanı və islahatların nəticələrini qiymətləndirmək;
– aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik səviyyəsini ölçmək və ölkələrarası müqayisə aparmaq, bir sıra makroiqtisadi və sahə göstəriciləri qarşılıqlı əlaqəsini qiymətləndirmək;
– Azərbaycanda aqrar sahəyə dövlətin birbaşa və dolayı dəstəyinin həcmini müəyyən etmək;
– Aqrar sahəyə dövlət müdaxiləsi ilə ərzaq təhlükəsizliyi və özünü təminetmə arasında əlaqəni qiymətləndirmək
– tənzimləmə və dəstək mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı elmi əsaslandırılmış təklif və tövsiyələr hazırlamaq.

Tədqiqat metodları. Tədqiqatda analiz və sintez, induksiya və deduksiya, müqayisəli və sistemli təhlil, statistik və korrelyasiya təhlili, eləcə də ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Müxtəlif ölçü vahidləri ilə ifadə olunan göstəricilərin müqayisəolunan formaya gətirilməsi üçün normallaşdırma üsulu tətbiq olunmuşdur.

Müdafiəyə çıxarılan əsas müddəalar.

– Dövlət tənzimlənməsi iqtisadi proseslərə hüquqi, inzibati, iqtisadi və institusional vasitələrlə məqsədyönlü təsir göstərən geniş sistemdir. Bu sistem çərçivəsində dövlət müdaxiləsi həm məhdudlaşdırıcı, həm də stimullaşdırıcı xarakter daşıyır.
– Aqrar sahənin təbii-iqlim və mövsümi xüsusiyyətləri, istehsal və logistika riskləri, ərzaq təhlükəsizliyində rolu, kənd əhalisinin rifahına təsiri bu sahəyə dövlətin stimullaşdırıcı müdaxiləsini zəruri edir.
– Azərbaycanda aqrar islahatlar nəticəsində dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti, müəssisələrdə qeyri-dövlət sektorunun üstünlüyü və vergi güzəştləri ilə səciyyələnən liberal yönümlü qarışıq model formalaşmışdır.

– ASLDİ nəticələrinə əsasən, Azərbaycanda aqrar sahəyə dövlət müdaxiləsinin səviyyəsi qarışıq orta modeldən qismən liberal modelə doğru dəyişmiş və bu dinamika qlobal liberallaşma meyli ilə uzlaşmışdır.

– ASLDİ ilə aqrar istehsal arasında zəif, kənd təsərrüfatı məhsulları üzrə istehsalçı qiymətləri indeksi ilə müsbət orta, kənd təsərrüfatında məşğulluq və əsas kapitala investisiyalarla isə güclü mənfi statistik əlaqə müşahidə olunur. Aqrar istehsalla əlaqənin zəifliyi infrastruktur, texniki-texnoloji təminat və digər amillərlə şərtlənir.

– Təqribi hesablamalara görə aqrar sahədə ümumi məhsul buraxılışının hər manatına düşən dövlət dəstəyinin əsas hissəsi vergi güzəştləri hesabına formalaşmışdır.

– Aqrar sahənin liberallıq-dirijistlik səviyyəsi ilə ərzaq təhlükəsizliyi arasında zəif mənfi əlaqə mövcuddur. Yəni müdaxilənin artması ərzaq təhlükəsizliyini yaxşılaşması meylini artırır.

Tədqiqatın elmi yeniliyi. Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

– Dövlət tənzimlənməsinin liberal və dirijist modelləri, eləcə də dövlət müdaxiləsinin zəruriliyini şərtləndirən amillər sistemləşdirilmiş, müdaxilə alətləri təsir istiqamətinə görə məhdudlaşdırıcı (vergilər və rüsumlar) və stimullaşdırıcı (dövlət xərcləri və vergi güzəştləri) olması, onların iqtisadi proseslərə təsir mexanizmləri əsaslandırılmışdır.

– Aqrar sahəyə müdaxiləsini zəruri edən təbii-iqlim, iqtisadi və sosial amillər və onların qarşılıqlı əlaqələri sistemləşdirilmiş, müdaxilənin səviyyəsinin ölkələrin sosial-iqtisadi şəraitindən asılılığı əsaslandırılmışdır.

– Azərbaycanda aqrar sahənin institusional transformasiyası müəssisələrdə qeyri-dövlət sektorunun üstünlüyü, kənd təsərrüfatı torpaqlarında dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarının paralel mövcudluğu, habelə vergi güzəştləri və subsidiyalar nəzərə alınmaqla qiymətləndirilmiş, hazırda tənzimləmə sisteminin liberal yönümlü qarışıq model olduğu əsaslandırılmışdır.

– İlk dəfə olaraq aqrar sahəyə dövlət müdaxiləsinin liberallıq-dirijistlik indeksi (ASLDİ) və kənd təsərrüfatına dövlət dəstəyinin liberallıq-dirijistlik indeksi

(KTDDLDİ) iki metodologiya əsasında hesablanmış, ölkələr müdaxilə dərəcəsinə görə qruplaşdırılmış və 0–1 şkalası üzrə linqvistik təsnifat qurulmuşdur. Təhlil dövründə Azərbaycanın qarışıq orta modeldən qismən liberal modelə keçidi empirik əsaslandırılmışdır.

– ASLDİ ilə aqrar istehsal, istehsalçı qiymətləri indeksi, məşğulluq investisiya arasındakı asılılıqlar qiymətləndirilmiş, onların istiqamət və güc baxımından fərqliliyi müəyyən edilmişdir.

– Aqrar sahəyə birbaşa büdcə dəstəyi və vergi güzəştləri formasında dolayı dəstəyin təxmini həcmi hesablanmış, ÜMB-in hər manatına 22,9–26,8 qəpik ümumi dəstək düşdüyü və onun əsas hissəsinin (15,8 qəpik) vergi güzəştlərindən formalaşdığı müəyyən edilmişdir.

– Azərbaycanda ASLDİ ilə Qlobal ərzaq təhlükəsizliyi indeksi arasında müsbət güclü əlaqə olduğu müəyyən edilmiş, Azərbaycanda özünütəminetmə səviyyəsinin məhsul qrupları üzrə fərqlənməsi əsasında ərzaq təhlükəsizliyinin yalnız müdaxilənin miqyası ilə izah olunmadığı əsaslandırılmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Əldə olunmuş nəticələr və təkliflər aqrar sahənin, xüsusilə kənd təsərrüfatının dövlət tənzimlənməsinin kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsində, dövlət proqramlarının təkmilləşdirilməsində və dəstəyin səmərəliliyinin yüksəldilməsində istifadə oluna bilər.

Aprobasiyası və tətbiqi. Tədqiqat mövzusu ilə bağlı Azərbaycanda, Macarıstanda, Türkiyədə, İtaliyada, İspaniyada, Fransada və Özbəkistanda keçirilən konfranslarda məruzə edilmişdir. Belə ki, 10 mart 2020-ci ildə Gəncə şəhərində keçirilən "*Kənd Təsərrüfatında Kooperasiyanın Mövcud Vəziyyəti və İnkişaf Perspektivləri*" mövzusunda Respublika elmi-praktik konfransda, " 31 May 2021-ci ildə Bakıda keçirilən "*Pandemiyanın Dünya Ölkələrinin Sosial-İqtisadi İnkişafına Təsiri Problemləri*" mövzusunda Beynəlxalq elmi-praktik konfransda, 4-6 Noyabr 2022-ci ildə İzmirdə keçirilən "*III Uluslararası beşeri bilimler kongresi*"ndə, 22-25 iyun, 2023-cü ildə Bakıda keçirilən "*İqtisadiyyat və İdarəetmə sahəsində tədqiqatçıların V beynəlxalq elmi konfransı*"nda, 6-8 Mart, 2024-cü ildə Özbəkistanda keçirilən

"*III Uluslararası İpek Yolu Bilimsel Araşdırmalar Kongresi*" ndə, 29-30 iyul 2024-cü ildə Macarıstanda keçirilən "*Agricultural Sciences and Economics (ICASE-2024)*" beynəlxalq konfransda məruzələrlə çıxış edilmişdir.

Dissertasiya işinin mövzusu üzrə 16 məqalə və tezis nəşr edilmişdir. Bunlardan 8-i xarici jurnallarda, o cümlədən 2-si SCOPUS elmi bazasında dərc edilmişdir.

Dissertasiya işi Azərbaycan Respublikası Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

Dissertasiyanın həcmi. Dissertasiya işi giriş, üç fəsil, 9 yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlaələrdən İşin ümumi həcmi 212198 işarə həcmindədir. Giriş 12116. birinci fəsil 6425 işarə, ikinci fəsil 79257, üçüncü fəsildə 47473, nəticə və təkliflər 11020 işarədən ibarətdir. Burada 3 şəkil, 26 qrafik, 22 əsas cədvəl, 7 əlavə cədvəl verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında Azərbaycan, türk, rus və ingilis dillərində olan 171 mənbədən istifadə olunmuşdur

I FƏSİL. AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI

1.1. İqtisadiyyatın dövlət tənzimlənməsinin nəzəri-konseptual əsasları

Tənzimləmənin tarixi aspektlərinə və inkişaf mərhələlərinə nəzər saldıqda aydın olur ki, dövlət və cəmiyyət arasında münasibətlərin formalaşmağa başladığı dövrlərdən etibarən iqtisadiyyatın idarə olunması və tənzimlənməsi məsələləri daim idarəedicilərin və tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Aparılan tədqiqatlarda irəli sürülən müxtəlif yanaşmalar bəzən bir-birini tamamlamış, bəzən də bir-biri ilə ziddiyyət təşkil etmişdir. Dövlət idarəediciləri və siyasətçilər isə nəzəri yanaşmalara, cəmiyyətin ehtiyaclarına əsaslanaraq iqtisadiyyata müdaxilənin səviyyəsini bəzən artıraraq dirijist, bəzən də azaldaraq liberal yanaşma tətbiq etmişlər.

Təcrübə göstərir ki, dövlətlər müsbət iqtisadi nəticələr əldə etmək və sosial öhdəliklərini icra etmək məqsədilə iqtisadi proseslərə müxtəlif metodlarla müdaxilə edirlər. Bəzi ölkələrdə tətbiq olunan tənzimləmə mexanizmləri onların dərinlik dərəcəsindən asılı olaraq, iqtisadi artıma həm müsbət, həm də mənfi təsir göstərə bilər. Bu baxımdan, hər bir ölkə üçün dövlətin iqtisadiyyata müdaxiləsinin (liberal və ya dirijist yanaşma əsasında) səmərəliliyini təmin edən optimal "çərçivənin" müəyyən edilməsi iqtisad elminin mühüm və aktual problemlərindən biri olaraq qalır [39].

Bu baxımdan müasir dövrdə sosial-iqtisadi proseslərin dövlət tənzimlənməsinin səmərəliliyi məsələsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, tənzimləmə mexanizminin (dövlət müdaxiləsinin çox və ya az olmasından asılı olmayaraq) səmərəsizliyi iqtisadi fəaliyyət sahələrində ciddi problemlərin yaranmasına səbəb ola bilər. Xüsusilə böhran şəraitində dövlət müdaxiləsi ilə bağlı ziddiyyətli problemlər meydana çıxır. Bir tərəfdən məcmu istehsal həcminin azalması nəticəsində dövlət büdcəsinə daxil olan vergi gəlirləri azalır və bu da dövlətin öz öhdəliklərini yerinə yetirməsini çətinləşdirir. Digər tərəfdən isə iqtisadi artımın və makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə dövlət müəyyən maliyyə güzəştlərinə getmək məcburiyyətində qalır. Nəticə etibarilə, hökumət vergi yükünü artırmadan maliyyə sistemini stabilləşdirməyə və mövcud resurslardan daha səmərəli istifadə etməyə çalışır.

N.Müzəffərliyə görə *"iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinə münasibət üzərində qurulan bütün digər nəzəriyyələr neoklassisizmin və neokeynsçiliyin şəkil dəyişmələrindən, bəzən isə ayrı-ayrı məsələlər üzrə bunların mövqelərinin müxtəlif kombinasiyalarından ibarətdir* [43.s.49]. Onun fikrincə *"iqtisadi inkişafın dövlətin iqtisadiyyata müdaxiləsinin çox və ya az olmasından deyil, müdaxilənin effektivlik səviyyəsindən asılıdır. Yəni liberal iqtisadiyyata malik ölkə dirijist iqtisadiyyata malik ölkə ilə müqayisədə daha yaxşı inkişaf edə və əhalinin sosial rifahı daha yaxşı ola bilər* [43.s.49].

İqtisadiyyata dövlət müdaxiləsinin vacibliyini fərqli bir aspektdən izah edən S.S.Şatalin qeyd edir ki, *"Bütün dünyada dövlətin iqtisadi sistemdə rolu mühüm və çoxşaxəlidir. Heç bir bazar mexanizmi iqtisadiyyatın perspektivdə sürətli struktur yenidənqurulması problemini, eləcə də təhsil, mədəniyyət, səhiyyə və regional xarakterli sosial-iqtisadi məsələlərin kompleks şəkildə həllini tam təmin etmək imkanına malik deyildir* [134.s.31]. Bu problemi həll etmək məqsədilə dövlətlər müxtəlif metodlarla (vergi güzəşti, qiymətqoyma, güzəştli kredit, subsidiya və digər dəstək mexanizmləri) tənzimləmə siyasəti həyata keçirir, dövlət resurslarından məqsədyönlü istifadəni təşviq edirlər. Bu isə o deməkdir ki, qeyd olunan mexanizmlərin elmi əsaslarla qurulmaması dövlət dəstəyinin səmərəsini azalda, bazar siqnallarını təhrif edə və iqtisadi fəaliyyət sahələrində gözlənilən nəticələrin əldə olunmasını zəiflədə bilər.

Aparılan tədqiqatlarda bəzən dövlətin iqtisadiyyata daha "yumşaq" müdaxiləsinin əhəmiyyəti əsaslandırılırdı. Onlardan M.Fridman iqtisadiyyatda dövlət müdaxiləsinin minimuma endirilməsi fikrini müdafiə edirdi. O, dövlətin iqtisadiyyata yalnız pul-kredit (monetar) siyasəti vasitəsilə müdaxilə etməsini dəstəkləyirdi. M.Fridmanın yanaşmasına görə "*bazar iqtisadiyyatı təbii olaraq sabitliyə və uzunmüddətli özünü tənzimləməyə meyillidir, buna görə də vergi və büdcə siyasəti istisna olmaqla dövlət müdaxiləsi minimuma endirilməli, iqtisadi fəallığa təsirin əsas aləti kimi isə dövriyyədəki pul kütləsinin sabit və uzunmüddətli idarə olunmasına əsaslanan pul siyasəti çıxış etməlidir [72, s.30]*.

Təcrübə göstərir ki, pul kütləsi ilə milli gəlirin dinamikası arasında güclü əlaqənin olması pul siyasətini iqtisadiyyatın tənzimlənməsinin ən etibarlı alətlərindən biri edir. Bu alət müasir dövrdə də öz aktuallığını saxlayır. Belə ki, dövriyyədə pul kütləsinin artması məcmu tələbi yüksəldərək iqtisadi fəallığın canlanmasına şərait yarada bilər. Lakin pul təklifinin artımı istehsalın genişlənməsi ilə uyğunlaşmadıqda inflyasiya təzyiqləri güclənir. Buna görə də pul kütləsinin artımının iqtisadi artım və qiymət sabitliyi ilə uzlaşdırılması mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, iqtisadi proseslərə müdaxilənin artması "*dirijist*", müdaxilənin azalması isə "*liberal*" yanaşma kimi xarakterizə edilir. "Dirijist" anlayışı fransız ("dirigisme") mənşəlidir və "*dövlətin iqtisadiyyata güclü nəzarəti*"ni (daha çox müdaxilə) ifadə edir [122]. Mahiyyət etibarilə, "dirijist" yanaşma aktiv müdaxilə siyasətinin həyata keçirilməsini, iqtisadi proseslərin idarə olunmasında və strateji məqsədlərin reallaşdırılmasında dövlətin daha yaxından iştirakını nəzərdə tutur. Son üç əsrdə dünya iqtisadiyyatının "azad bazar" (liberal) prinsipindən tənzimlənən bazar prinsipinə keçməsi (dirijist) müşahidə olunur. Bu da qloballaşma, risklərin artması, sosial öhdəliklərin böyüməsi və s. bu kimi iqtisadi və qeyri-iqtisadi amillərin təsiri ilə izah oluna bilər. XX əsrin əvvəllərindən etibarən iqtisadiyyatda iki iqtisadi idarəetmə modeli - liberal və dirijist modellər üstünlük təşkil etmişdir.

Ümumilikdə, bu istiqamətdə aparılan araşdırmalarda dövlətin iqtisadiyyata müdaxiləsinin əhəmiyyəti və mümkün qədər mənfi təsirləri barədə müxtəlif və bəzən ziddiyyətli yanaşmalar irəli sürülmüşdür. L.V.Mises [95] dövlətin iqtisadi proseslərə müdaxiləsini iqtisadi və sosial fəlakət kimi, bəzi tədqiqatçılar [78] isə dövlətin tənzimləyici rolunun olmaması halında iqtisadiyyatın dağılma riski ilə üzləşəcəyini vurğulayırlar. Uzun illər davam edən elmi mübahisələrə baxmayaraq, hazırda dövlətin iqtisadiyyata birbaşa və ya dolayı yolla müdaxiləsi əksər hallarda zəruri amil kimi qəbul edilməkdədir. N.Müzəffərli dövlətlərin müdaxilə səviyyəsinin ölkələr arasında fərqli olduğunu, bəzi ölkələrdə dövlət iqtisadi proseslərə daha çox, digərlərində isə daha az müdaxilə etdiyini, lakin hər iki halda nəticələrin iqtisadiyyata müsbət və ya mənfi təsir etmə ehtimalının olduğunu qeyd edir [43]. Buna baxmayaraq bütün hallarda dövlət iqtisadiyyata bu və ya digər dərəcədə müdaxilə etmək məcburiyyətindədir. Əks

təqdirdə, iqtisadiyyatın effektiv idarə olunması, istehsal və xidmət sahələrinin tənzimlənməsi, eləcə də əhalinin sosial rifahının təmin edilməsi çətinləşər.

E.İ.Kovalyeva dövlətin iqtisadiyyata müdaxiləsini zəruri edən bir sıra amillərin olduğunu qeyd etmişdir. Bunlara*: "pul dövriyyəsi sisteminin tənzimlənməsi, əhalinin sosial müdafiəsinin təmin edilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması və qorunması, qiymət səviyyəsinin və inflyasiya proseslərinin tənzimlənməsi, gəlir bölgüsünün tarazlaşdırılması, xarici ticarət münasibətlərinin və əməliyyatlarının tənzimlənməsi*" daxildir [126.s.12]. Bu amillər bazar mexanizminin təkbaşına tam həll edə bilmədiyi sosial, institusional və makroiqtisadi problemlərlə bağlıdır. Buna görə də bu yanaşma dövlət müdaxiləsinin iqtisadi sabitliyin və sosial tarazlığın qorunması baxımından zəruri olduğunu göstərir.

Qeyd olunan amillər üzrə tənzimləyici siyasətin həyata keçirilməsi, bir tərəfdən bazar tarazlığının qorunmasına, digər tərəfdən isə mövcud resurslardan səmərəli istifadə olunmasına xidmət edir. Bu baxımdan, dövlətin iqtisadi proseslərə müdaxilə dərəcəsinin müəyyənləşdirilməsi və tənzimləmə siyasətində optimal çərçivəsinin qurulması həm iqtisadi nəzəriyyə, həm də iqtisadi siyasətin həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, tənzimləmə siyasətləri və onların mahiyyəti ilə bağlı elmi mübahisələr əsasən iki fərqli yanaşma: liberal və dirijist yanaşma ətrafında cəmlənmişdir.

Liberal tənzimləmə: Liberal yanaşmanı müdafiə edənlər dövlətin iqtisadiyyata daha az qarışmasının əhəmiyyətini əsaslandırırdılar. Etimoloji baxımdan "liberalizm" anlayışı ilə "liberty" (azadlıq) sözü arasında birbaşa əlaqə mövcuddur. Bu istiqamətin nəzəri bazasının formalaşmasında A.Smit [110], D.Rikardo [107], T.R.Maltus [89], C.B.Sey [108], C.S.Mill [93] və L.Mizes [95] kimi klassik liberal məktəbin nümayəndələrinin rolu mühüm olmuşdur.

Klassik iqtisadi məktəbin nümayəndələri əsasən azad bazar iqtisadiyyatını, yəni liberal yanaşmanı müdafiə etmiş və dövlətin iqtisadi proseslərə müdaxiləsinə qarşı çıxmışlar. Onlar bazar iqtisadiyyatının öz daxili mexanizmləri vasitəsilə özünü tənzimləmə qabiliyyətinə malik olduğunu və dövlət müdaxiləsinin bu mexanizmlərin fəaliyyətinə mənfi təsir göstərərək resursların səmərəli istifadəsinə maneə yaratdığını

qeyd edirdilər. Klassiklər hesab edirdilər ki, "görünməz əl" prinsipi əsasında formalaşan bazar tarazlığı uzunmüddətli dövrdə iqtisadi sabitliyi və rifahı təmin edə bilir. Bu yanaşmanı dəstəkləyən A.Smit [110], L.Mises [95], Hayek [76], M.Fridman [72], G.S.Beker [60] və digər iqtisadçılar dövlətin iqtisadiyyata minimum səviyyədə müdaxiləsini, yəni liberal və azad bazar iqtisadiyyatını müdafiə edirlər. Onların fikrincə, iqtisadi azadlığın genişləndirilməsi davamlı inkişaf üçün əlverişli mühit yaradır.

Neoklassik iqtisadçılar dövlətin iqtisadiyyatda məhdudlaşmış və ya tənzimləyici müdaxiləsini müdafiə edirdilər. Onlar dövlətin yalnız bazarın çatışmazlıqlarını aradan qaldırmaq, mülkiyyət hüquqlarını qorumaq və rəqabət mühitini təmin etmək kimi məhdud funksiyaları yerinə yetirməli olduğunu qeyd edirdilər [83; 85; 111] .

Neoklassik liberallar klassik və sosial liberalizmin ənənəvi yanaşmalarından fərqli olaraq, daha sistemli və məntiqi cəhətdən tutarlı bir konseptual çərçivə irəli sürürdülər. Bu nəzəriyyə həm fərdi iqtisadi azadlığa, həm də sosial ədalətə güclü bağlılığın vacibliyini ön plana çəkirdi. Neoklassik liberalizmin əsas iddiası ondan ibarətdir ki, *"iqtisadi azadlıqların qətiyyətlə müdafiəsi siyasi və sosial ədalətin təmin olunması ilə ziddiyyət təşkil etmir, əksinə, bu azadlıqlar həmin ədalətin formalaşmasında mühüm və ayrılmaz tərkib elementi kimi çıxış edir"* [85.s.860].

Avstriya iqtisad məktəbinin nümayəndəsi L.Mizes hesab edirdi ki, *"liberalizm müstəqil elmi nəzəriyyə deyil, daha çox iqtisadiyyat və insan davranışları haqqında nəzəri biliklərin siyasi və ictimai idarəetmədə tətbiq olunması prinsipidir"* [95, s.3]. Bu mənada o, liberalizmi ilk növbədə siyasi doktrina kimi qiymətləndirirdi.

Liberalizm əsasən iki başlıca istiqamətdə izah olunur. Bunlardan birincisi sosial liberalizm olub, dövlətin sosial rifahın təmin edilməsində daha fəal rolunu qəbul edən yanaşmanı ifadə edir. İkinci istiqamət isə F.Hayekin "həqiqi" liberalizm kimi səciyyələndirdiyi klassik liberalizmdir. F.Hayekə görə, *"liberalizm fərdi azadlıqlar prinsipinə əsaslanan siyasi düşüncə tərzidir*" [76,s. 84].

Bir sıra tədqiqatçıların ümumiləşdirməsinə görə, liberal iqtisadi siyasətin əsas istiqamətlərinə ictimai malların təmin olunması, mülkiyyət hüquqlarının və müqavilə

münasibətlərinin qorunması, rəqabəti zəiflədən inhisarçılığa qarşı tədbirlər, eləcə də pul kütləsinə nəzarət vasitəsilə makroiqtisadi sabitliyin qorunması daxildir [133; 66].

Azad ticarət, iqtisadi fəaliyyətə dövlətin birbaşa müdaxiləsinin (vergi, rüsum və s.) azaldılması, qeyri-dövlət sektorunun üstünlüyü, özəl mülkiyyət, əmək bazarının çevikliyi liberal iqtisadiyyatlar üçün xarakterik xüsusiyyətlərdir. İqtisadi liberalizm dövlətin ticarət və sənaye sahələrinə birbaşa qarışmamasını, həmçinin cəmiyyətdə ayrı-ayrı sosial qruplar və fərdlər arasında formalaşan iqtisadi münasibətlərə mümkün qədər məhdud müdaxilə etməsini əsas prinsip kimi qəbul edir.

İqtisadi liberalizmin digər nəzəriyyələrdən əsas fərqi maraqların iqtisadi fəaliyyətin mərkəzinə yerləşdirilməsidir. A.Smit şəxsi maraqlara iqtisadiyyatın təbii hərəkətverici qüvvəsi kimi baxırdı və niyyətindən asılı olmayaraq hər bir fərdin öz mənafelərini reallaşdırarkən cəmiyyətin ümumi rifahına xidmət etdiyini əsaslandırırdı [110]. Bu yanaşma "görünməz əl" prinsipi ilə izah olunur və fərdlərin sərbəst iqtisadi fəaliyyət imkanına, yəni müxtəlif iqtisadi və sosial münasibətlər sistemlərinə azad şəkildə daxil olmaq və həmin münasibətlərdən çıxmaq hüququna malik olmalarını zəruri hesab edir. O, "*təbii nizam*" anlayışını müdafiə edərək, bu nizamın ən azad və effektiv idarəetmə forması olduğunu vurğulayırdı. A.Smitin fikrincə, "*dövlətin əsas funksiyası daxili və xarici təhlükəsizliyi təmin etməklə məhdudlaşmalı, digər sahələrə müdaxilə minimum səviyyədə olmalıdır*" [110].

Liberallaşma tərəfdarları olan S.Bumann və N.Hermes "*iqtisadi liberallaşmanı*" cəmiyyətdə inkişaf proseslərinin və məhsuldar qüvvələrin artmasının əsas ilkin şərti kimi qəbul edirlər [63.s.257]. C.Bentam isə utilitarizm fəlsəfəsi çərçivəsində dövlətin məqsədini fərdi rifahın artırılmasında görürdü. Onun fikrincə, "*azadlığın mövcud olmadığı şəraitdə faydanın əldə olunması, faydanın olmadığı halda iqtisadi azadlığın formalaşması, iqtisadi azadlıq təmin edilmədən isə mülkiyyət hüququnun bərqərar olması və nəticə etibarilə xoşbəxtliyin mümkünlüyü istisna olunur*" [61, s. 22]. Bir çox araşdırmalarda mətbuat, din, iqtisadiyyat və mülkiyyət sahələrində azadlığın olması iqtisadi inkişaf üçün əsas şərtlərdən biri hesab edilir.

Liberalizm, tarixi boyunca müxtəlif ictimai-siyasi qarşıdurmaların süzgəcindən keçərək, bu gün bütöv və təsirli bir siyasi-iqtisadi sistem kimi mövcudluğunu daha da

gücləndirmiş olsa da son illərdə dirijizm də özünə yer tutmaqdadır. Xüsusilə münaqişələr, qaçqınlar, qloballaşma, böhranlar və s. bu kimi iqtisadiyyata mənfi təsir göstərən neqativ hallar dirijist yanaşmanı da aktuallaşdırmışdır.

Lakin ümumilikdə baxdıqda iqtisadi liberalizmin əsasını təşkil edən prinsiplər, fərdi azadlıq, hüquqi bərabərlik, sərbəst bazar iqtisadiyyatı, hüququn aliliyi və dövlətin məhdud müdaxiləsi zamanla müxtəlif nəzəriyyəçilər tərəfindən fərqli kontekstlərdə şərh edilmiş və inkişaf etdirilmişdir. Liberalizmin çevik və adaptasiya olunan xarakteri onun çağdaş cəmiyyətlərdə aktuallığını qorumasının əsas səbəblərindən biri kimi qiymətləndirilir.

K.Popper liberalizmin əsas prinsipləri sırasında *"dövlətin ali vəzifə və məqsədinin vətəndaşların azadlıqlarını qorumaqdan ibarət olduğunu vurğulayır*" və göstərirdi ki, "*liberal cəmiyyət köləlikdən azadlığa, üzvi (yəni təbii və dəyişməz) sosial quruluşdan mücərrəd (açıq və çevik) cəmiyyətə, məcburi vəzifələr və sərt iş bölgüsündən isə könüllü birlik və əməkdaşlığa əsaslanır*" [104.s.17]. M.Fridman isə liberalizmin əsasını könüllü əməkdaşlıq və fikir plüralizminə əsaslanan azad müzakirə mühitində görürdü. O hesab edirdi ki, "cəmiyyətin sağlam və dayanıqlı şəkildə inkişaf etməsi üçün fərdlərin azad şəkildə qərar qəbul edə bilməsi, eyni zamanda bu qərarlara görə məsuliyyət daşıması vacib şərtlərdən biridir" [72.s.31].

Liberal düşüncə tərzinə görə, iqtisadi azadlıqla ümumi (fərdi və siyasi) azadlıq arasında qarşılıqlı və ayrılmaz bir əlaqə mövcuddur. Bu yanaşmaya əsasən, iqtisadi azadlıq bazar iqtisadiyyatının əsasını təşkil etməklə, eyni zamanda digər azadlıqların real şəkildə həyata keçməsi üçün zəruri şərtdir. Liberal nəzəriyyəçilərə görə, azadlığın təmin edilməsi üçün dövlət tərəfindən müəyyənləşdirilən hüquqi çərçivə zəruri olsa da, bu çərçivə iqtisadi fəaliyyəti məhdudlaşdıran alətə çevrilməməlidir. Yəni hüquqi çərçivə iqtisadi proseslərə manea olmamalıdır.

Bazarda sağlam rəqabət mühitinin formalaşması mühüm bir mexanizm kimi çıxış edir və fərdlərə geniş seçim imkanları yaradır. İşçi əmək bazarında sərbəst hərəkət edə, istehlakçı isə öz ehtiyaclarına uyğun olaraq istədiyi yerdən məhsul və xidmət əldə edə bilir. Dövlətin iqtisadi proseslərə manea yaradan müdaxilələri, nəzarət və tənzimləmə mexanizmlərinin sərtləşdirilməsi biznes mühitinin məhdudlaşdırılması riskini də

artırır. Bu baxımdan bir çox yanaşmalarda liberalizm, yəni iqtisadi azadlıq yalnız iqtisadi rifahın deyil, eyni zamanda cəmiyyətin inkişafının hərəkətverici gücü kimi qiymətləndirilir.

Bu baxımdan iqtisadi liberalizmin əsas xüsusiyyətlərini belə ümumiləşdirmək olar: bu yanaşma dövlətin iqtisadiyyata müdaxiləsinin minimum səviyyədə olmasını, bazar münasibətlərinin əsasən sərbəst tələb və təklif mexanizmi əsasında formalaşmasını, fərdiyyətçiliyin, azad təşəbbüsün və şəxsi maraqların iqtisadi fəaliyyətin aparıcı qüvvəsi kimi çıxış etməsini nəzərdə tutur. Eyni zamanda iqtisadi liberalizm açıq və ədalətli rəqabətin təşviqinə, azad ticarətə və kapital hərəkətinə, özəl mülkiyyət hüququnun etibarlı qorunmasına əsaslanır və fərdlərin şəxsi maraqla fəaliyyət göstərməsinin bütövlükdə ümumi iqtisadi rifahın artmasına xidmət etdiyini qəbul edir.

S.V.Salahov öz tədqiqatlarında liberal və proteksionist yanaşmaların üstünlüklərini və çatışmazlıqlarını təhlil edərək, iqtisadi siyasətdə bu iki istiqamət arasında optimal balansın qorunmasının vacibliyini əsaslandırmışdır [52.s.490]. Belə bir optimal balansın tapılması və qorunması isə oşduca vətin və bəkkədə qeydi mümkündür. Çünki iqtisadi siyasətlər müxtəlif ölkələrdə fərqli nəticələrə səbəb ola biləcəyini göstərir. Bu baxımdan dövlət müdaxiləsinin effektivliyi təkcə onun obyektindən deyil, həm də müdaxilənin ölçüsündən əhəmiyyətli dərəcədə asılıdır.

Dirijist tənzimləmə. Dirijist yanaşmanı müdafiə edənlər isə dövlətin tənzimləyici funksiyasını zəruri hesab edirdilər. Bu yanaşmanı müdafiə edən tədqiqatçılar A.Marşal [90], C.M.Keyns [86], C.E.Stiqlis [112], P.R.Kruqman [87] və başqaları dövlətin iqtisadi proseslərə daha fəal müdaxiləsini – yəni dirijist iqtisadi siyasəti vacib hesab edir və bu müdaxiləni həm sosial öhdəliklərin icrası, həm də iqtisadi sabitliyin təmin olunması baxımından zəruri hesab edirlər.

Digər iqtisadi məktəb və cərəyanların nümayəndəsi olan iqtisadçılar isə iqtisadi müvazinəti və bazar tarazlığını təmin edən, eyni zamanda təhsil, səhiyyə və digər sosial məqsədlərin həyata keçirilməsində rol oynayan bir vasitə kimi dövlətin iqtisadiyyatda müəyyən dərəcədə iştirakını zəruri hesab edirdilər. Onlar sosial bərabərlik və iqtisadi

balansın qorunması zərurətindən çıxış edərək dövlətin iqtisadiyyatın bəzi sahələrinə məhdud şəkildə müdaxiləsini əsaslandırırdılar.

İqtisadi tənzimləməyə dirijist yanaşma - dövlətin iqtisadi proseslərə fəal və sistemli şəkildə müdaxiləsini nəzərdə tutur. Bu ideyanı əsas müdafiə edənlərdən biri də fransız iqtisadçısı F.Perru [129.s.12] olmuşdur. Dirijist iqtisadi sistemdə dövlət iqtisadiyyatın idarə olunmasında aparıcı və istiqamətləndirici rol oynayır. Yəni dövlət iqtisadi proseslərin və münasibətlərin tənzimlənməsində inzibati metodlarla fəal iştirak edir. Lakin dünya ölkələrinin təcrübəsi, başqa sözlə iqtisadi proseslərdə inzibati metodlara üstünlük verən dirijist iqtisadi siyasət həyata keçirən ölkələr müəyyən iqtisadi uğurlara nail olsalar da, bu metod bir çox hallarda uğurlu nəticələr vermir.

Dirijist iqtisadi tənzimləmənin xüsusiyyətlərini ümumiləşdirərək qeyd etmək olar ki, bu model dövlətin iqtisadi proseslərə yalnız dolayı deyil, həm də birbaşa inzibati və institusional müdaxiləsini nəzərdə tutur. Bu çərçivədə dövlət normativ göstərişlər verən tənzimləyici subyekt, iqtisadi fəaliyyətdə bilavasitə iştirak edən sahibkar, geniş dövlət sektorunu idarə edən mülkiyyətçi, iri kapital qoyuluşlarını maliyyələşdirən əsas investor və iqtisadi inkişafın prioritetlərini indikativ planlaşdırma vasitəsilə müəyyən edən strateji idarəedici qüvvə kimi çıxış edir.

V.Andrianov Fransa iqtisadiyyatını araşdıraraq dirijist iqtisadiyyat modelinə xas olan mühüm cəhətləri aşağıdakı kimi təsnifləşdirmişdir: *tələbin stimullaşdırılması məqsədilə dövlət tərəfindən ictimai işlərə, yüksək texnologiyalara, elmi tədqiqatlara və innovasiya yönümlü sahələrə investisiya yatırılması; maliyyə siyasətinin çevikliyi, yəni iqtisadi şəraitə uyğun olaraq dövlət xərclərinin məqsədyönlü və hədəfli şəkildə istiqamətləndirilməsi; iqtisadiyyatın indikativ planlaşdırılması və uzunmüddətli investisiyaların təşviqi üçün zəruri institusional və hüquqi şəraitin yaradılması; milli bazarda aparıcı mövqeyə malik iri müəssisələrin və ixracyönümlü sektorların, xüsusilə strateji və yüksək əlavə dəyər yaradan sahələrin dəstəklənməsi; əhalinin rifahının yüksəldilməsi və işçilərin sosial ehtiyaclarının təmin olunması istiqamətində dövlət siyasətinin həyata keçirilməsi [122, s. 5]*. Sadalanan cəhətlərdən aydın olur ki, dirijist model iqtisadiyyatın inkişafını kortəbii bazar qüvvələrinin ixtiyarına buraxmır, əksinə, dövlətin məqsədyönlü müdaxiləsi vasitəsilə prioritetlərin, investisiya axınlarının və

sosial nəticələrin idarə olunmasını nəzərdə tutur. Bu modeldə iqtisadi səmərəliliklə sosial məqsədlər arasında uzlaşdırma yaradılması dövlət siyasətinin əsas funksional istiqamətlərindən biri kimi çıxış edir.

E.İ.Kovalevanın yanaşmasına görə, *"bazarda "uğursuzluqlar"ın mövcudluğu dövlətin iqtisadiyyatın normal inkişafını təmin etmək məqsədilə müəyyən iqtisadi funksiyaları və vəzifələri yerinə yetirməsini zəruri edir"* [126.s.14]. Ştaymanın fikrincə isə, "*əgər bazar əmtəələrlə qeyri-mərkəzləşdirilmiş qaydada təmin olunursa, bu zaman cəmiyyət və iqtisadiyyatda meydana çıxan problemlərin həlli üçün güclü dövlətin mövcudluğu zəruri olur"* [124 s.155].

Bazarın əmtəələrlə qeyri-mərkəzləşdirilmiş qaydada təmin olunduğu şəraitdə cəmiyyət və iqtisadiyyatda meydana çıxan problemlərin aradan qaldırılması üçün güclü dövlətin mövcudluğu zəruri hesab olunur. Çünki belə şəraitdə bazar mexanizmi resursların bölgüsünü tam şəkildə əlaqələndirə, sosial ziddiyyətləri aradan qaldıra və uzunmüddətli inkişaf prioritetlərini özü-özlüyündə təmin edə bilmir. Bu səbəbdən dövlət yalnız ümumi hüquqi çərçivəni müəyyən edən institut deyil, həm də iqtisadi və sosial tarazlığın qorunmasını təmin edən strateji tənzimləyici subyekt kimi çıxış edir. Xüsusilə bazar uğursuzluqları, sosial bərabərsizlik, işsizlik və struktur disproporsiyalar şəraitində dövlətin birbaşa müdaxiləsi artır.

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini müdafiə edən alimlərdən C.M.Keyns bazar münasibətləri şəraitində dövlət tənzimlənməsinin qorunub saxlanılması məsələsinin vacibliyini əsaslandırır, "*dövlətin iqtisadiyyata müdaxiləsinin zəruri şərt olduğunu"* qeyd edirdi [125], [126]. Bu nəzəriyyənin yaranmasında XX əsrin 30-cu illərində baş vermiş "Böyük Depressiya"nın ciddi təsiri olmuşdur. Məhz həmin dövrün iqtisadi şəraitinin spesifik xüsusiyyətlərini əks etdirən yeni iqtisadi düşüncə tədricən formalaşmağa başladı. C.M.Keynsin yanaşmasına görə, *"dövlət iqtisadiyyatda passiv müşahidəçi deyil, faiz dərəcələrinin aşağı salınması, dövlət xərclərinin və dövlətin alqı-satqı əməliyyatlarının artırılması, eləcə də kapital qoyuluşlarının daha səmərəli istiqamətlərə yönəldilməsi vasitəsilə iqtisadi fəallığı birbaşa stimullaşdıran əsas tənzimləyici subyekt kimi çıxış etməlidir"* [125, s. 18–19]. Bu alətlər vasitəsilə dövlət tənzimlənməsi məcmu tələbin artmasına, investisiya

fəallığının genişlənməsinə, məşğulluğun yüksəlməsinə və bunun nəticəsində iqtisadi artımın formalaşmasına təsir göstərir. Eyni zamanda həmin təsir mexanizmi istehsalın canlanmasına, iqtisadi aktivliyin güclənməsinə və inkişafın daha dayanıqlı xarakter almasına şərait yaradır.

C.Keynsin tərəfdarlarından olan C.Stiqlis iqtisadi böhran şəraitində dövlətin büdcə gəlirləri və xərcləri vasitəsilə iqtisadi proseslərə daha aktiv şəkildə müdaxilə etməli olduğunu əsaslandırırdı. O qeyd edirdi ki, "*fövqəladə vəziyyətlərdə və müharibə şəraitində iqtisadi geriləmənin qarşısının alınması və sosial problemlərin həllinə dəstək göstərilməsi baxımından dövlətin iqtisadiyyata müdaxiləsi mühüm əhəmiyyət kəsb edir"* [111]. Fikrimizcə hazırkı qloballaşma, böhranlar, iqlim dəyişikliyi, ölkələrarası siyasi münaqişələr, enerji problemləri və s. bu kimi neqativ halların artması dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyini şərtləndiririr.

Əslində isə hər iki yanaşmada əhəmiyyətli doğruluq payı vardır. Yəni dövlət iqtisadiyyatı nə tam azad edə, nə də tam olaraq nəzarət altına ala bilməz. Dövlətin iqtisadi proseslərin tənzimlənməsində rolu konkret tarixi, sosial-iqtisadi və institusional şərtlərə uyğun olaraq dəyişə bilir [39].

Dövlət tənzimlənməsi ilə bağlı aparılan araşdırmaların ümumiləşdirilməsi iqtisadi sistemlərin idarə olunmasının əsasən iki qütbə: dirijist və liberal qütblərə bölündüyünü göstərir.

Beləliklə də "liberal" və "dirijist" yanaşmalarla bağlı müasir elmi ədəbiyyatların icmalından ortaya belə bir nəticə çıxarmaq olar:

Cədvəl 1.1.1-dən göründüyü kimi, liberal və dirijist yanaşma üzrə üstünlüklər və çatışmazlıqlar verilmişdir. Burada ən mühüm üstünlüklərdən biri kimi gəlirlərin ədalətli bölgüsünü xüsusi olaraq qeyd etmək olar. Çünki bu amil sosial bazar iqtisadiyyatı prinsipləri baxımından olduqca vacib hesab olunur. Həmin yanaşmada bazar tarazlığının qorunması da xüsusi əhəmiyyət daşıyır. Bu, yalnız iqtisadi sabitlik baxımından deyil, həm də davamlı inkişafın təmin olunması üçün fundamental şərt kimi qiymətləndirilə bilər. Ən azı ona görə ki, bazar tarazlığı və ya sabit iqtisadi artım uzunmüddətli və davamlı inkişafın əsas prinsiplərindən biri kimi qəbul edilir.

Cədvəl 1.1.1.

İqtisadiyyata dövlət müdaxiləsi barədə liberal və dirijist yanaşmaların üstünlükləri və çatışmazlıqları

	Üstünlüklər	**Çatışmazlıqlar**
Liberal yanaşma	1. Bazar qüvvələri vasitəsilə effektivliyi təmin edir; 2. İnnovasiyaları və sahibkarlığı təşviq edir; 3. Bürokratik müdaxiləni minimuma endirir; 4. Dövlət bürokratiyasının azaldılması; 5. Aşağı vergilər və az tənzimləmə; 6. Mexanizmlərin genişlənməsini təşviq edir; 7. Fərdi təşəbbüsləri təşviq edir; 8. İqtisadi azadlığı artırır; 9. Dövlət xərclərinin azaldılmasına imkan verir; 10. Xarici investisiyaların cəlbini təşviq edir.	1. Gəlir bərabərsizliyi arta bilər; 2. Sosial təminat olmaması; 3. Bazar təhrifləri yarana bilər (məs. inhisarlar, koordinasiyanın olmaması); 4. Cəmiyyətin sosial təminatının kifayətsizliyi; 5. Resursların qeyri-bərabər bölgüsü; 6. Böhran dövrlərinə qarşı dayanıqlı bazarın olmaması; 7. Ekoloji mühitin qorunması və ətraf mühitin nəzarətsiz qalması; 8. Sosial həssas və fəaliyyət qabiliyyəti olmayan (əlillər, qocalar, uşaqlar və s.) əhalinin diqqətdən kənar qalması.
Dirijist yanaşma	1. Gəlir bölgüsünün bərabərliyi; 2. Bazarda müvazinətin qorunması imkanı;	1. Bürokratik səmərəsizlik ehtimalı; 2. Özəl sahibkarlıq fəaliyyəti ilə bağlı məhdudiyyətlərin artması; 3. Bazar tərəfdaşlarına cavab verməmək ehtimalı; 4. Korrupsiyaya meylliliyin artması.

Mənbə: *Müəllif tərəfindən tərtib olunub.*

Fikrimcə, liberalizm və dirijizm yanaşmaları üzrə mövcud olan elmi baxışlar arasında müəyyən fərqlilikləri qeyd etmək məqsədəuyğundur. Belə ki, liberalizm fərdiyyətçiliyə (individualizmə) əsaslanır, dirijizm isə kollektiv yanaşmanı önə çəkir. Lakin qeyd etmək lazımdır ki, dirijizm sosializm ilə eyniləşdirilməməlidir. Həmçinin, dirijizm ilə dövlət müdaxiləsi anlayışları arasında fərqlər mövcuddur. Dövlət müdaxiləsi çərçivəsində bəzi problemlərin fərdi səviyyədə həlli nəzərdə tutula bilər. Məsələn, bəzi istehsalçılara dövlət yardımı göstərilməsi və ya müəyyən fəaliyyət sahələrinin məhdudlaşdırılması kimi tədbirlər buna aid edilə bilər. Lakin dirijizmdə bütün problemlər ümumi və vahid iqtisadi siyasət çərçivəsində həll olunur.

Müasir dirijizm dövlət müdaxiləsinin ümumiləşdirilmiş və sistemləşdirilmiş formasıdır və bu müdaxilə əsasən istiqamətverici xarakter daşıyır. Onun məqsədi iqtisadi inkişafı sürətləndirmək və sabitliyi təmin etməkdir. Bütün bu xüsusiyyətlər

dirijizmi həm liberal iqtisadi yanaşmadan, həm də inzibati-amirlik sistemindən fərqləndirir.

İqtisadi liberalizm fərdi hüquqlara əsaslanan və həmin hüquqlarla idarə olunan iqtisadi sistem ideyasını dəstəkləyən ideologiyadır. Bu yanaşmaya görə, dövlət sənaye və ticarət fəaliyyəti ilə məşğul olmamalı və fərdlər, qruplar, siniflər və ya bütöv xalqlar arasında iqtisadi münasibətlərə mümkün qədər müdaxilə etməməlidir.

İqtisadi liberalizmin əsas sütunları sərvət və mülkiyyətdir. Liberalizm kapitalist iqtisadi sistemin təməlini təşkil etməklə yanaşı, dövlətin müəyyən üstünlüklərindən faydalanaraq, mərkəzləşdirilmiş idarəetmə siyasətinə alternativ mövqe ortaya qoyur. Bütün bunlarla yanaşı, dövlət iqtisadi siyasəti həyata keçirərkən milli, tarixi, iqlim, demoqrafik və digər qeyri-bazar amillərini nəzərə alır, həmçinin dünya iqtisadiyyatında milli maraqların qorunması və təbliği istiqamətində fəaliyyət göstərir.

Onu da qeyd etmək lazımdır ki, hətta inkişaf etmiş bazar iqtisadiyyatları belə daimi, dəqiq ölçülmüş, elmi cəhətdən əsaslandırılmış və iqtisadi baxımdan hesablanmış dövlət tənzimlənməsinə ehtiyac duyur. Yüksək inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar mexanizmi bütün üstünlüklərinə baxmayaraq, iqtisadi və sosial proseslərin tarazlı inkişafını tam şəkildə öz-özünə təmin edə bilmir [5, s.35]. Məhz buna görə iqtisadi proseslərə dövlət müdaxiləsini zəruri və qaçılmaz edən ciddi sosial təsirə malik bir sıra amillər mövcuddur. Həmin amilləri ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi qruplaşdırmaq olar.

Gəlirlərin yenidən bölüşdürülməsi zərurəti: Bazar iqtisadiyyatı şəraitində gəlirlərin bölgüsü o halda ədalətli hesab oluna bilər ki, bu bölgü fərdlərin istehsal resurslarının idarə olunmasında iştirak səviyyəsinə və iqtisadi fəaliyyətinin səmərəlilik dərəcəsinə uyğun həyata keçirilsin [113; 80; 95]. Lakin real iqtisadi və sosial şərait göstərir ki, cəmiyyətin tərkibinə istehsal resursuna malik olmayan, əmək bazarında iştirak etməyən, əmək qabiliyyəti olmayan və ya müxtəlif səbəblərdən gəlir əldə etməyən insanlar da daxildir. Belə hallarda bazar mexanizmi gəlirlərin ədalətli bölgüsünü və əhalinin sosial cəhətdən həssas qruplarının minimum təminatını öz-özünə təmin edə bilmir. Bu baxımdan gəlirlərin yenidən bölüşdürülməsi prosesində

dövlətin müdaxiləsi zəruri hesab edilir və sosial ədalətin təmin olunması baxımından daha məqsədəuyğun sayılır.

Məşğulluğun təmin olunması və əmək bazarının tənzimlənməsinin sosial əhəmiyyəti. Dövlət müdaxiləsinin zəruriliyini əsaslandıran mühüm arqumentlərdən biri ondan ibarətdir ki, bazar mexanizmi öz-özlüyündə hər kəsin işləmək hüququnun reallaşmasını təmin etmək imkanına malik deyildir. Bu səbəbdən bazar iqtisadiyyatının sərt və dəyişkən şərtləri işsizlik probleminin yaranmasını qaçılmaz edir [79; 114; 96; 126]. İşsizlik isə öz növbəsində ölkədə sosial-iqtisadi sabitliyi zəiflədən əsas amillərdən birinə çevrilə bilər. Belə şəraitdə dövlətin başlıca funksiyalarından biri iqtisadi fəallığın stimullaşdırılması, əhalinin istehsal prosesində iştirakının genişləndirilməsi və məşğulluğunun dəstəklənməsidir. Bu məqsədlə dövlət yalnız məşğulluq səviyyəsinin qorunub saxlanılmasına yönəlmiş siyasət həyata keçirməməli, eyni zamanda əmək bazarında minimum sosial standartların, o cümlədən yaşayış minimumunun və minimum əməkhaqqının tətbiqini və qorunmasını da təmin etməlidir. Məhz bu yanaşma əmək bazarının tənzimlənməsini sosial müdafiə funksiyası ilə əlaqələndirir, əhalinin gəlir təminatının minimum həddini müəyyənləşdirir və sosial ədalətin qorunmasına xidmət edir.

İnhisarçılıq və inflyasiya ilə mübarizə. İqtisadi fəaliyyət subyektləri, xüsusilə istehsalçılar, bazarın müəyyən seqmentində üstün mövqe əldə etməyə, bazar payını artırmağa və gəlirlərini maksimallaşdırmağa çalışırlar. Bu cəhdlər çox vaxt inhisarçılığın formalaşmasına gətirib çıxarır. Nəticədə, rəqabət mühiti zəifləyir, bazar mexanizmlərinin səmərəliliyi azalır və qiymətlərin süni şəkildə artırılması hesabına inflyasiya səviyyəsi yüksəlir. Belə şəraitdə dövlətin iqtisadiyyata müdaxiləsi inhisarçılığın qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət bu məqsədlə antiinhisar qanunvericiliyini formalaşdırır, bazarda dominant mövqe tutan təsərrüfat subyektlərinin fəaliyyətini monitorinq vasitəsilə nəzarətdə saxlayır və sağlam rəqabət mühitinin təmin olunmasına yönəlmiş tənzimləmə tədbirləri həyata keçirir.

Ümumiyyətlə, tam qətiyyətlə demək olar ki, sosial-iqtisadi sistemlərin bütün milli modellərində dövlət iqtisadi proseslərin tənzimlənməsində iştirak edir. Təbii ki, müasir

bazar iqtisadiyyatı şəraitində bu tənzimləmə əvvəlki mərkəzləşdirilmiş planlaşdırma sistemləri ilə müqayisədə daha məhdud miqyasda və daha çevik mexanizmlərlə həyata keçirilir.

Dövlətin iqtisadiyyata müdaxiləsi liberal və dirijist nəzəriyyələr arasında spektr təşkil edir. Müdaxilənin varlığı ümumən zəruri, səviyyəsi isə tarixi-institusional şəraitə, bazar uğursuzluqlarının (rəqabət çatışmazlığı, eksternallıqlar, informasiya asimmetriyası) dərəcəsinə və sosial məqsədlərə görə kontekst-asılı olmalıdır.

Effektiv tənzimləmə həm makro (büdcə-pul siyasəti, böhran dövrlərində stabilizasiya), həm də mikro səviyyədə (antiinhisar nəzarəti, mülkiyyət hüquqlarının qorunması, sosial müdafiə) icra olunanda bazar mexanizmlərini tamamlayır və rifahı artırır, yalnız bazara, yaxud yalnız dövlətə güvənən "tərəfli" model qeyri-sabitlik riski yaradır.

İnkişafın nəticəsi dövlət müdaxiləsinin "çox" və ya "az" olmasından deyil, keyfiyyətindən və hədəflənməsindən asılıdır: "xüsusiyyət - alət - gözlənilən təsir" ardıcıllığı ilə qurulan siyasətlər (məs., işsizlik - fəal məşğulluq proqramları; inhisar riski - rəqabət siyasəti) daha yüksək iqtisadi səmərəlilik və sosial ədalət təmin edir.

1.2. Aqrar sahəyə dövlət müdaxiləsinin vacibliyini səciyyələndirən amillərin nəzəri əsasları

Dövlətin ümumi iqtisadi siyasəti çərçivəsində aqrar siyasətin nisbətən müstəqil bir istiqamət kimi formalaşması, ilk növbədə, kənd təsərrüfatı istehsalının və aqrar münasibətlərin digər sahələrlə müqayisədə daha spesifik xüsusiyyətlərə malik olması ilə bağlıdır. Aqrar siyasət yalnız kənd təsərrüfatı sektorunun daxili inkişafını deyil, bütövlükdə aqrobiznes mühitində istehsal fəaliyyətinin səmərəliliyinin artırılmasını, yüksək yekun nəticələrin əldə olunmasını, istehsalın sabit artım templərinin təmin edilməsini və kənd ərazilərinin sosial inkişafını özündə birləşdirən kompleks istiqamət kimi çıxış edir [6, s. 23]. Bu baxımdan aqrar siyasət təkcə iqtisadi alətlərin məcmusu deyil, həm də kənd yerlərinin sosial, institusional və infrastruktur inkişafını əhatə edən çoxsahəli dövlət siyasəti kimi nəzərdən keçirilməlidir.

Aqrar siyasətin mahiyyəti ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. P. Sovetovun nöqteyi-nəzərincə, aqrar siyasət *"əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə kənd təsərrüfatı istehsalı prosesinə məqsədyönlü təsirin istiqamətlərini, formalarını, vasitələrini və metodlarını özündə birləşdirən vahid, elmi əsaslandırılmış sistemdir"* [132, s. 31]. Bu yanaşma aqrar siyasətin təkcə idarəetmə tədbirləri toplusu olmadığını, onun həm də strateji və elmi cəhətdən əsaslandırılmış müdaxilə sistemi olduğunu göstərir. S.V.Salahov isə aqrar sahənin dövlət tənzimlənməsinin bütün dövrlərdə və bütün ölkələr üçün aktual olduğunu vurğulayaraq qeyd edir ki, *"aqrar sahə hətta inkişaf etmiş ölkələrdə belə dövlətin xüsusi nəzarəti və müdafiəsi altında olan ayrıca bir istiqamət kimi çıxış edir"*[52, s. 219]. Bu fikir aqrar sahənin bazar mexanizmlərinə tam şəkildə buraxılmasının praktik baxımdan mümkün olmadığını və dövlətin bu sahədə daim iştirak etdiyini təsdiqləyir.

Fikrimizcə, aqrar siyasətin başlıca məqsədi kənd təsərrüfatı və aqrobiznes sisteminin davamlı inkişafını təmin etmək, ərzaq təhlükəsizliyini möhkəmləndirmək, kənd əhalisinin rifahını yüksəltmək və bu sahənin ölkə iqtisadiyyatında sabit və rəqabətqabiliyyətli mövqeyini gücləndirməkdən ibarətdir. Bu məqsəd yalnız istehsalın genişləndirilməsi ilə məhdudlaşmır. Buraya resurslardan səmərəli istifadə, texniki və texnoloji modernləşmə, kənd yerlərində məşğulluğun dəstəklənməsi, risklərin azaldılması və ekoloji tarazlığın qorunması kimi məsələlər də daxildir. Aqrar siyasətin məqsəd və prioritetləri ilə bağlı mövcud yanaşmalar göstərir ki, müasir mərhələdə bu siyasətin əsas istiqamətləri sırasında maliyyə-kredit sisteminin təkmilləşdirilməsi, investisiya fəallığının gücləndirilməsi, texniki təminatın yenilənməsinin sürətləndirilməsi, lizinq mexanizmlərinin inkişafı və kənd təsərrüfatı ilə sənaye arasında qiymət paritetinin qorunması xüsusi yer tutur. Bu isə aqrar siyasətin iqtisadi, institusional və sosial komponentlərinin bir-biri ilə sıx bağlı olduğunu göstərir [49].

Qeyd etmək lazımdır ki, aqrar sahənin dövlət tərəfindən tənzimlənməsi ilə dövlət dəstəyi anlayışları bir-birinə yaxın olsa da, eyni məzmuna malik deyildir. Dövlət dəstəyi əsasən, aqrar istehsalın stimullaşdırılmasına, fermerlərin gəlirlərinin qorunmasına, subsidiyalar, kredit güzəştləri, kompensasiyalar və digər təşviq mexanizmləri vasitəsilə istehsalın inkişafına yardım göstərilməsinə yönəlir. Dövlət

tənzimlənməsi isə daha geniş məzmun daşıyır və təkcə dəstək tədbirlərini deyil, həm də istehsalın strukturunun dəyişdirilməsini, müəyyən hallarda məhdudlaşdırılmasını, bazar tarazlığının qorunmasını, keyfiyyət, təhlükəsizlik və ekoloji standartların tətbiqini, idxal-ixrac axınlarının tənzimlənməsini və institusional nəzarət mexanizmlərini də əhatə edir. Bu mənada dövlət tənzimlənməsi aqrar sahədə istehsal, emal, tədarük, satış, xidmət və maddi-texniki təminat zəncirinə təsir göstərən daha geniş təsir sistemi kimi çıxış edir. E.A.Quliyev aqrar sahənin dövlət tənzimlənməsini *"dövlətin istehsal, təkrar emal və kənd təsərrüfatı məhsulları və ərzağın satışının təşkili, həmçinin istehsal-texniki xidmətə və maddi-texniki təminata iqtisadi təsiri"* kimi dəyərləndirir [49, s. 37].


Lakin bu sistem daxilində əsas ağırlıq, bir qayda olaraq, kənd təsərrüfatı istehsalı və ona birbaşa xidmət edən fəaliyyət sahələrinin üzərinə düşür. Aqrar emal sahəsi ərzaq təhlükəsizliyi, sanitar tələblər, logistika və xammal bazası baxımından aqrar sistemin mühüm həlqəsi olsa da, əksər hallarda ümumi sənaye və sahibkarlıq münasibətləri çərçivəsində fəaliyyət göstərir. Buna görə də aqrar emala təsir göstərən tənzimləmə alətləri çox vaxt ümumi sənaye siyasəti ilə kəsişir. Dövlətin xüsusi güzəşt, subsidiya, kompensasiya və təşviq mexanizmlərinin əsas ağırlıq mərkəzi isə daha çox birbaşa kənd təsərrüfatı istehsalına və bu istehsalın davamlılığını təmin edən sahələrə yönəlir. Bu xüsusiyyət aqrar siyasətin praktik tətbiqində kənd təsərrüfatını aqrar sahənin əsas nüvəsi kimi ön plana çıxarır.

Aparılan araşdırmalar göstərir ki, aqrar sahənin dövlət tərəfindən tənzimlənməsinin forma, metod, alət və mexanizmləri ilə bağlı ədəbiyyatda tam vahid yanaşma formalaşmamışdır. Bununla belə, bu sahədə istifadə olunan müdaxilə üsullarını mahiyyət etibarilə iki əsas istiqamət üzrə qruplaşdırmaq mümkündür: birbaşa və dolayı təsir metodları [119; 46]. Birbaşa tənzimləmə dövlətin təsərrüfat subyektlərinin fəaliyyətinə bilavasitə təsir göstərməsini və istehsalın inkişafına yönəlmiş maliyyə və təşkilati dəstəyin birbaşa təqdim olunmasını nəzərdə tutur. Bu qrupa dövlət investisiyaları, güzəştli kreditlər, subsidiya ödənişləri, əkin sahəsinə və ya heyvan başına görə verilən dəstəklər, qiymət və tarif tənzimlənməsi, dövlət sifarişləri və müəyyən məhsullar üzrə birbaşa alış mexanizmləri daxil edilə bilər.

Dolayı təsir metodları isə dövlətin maliyyə resurslarını birbaşa istehsalçının dövriyyəsinə yönəltmədən ümumi iqtisadi mühitə təsir göstərməsi ilə xarakterizə olunur. Bu metodlar makroiqtisadi tarazlığın qorunmasına, özəl sahibkarlığın genişlənməsi üçün əlverişli şəraitin yaradılmasına, bazar risklərinin azaldılmasına və uzunmüddətli inkişaf üçün sabit institusional çərçivənin formalaşdırılmasına xidmət edir. Onların təsiri kənd təsərrüfatı məhsullarına, xammala, ərzağa, tədarük və satış proseslərinə dolayı şəkildə, nisbətən orta səviyyəli iqtisadi təsir formasında özünü göstərir. Dolayı iqtisadi mexanizmlər daha çox büdcə, vergi və pul-kredit siyasəti ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bununla yanaşı, aqrar sahənin dövlət tənzimlənməsi sisteminə lisenziyalaşdırma, ixrac subsidiyaları, idxal kvotaları, antiinhisar tədbirləri, fitosanitar, ekoloji və baytarlıq nəzarəti kimi vasitələr də daxildir [119, s. 1475].

Professor E.A.Quliyev dövlət təsiri metodlarını daha da detallı şəkildə təşkilati-institusional, inzibati və iqtisadi metodlar kimi fərqləndirir [49, s. 37]. Təşkilati-institusional metodlar aqrar sahədə idarəetmə və tənzimləmə sisteminin formalaşdırılmasına, müvafiq institutların qurulmasına, onların funksional əlaqələrinin və məsuliyyət bölgüsünün müəyyənləşdirilməsinə xidmət edir. İnzibati metodlar hüquqi-normativ və inzibati tədbirlər vasitəsilə dövlətin aqrar-sənaye kompleksində davamlı təkrar istehsala birbaşa müdaxiləsini əks etdirir. İqtisadi metodlar isə dövlətin iqtisadi vasitələrdən istifadə etməklə təkrar istehsal prosesinə dolayı təsir göstərməsini nəzərdə tutur. Bu yanaşma aqrar sahənin tənzimlənməsində istifadə olunan alətlərin çoxsəviyyəli və qarşılıqlı bağlı xarakter daşıdığını göstərir.

Beləliklə, aqrar sahədə dövlət tənzimlənməsi sistemi şəkil 1.2.1.-də ümumiləşdirilərək təqdim edilmişdir.



Şəkil 1.2.1. Aqrar sahədə dövlət tənzimlənməsi sisteminin ümumi təsviri

Mənbə: *Müəllif tərəfindən tərtib olunub.*

İqtisadi ədəbiyyatda aqrar sahənin dövlət səviyyəsində dəstəklənməsi ilə bağlı müxtəlif istiqamətlər də qeyd olunur. Bunlara əmtəə istehsalçılarının subsidiyalaşdırılması, müəssisələrdə səmərəli idarəetmə sisteminin formalaşdırılmasına dəstək göstərilməsi, informasiya və məsləhət xidmətlərinin təşkili, vergi və digər tənzimləyici alətlər vasitəsilə aqrar sahibkarlığın stimullaşdırılması, habelə əlverişli sahibkarlıq mühitinin yaradılması aid edilir. Aqrar sahəyə dövlət dəstəyi zəruri maliyyə təminatına, yardımın operativliyinə, maddi dəstəyin hədəfli və ünvanlı xarakterinə, kiçik sahibkarlığın inkişafını təşviq edən mexanizmlərin mövcudluğuna və regional proqramlarda ərazilərin spesifik xüsusiyyətlərinin nəzərə alınmasına əsaslanmalıdır. Bu, dövlət dəstəyinin yalnız maliyyə yardımı deyil, həm də struktur və institusional modernləşməni nəzərdə tutduğunu göstərir.

Aqrar sahənin dövlət tərəfindən tənzimlənməsinin obyektiv zəruriliyi bir sıra mühüm amillərlə bağlıdır. İlk növbədə bu zərurət milli ərzaq təhlükəsizliyinin təmin olunması ilə əlaqədardır [88, s. 34]. M. Jeliç aqrar sahənin spesifikliyini, bu sahədə tətbiq olunan güzəşt və dəstək mexanizmlərinin genişliyini, eləcə də dövlət müdaxiləsinin əhəmiyyətini *"kənd təsərrüfatı istehsalının səmərəliliyinin artırılması, fermer gəlirlərinin qorunması, milli və ərzaq təhlükəsizliyinin təmin olunması, kənd yerlərində ictimai rifahın yüksəldilməsi və idxaldan asılılığın azaldılması"* kimi

amillərlə əsaslandırır [82, s. 29]. Bu yanaşma aqrar sahənin təkcə iqtisadi deyil, eyni zamanda sosial və strateji xarakter daşıdığını göstərir. Təbii ki, dövlətlər kənd təsərrüfatına müdaxilə edərkən yalnız istehsal məsələlərini deyil, eyni zamanda sosial sabitlik, regional inkişaf, beynəlxalq rəqabət və milli təhlükəsizliklə bağlı amilləri də nəzərə alırlar.

Aqrar sahənin tənzimlənməsinin səciyyəvi xüsusiyyətləri də məhz bu çoxşaxəli mahiyyətdən irəli gəlir. Aqrar sahənin tənzimlənməsi digər iqtisadi fəaliyyət istiqamətlərinin tənzimlənməsindən bir sıra cəhətlərinə görə fərqlənir. Bu fərqlər aqrar istehsalın təbii-iqlim şəraitindən yüksək asılılığı, mövsümi xarakter daşıması, risk səviyyəsinin yüksəkliyi, qiymət və gəlir dəyişkənliyi, resurslardan istifadənin məhdudluğu, eləcə də ərzaq təhlükəsizliyinin təmin olunmasında xüsusi rol oynaması ilə bağlıdır. Buna görə də aqrar sahədə dövlət tənzimlənməsi yalnız iqtisadi səmərəlilik məqsədləri ilə deyil, eyni zamanda sosial sabitliyin, ərzaq təminatının və kənd yerlərinin davamlı inkişafının qorunması baxımından da xüsusi əhəmiyyət kəsb edir [1].

Son yarım əsrdə dünyada əhali sayının artması, qlobal istiləşmə, torpaqların eroziyası, təbii ehtiyatlardan qeyri-səmərəli istifadə, israfçılıq və digər amillər aqrar sahəyə və xüsusilə kənd təsərrüfatı ilə ona xidmət edən sektorların tənzimlənməsinə yanaşmaların yenidən nəzərdən keçirilməsinə səbəb olmuşdur. Qeyd olunan illər ərzində inkişaf etməkdə olan ölkələrdə sənayeləşmənin və inkişaf etmiş ölkələrdə xidmətlər sektorunda sürətli artımın baş verməsi nəticəsində qlobal iqtisadiyyatda kənd təsərrüfatının payı əhəmiyyətli dərəcədə azalmışdır və bu da aqrar sahənin tənzimlənməsində ciddi dəyişikliklərə gətirib çıxarmışdır. Bir çox ölkələrdə kənd təsərrüfatı əvvəlki kimi iqtisadiyyatın aparıcı dayaqlarından biri hesab edilməsə də, ərzaq təhlükəsizliyi, məşğulluq, regional inkişaf və sosial sabitlik baxımından strateji əhəmiyyətini qoruyub saxlamaqdadır [55]. Bu səbəbdən dövlətlər aqrar sahəni dəstəkləmək üçün subsidiyalar, texnoloji modernləşmə təşviqləri, innovasiya proqramları, bazar tənzimləmə mexanizmləri və institusional islahatlar kimi müxtəlif vasitələrdən istifadə etməyə davam edirlər [136].

Qeyd olunmalıdır ki, əhali artımı nəticəsində qidaya olan tələbatın yüksəlməsi aqrar sahənin yükünü daha da artırmışdır. BMT, Dünya Bankı və Avropa İttifaqı kimi beynəlxalq qurumların proqnozlarına görə, 2050-ci ilə qədər artan əhalinin tələbatını ödəmək üçün kənd təsərrüfatı istehsalında əhəmiyyətli genişlənmə və məhsuldarlıq artımı tələb olunur. Bununla yanaşı, iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması, torpaq və su ehtiyatlarının keyfiyyətinin zəifləməsi, beynəlxalq ərzaq bazarlarında qiymət qeyri-sabitliyi kimi problemlər aqrar siyasətin və dövlət tənzimlənməsinin funksional çərçivəsini daha da genişləndirmişdir [96]. Bu çağırışlara cavab vermək üçün təkcə istehsalın artırılması deyil, həm də resurslardan səmərəli istifadə, davamlı istehsal üsullarının tətbiqi, genetik seleksiya imkanlarından istifadə, yüksək məhsuldarlığa malik toxumların tətbiqi, ağıllı kənd təsərrüfatı texnologiyalarının yayılması və elmi tədqiqatların gücləndirilməsi tələb olunur [167; 157; 156].

Son onilliklərdə qlobal kənd təsərrüfatı istehsalında mühüm struktur dəyişiklikləri də baş vermişdir. İnkişaf etmiş ölkələrin dünya kənd təsərrüfatı istehsalındakı nisbi payı azalarkən, inkişaf etməkdə olan ölkələrin payı artmışdır. Lakin bu meyl inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalının azalması ilə deyil, əksinə, istehsal həcmi artdığı halda sənaye, xidmət və digər sahələrin daha sürətli inkişaf etməsi nəticəsində həmin sahənin nisbi xüsusi çəkisinin aşağı düşməsi ilə izah olunur. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrdə aqrar istehsal potensialının genişlənməsi, texnologiyaların yayılması, investisiya axınının güclənməsi və kənd təsərrüfatı məhsullarına artan qlobal tələbat bu ölkələrin dünya kənd təsərrüfatı istehsalındakı rolunu yüksəltmişdir. "*İnkişaf etmiş ölkələrdə isə aqrar istehsal daha çox kapitalla intensiv, yüksək səviyyədə avtomatlaşdırılmış, yüksək əlavə dəyər yaradan, ixracyönümlü və ekoloji baxımdan dayanıqlı modellərə keçid etmişdir. Bu səbəbdən həmin ölkələrdə kənd təsərrüfatı iqtisadiyyatın xüsusi çəkisinə görə nisbətən kiçik, lakin məhsuldarlığı, texnoloji səviyyəsi və gəlirliliyi yüksək olan bir sahəyə çevrilmişdir"* [94, s. 5].

Aqrar sahə, xüsusilə inkişaf etməkdə olan və aşağı gəlirli ölkələrdə əhalinin mühüm bir hissəsi üçün əsas məşğulluq və gəlir mənbəyi olaraq qalır. Kənd təsərrüfatı bu ölkələrdə yalnız ərzaq təminatının deyil, həm də sosial sabitliyin və yoxsulluğun

azaldılmasının əsas dayaqlarından biri hesab olunur. Bunun başlıca səbəbləri ondan ibarətdir ki, bir tərəfdən aqrar sahə əhalinin sağlam və keyfiyyətli qida məhsulları ilə fasiləsiz təminatını şərtləndirir, digər tərəfdən isə yüksək risk daşıyan bir fəaliyyət növüdür. Hava şəraiti, zərərvericilər, bazar dalğalanmaları, texniki təminatın zəifliyi, torpaq və su ehtiyatlarının keyfiyyəti, məhsulun saxlanılması və satış imkanları bu sahədə nəticələrə ciddi təsir göstərir. Bundan əlavə torpağın eroziyası, su ehtiyatlarının çirklənməsi və biomüxtəlifliyin azalması kimi proseslər kənd təsərrüfatında davamlılığın pozulmasına səbəb olur. Kimyəvi gübrələrdən, pestisidlərdən və digər aqrokimyəvi vasitələrdən həddindən artıq istifadə isə ekoloji problemləri daha da dərinləşdirir. Bu səbəbdən dövlətlər ekoloji baxımdan dayanıqlı kənd təsərrüfatı modellərinin tətbiqini dəstəkləməyə məcbur olurlar.

Müasir şəraitdə aqrar sahə qloballaşma meyllərinin, texnoloji yeniliklərin, ekoloji çağırışların və rəqəmsallaşmanın təsiri altında ciddi transformasiyalar yaşayır. Qlobal ticarətin genişlənməsi, beynəlxalq standartların sərtləşməsi və beynəlxalq bazarlarla inteqrasiya kənd təsərrüfatının yalnız lokal deyil, həm də qlobal səviyyədə rəqabətqabiliyyətli olmasını zəruri etmişdir. Bu dəyişikliklər fonunda bir çox dövlətlər iqlim dəyişikliyi, resurs çatışmazlığı, ərzaq təhlükəsizliyi və iqtisadi sabitlik kimi çağırışlara cavab vermək üçün aqrar siyasətlərinin əhatə dairəsini və funksional yönünü genişləndirmişlər. Məqsəd artıq yalnız ərzaq istehsalını artırmaq deyil, eyni zamanda kənd təsərrüfatını iqlim dəyişikliklərinə davamlı, ekoloji cəhətdən dayanıqlı, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli və innovativ sektora çevirməkdən ibarətdir.

Dünya dövlətlərinin iqtisadi siyasətinin əsas tərkib hissələrindən biri də aqrar sahənin, xüsusilə kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsidir [150]. Bu sahə yalnız iqtisadi deyil, həm də sosial və strateji baxımdan əhəmiyyət daşıdığına görə onun inkişafı və davamlılığı üçün dövlət müdaxiləsi vacib hesab olunur. Aqrar sahənin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini əsaslandıran yanaşmalar müxtəlif olsa da, onların məntiqi nəticəsi ondan ibarətdir ki, müasir bazar iqtisadiyyatı şəraitində aqrar sahə dövlətin fəal tənzimləmə obyektinə çevrilməlidir [92;109;105]. R.Romanova aqrar sahənin dövlət tərəfindən tənzimlənməsinin əhəmiyyətini *"ictimai*

maraqların təminatçısı və bazar münasibətlərinin subyekti kimi dövlətin dayanıqlı inkişafını sabitləşdirmək və təmin etmək məqsədilə ehtiyatların bölgüsü və istehsal nisbətlərinin formalaşdırılması prosesinə birbaşa və dolayı təsir göstərilməsi" kimi qiymətləndirir [130, s. 99].

Aqrar sahədə istehsalın tənzimlənməsi və stimullaşdırılması mexanizmləri ölkələrin həyata keçirdiyi siyasətdən asılı olaraq müxtəlif formalarda tətbiq edilir. İƏİT-in hesabatlarında aqrar sahəyə, xüsusilə kənd təsərrüfatına tətbiq edilən güzəşt və dəstək alətlərinə gəlirə, mənfəətə, kapital artımına, sosial sığorta haqlarına, əmlaka, icarəyə, rüsumlara, əmək ödənişlərinə və əlavə dəyərə tətbiq edilən vergi güzəştləri, eləcə də müxtəlif növ kənd təsərrüfatı məhsullarına verilən subsidiyalar aid edilir [98, s. 24]. Tətbiq olunan bu genişmiqyaslı güzəşt və dəstək mexanizmləri aqrar sahənin sosial-iqtisadi baxımdan həssas xarakteri ilə əlaqələndirilə bilər. Bu səbəbdən aqrar sahənin dövlət tərəfindən səmərəli tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edir. Məhdud resurslar şəraitində bu sahədə məhsuldarlığın artırılması ərzaq təhlükəsizliyinin təmin olunmasına və davamlı inkişafın dəstəklənməsinə müsbət təsir göstərir. Bununla yanaşı tənzimləmənin effektivliyi bir sıra amillərlə sıx bağlıdır və bu, ölkə iqtisadiyyatının inkişaf və ya tənəzzül dinamikasından asılı olaraq dəyişə bilər.

R.Divanbeigi və F.Saliolanın tədqiqatlarının nəticələrinə əsasən, *"əməliyyat xərclərinin nisbətən aşağı olduğu və tənzimləyici təcrübəyə daha çox riayət edilən ölkələrdə kənd təsərrüfatı məhsuldarlığı daha yüksək olur"* [65, s. 11]. B.Ataşov da "*səmərəli tənzimləmə və idarəetmənin aqrar istehsalda məhsuldarlığın artmasına, sosial rifahın yüksəldilməsinə və kənd yerlərində həyat səviyyəsinin yaxşılaşmasına müsbət təsir göstərdiyini"* qeyd edir [11, s. 73]. Tədqiqatlar göstərir ki, kənd təsərrüfatında baş verən artım kənd əhalisinin gəlirlərinin artırılmasında digər iqtisadi sahələrlə müqayisədə daha təsirli olur. Bu, kənd təsərrüfatının inkişaf etməkdə olan ölkələrdə geniş əhali kütləsinin əsas məşğulluq və dolanışıq mənbəyi olması ilə bağlıdır. İ.İbrahimov haqlı olaraq *"kənd təsərrüfatı sahəsində məhsuldarlığın və gəlirlərin artmasının kənd yerlərində yaşayan əhalinin iqtisadi vəziyyətinin birbaşa yaxşılaşmasında, sosial bərabərsizliyin azaldılmasında, regional inkişafın stimullaşdırılmasında əhəmiyyətli yer tutduğunu"* qeyd edir [33, s. 172]. Dünya

Bankının 2024-cü il üzrə qiymətləndirmələrinə əsasən, dünyada ifrat yoxsulluq şəraitində yaşayan əhalinin təxminən üçdə ikisi kənd təsərrüfatı sektorunda çalışır [171]. Bu statistika kənd təsərrüfatının yoxsul əhali təbəqəsi üçün nə dərəcədə mühüm gəlir mənbəyi olduğunu və bu sahədə aparılan islahatların sosial rifahın yaxşılaşdırılması baxımından strateji rol oynadığını bir daha təsdiqləyir.

Qeyd olunanları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, inkişaf etmiş bazar iqtisadiyyatı şəraitində aqrar sahənin dövlət tənzimlənməsi kənd təsərrüfatı siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu kontekstdə aqrar sahənin tənzimlənməsində iki əsas yanaşma – liberal və dirijist (aqrar proteksionist) modellər formalaşmışdır. Liberal model bazar mexanizmlərinin üstünlüyünə əsaslanaraq dövlət müdaxiləsinin minimuma endirilməsini nəzərdə tutur. Dirijist model isə dövlətin iqtisadi proseslərdə daha fəal iştirakı ilə səciyyələnir və aqrar sahənin xüsusi müdafiə və dəstək mexanizmləri vasitəsilə tənzimlənməsini nəzərdə tutur [124].

Aqrar sahənin dövlət tənzimlənməsi ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı istehsalının dayanıqlığının qorunması, kənd əhalisinin rifahının yüksəldilməsi, ekoloji tarazlığın saxlanılması və qlobal çağırışlara uyğunlaşmanın təmin edilməsi baxımından obyektiv zərurət kimi çıxış edir. Məhz aqrar sahənin spesifik xüsusiyyətləri onun dövlət tərəfindən digər iqtisadi sahələrlə müqayisədə daha sistemli, çevik və məqsədyönlü şəkildə tənzimlənməsini zəruri edir. Bazar münasibətlərinin dərinləşməsi fonunda dövlətin iqtisadi proseslərə müdaxilə mexanizmləri öz aktuallığını itirməklə yanaşı, daha da mürəkkəbləşir və təkmilləşir.

1.3. Dünya təcrübəsində aqrar sahənin dövlət tənzimlənməsi mexanizmləri

Dünya təcrübəsi göstərir ki, aqrar sahənin inkişafı əksər ölkələrdə prioritet istiqamətlərdən biri kimi qəbul edilir. Bu, yalnız aqrar sahənin iqtisadiyyat üçün yaratdığı əlavə dəyərlə deyil, həm də onun ərzaq təhlükəsizliyinin təmin olunması, məşğulluğun qorunması, kənd əhalisinin rifahının dəstəklənməsi və regional inkişafın stimullaşdırılması baxımından xüsusi əhəmiyyət daşıması ilə bağlıdır. Aqrar sahə

iqtisadi və təbii-bioloji amillərin sıx qarşılıqlı təsiri ilə səciyyələnən mürəkkəb fəaliyyət sferasıdır. Bu sahədə təkrar istehsal prosesləri torpaq, su, texnika, texnologiya, bitkiçilik və heyvandarlıq resurslarının qarşılıqlı əlaqəsi əsasında formalaşdığından onun dövlət tərəfindən tənzimlənməsi iqtisadi və təbii-bioloji qanunauyğunluqların uzlaşdırılmasını və sistemli şəkildə nəzərə alınmasını tələb edir. Məhz bu səbəbdən risklərin azaldılması, istehsalın dayanıqlığının qorunması və kənd təsərrüfatı istehsalçılarının müdafiəsi məqsədilə dövlət müdaxiləsi obyektiv zərurətə çevrilir.

Müşahidələr göstərir ki, son onilliklərdə bir çox ölkələrdə aqrar sahəyə göstərilən maliyyə dəstəyinin strukturu dəyişmişdir. Bir sıra ölkələrdə məhsul istehsalına birbaşa bağlı ödənişlərin və qiymət dəstəyinin payı azalmış, əvəzində ətraf mühitin qorunması, risklərin idarə olunması, kənd yerlərinin inkişafı və fermer gəlirlərinin sabitləşdirilməsinə yönələn mexanizmlərin rolu artmışdır [144]. Bununla belə, aqrar sahəyə müdaxilə səviyyəsi ölkələr üzrə fərqlənir. İnkişaf etmiş bəzi ölkələrdə yüksək dövlət dəstəyi saxlanılmış, bəzi inkişaf etməkdə olan ölkələrdə isə aqrar sahəyə dəstəyin səviyyəsi müəyyən qədər artırılmışdır [144]. Bu fərqlər dövlətlərin aqrar siyasətdə seçdiyi modelin daha liberal, daha dirijist və ya qarışıq xarakterli olmasının praktiki nəticəsi kimi meydana çıxır.

ABŞ təcrübəsi: ABŞ təcrübəsi aqrar sahəyə dövlət müdaxiləsinin iqtisadi şəraitdən asılı olaraq çevik şəkildə dəyişdirildiyini göstərir. Böhran mərhələlərində dövlət dəstəyinin rolu güclənmiş, iqtisadi sabitlik dövrlərində isə subsidiyaların və büdcə dəstəyinin həcmi nisbətən azalmışdır. Bu baxımdan ABŞ modeli tam imtina və ya daimi yüksək subsidiya modelindən daha çox, iqtisadi şəraitə uyğunlaşan, məqsədli müdaxilə formasını əks etdirir.

Bununla yanaşı ABŞ-da dövlət yardımının əsas hissəsinin iri və yüksək səmərəli fermer təsərrüfatlarına yönəldiyi görünür. Belə ki, ABŞ-da dövlət yardımının təxminən 70%-i iri fermer təsərrüfatlarına yönəlmiş, nəticədə fermer təsərrüfatlarının təxminən üçdə biri büdcə maliyyələşdirilməsi ilə əhatə olunmuşdur. Bu xüsusiyyət ABŞ modelində aqrar siyasətin yalnız sosial deyil, həm də məhsuldarlıq və rəqabətqabiliyyətlilik meyarları əsasında qurulduğunu göstərir [71].

ABŞ təcrübəsinin digər mühüm cəhəti innovasiya yönümlü dövlət dəstəyinin güclü olmasıdır. Kənd təsərrüfatı sahəsində yeniliklərə iqtisadi və siyasi dəstək qanunvericiliklə möhkəmləndirilmiş, innovasiyaların təşviqi Amerika Elm Fondu, Amerika Elm Şurası, Milli Standartlar Bürosu, Milli Sənaye Tədqiqatları Mərkəzi vasitəsilə həyata keçirilmişdir. Maliyyələşmə strukturunda özəl sektorun, federal hökumətin və elmi-təhsil müəssisələrinin birgə iştirakı ABŞ-da aqrar siyasətin təkcə subsidiya əsaslı deyil, həm də innovasiya və elmi-tədqiqat əsaslı model kimi formalaşdığını göstərir. Bu baxımdan ABŞ təcrübəsi bazar institutlarını saxlayan, lakin strateji istiqamətlərdə dövlətin fəal iştirakını təmin edən qarışıq model kimi qiymətləndirilə bilər.

Avropa İttifaqı təcrübəsi: Avropa İttifaqı ölkələrinin təcrübəsi aqrar sahənin dövlət tənzimlənməsi mexanizmlərinin ən sistemli və institusional baxımdan ən inkişaf etmiş modellərindən birini təmsil edir. İkinci Dünya Müharibəsindən sonra iqtisadi inteqrasiyanın dinc mühitin yaradılmasına və sabit inkişafın təmin olunmasına xidmət edəcəyi fikri əsasında formalaşan Avropa inteqrasiyası çərçivəsində Vahid Kənd Təsərrüfatı Siyasəti (CAP) üzv dövlətlər üçün ümumi qaydalar və mexanizmlər əsasında fəaliyyət göstərən ilk ortaq siyasətlərdən biri olmuşdur. Roma Müqaviləsinin 38-ci maddəsində *"kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının ticarəti ümumi bazarın əhatə dairəsinə daxildir. Həmçinin, kənd təsərrüfatı məhsullarının ümumi bazarda fəaliyyət göstərməsi və inkişafı üzv dövlətlər arasında ümumi kənd təsərrüfatı siyasətinin həyata keçirilməsi ilə təmin edilməlidir"* müddəası ilə bu siyasətin hüquqi əsası müəyyən edilmişdir [135.s.70].

Aİ təcrübəsi göstərir ki, aqrar siyasətin əsas meyli bazar dəstəyi tədbirlərindən daha çox fermer yönümlü gəlir dəstəyi, ekoloji dayanıqlıq, qida təhlükəsizliyi və kənd yerlərinin inkişafını birləşdirən kompleks yanaşmaya keçidlə xarakterizə olunur. Bu siyasət qida keyfiyyəti, nəzarət, ticarət, məhsulların təşviqi, kənd ərazilərinin sosial-iqtisadi inkişafı, ətraf mühitin mühafizəsi və fermer gəlirlərinin sabitləşdirilməsi kimi bir-biri ilə əlaqəli istiqamətləri əhatə edir. Bu baxımdan Aİ modeli təkcə istehsalın dəstəklənməsinə deyil, həm də kənd təsərrüfatının sosial və ekoloji funksiyalarının qorunmasına yönəlmiş çoxməqsədli siyasət modelidir [27].

Aİ-də aqrar və qida siyasətinin hazırlanması, icrası, monitorinqi və qiymətləndirilməsi çoxsəviyyəli institusional əməkdaşlıq əsasında həyata keçirilir [67]. Milli və regional hakimiyyət orqanları Aİ səviyyəsində qəbul olunmuş normativ-hüquqi aktların icrasını və maliyyə resurslarının idarə olunmasını təmin edir [68]. Aİ büdcəsi vasitəsilə ayrılan vəsaitlər Vahid Kənd Təsərrüfatı Siyasəti (CAP) çərçivəsində fondlar vasitəsilə üzv dövlətlərə ötürülür və onların istifadəsi müvafiq qaydalar əsasında həyata keçirilir. Bu xüsusiyyət Aİ modelini digər ölkələrin aqrar siyasətindən fərqləndirən mühüm cəhətdir və burada tənzimləmə yalnız milli deyil, supramilli institusional mexanizmlər əsasında qurulur.

Vahid aqrar siyasətin əsas məqsədlərini kənd təsərrüfatında əmək məhsuldarlığının artırılması, texnoloji tərəqqinin stimullaşdırılması, kənd əhalisinin gəlirlərinin və yaşayış səviyyəsinin qorunması, aqrar bazarın sabitliyinin təmin edilməsi, əhalinin ərzaq məhsulları ilə etibarlı şəkildə təmin olunması və istehlakçıların münasib qiymətlərlə məhsullara çıxış imkanlarının genişləndirilməsi kimi istiqamətlər əhatə edir. Eyni zamanda ayrılan vəsaitlərin əsas hissəsi əlverişsiz təbii-coğrafi şəraitə malik ərazilər üçün kompensasiya ödənişlərinə, aqrar investisiyalara, bazar strukturunun təkmilləşdirilməsinə, kənd təsərrüfatı və meşə təsərrüfatında ətraf mühitin mühafizəsinə, aqrar irsin qorunmasına və kənd ərazilərinin sosial-iqtisadi inkişafına yönəldilir [120].

Aİ daxilində CAP çərçivəsində tətbiq edilən dəstək mexanizmləri üç əsas istiqamətdə cəmlənir: gəlir dəstəyi, bazar tədbirləri və kənd yerlərinin inkişafı tədbirləri [67]. Gəlir dəstəyi birbaşa ödənişlər vasitəsilə fermer gəlirlərinin qorunmasına xidmət edir, bazar tədbirləri isə tələb və təklifdə yaranan kəskin dəyişikliklərdən doğan bazar risklərinin yumşaldılması üçün istifadə olunur, kənd yerlərinin inkişafı tədbirləri isə milli və regional proqramlar vasitəsilə yerli ehtiyaclara uyğunlaşdırılır [143]. Bunun nəticəsində CAP həm vahid siyasət, həm də çevik milli tətbiq mexanizmi kimi çıxış edir. 2023-cü il yanvarın 1-dən etibarən Avropa İttifaqında (Aİ) qüvvəyə minən və 2023–2027-ci illəri əhatə edən yeni Müştərək Aqrar Siyasət (CAP) strategiyası regional kənd icmalarında innovativ, ekoloji cəhətdən dayanıqlı və inklüziv inkişaf modelinin formalaşdırılmasını hədəfləyir. Ümumilikdə, Aİ təcrübəsi

göstərir ki, vahid aqrar siyasətin mövcudluğu ümumi bazarda qayda birliyinin qorunmasına, müdaxilənin koordinasiyalı şəkildə həyata keçirilməsinə, bazar dəyişkənliyinin azaldılmasına və aqrar sahənin rəqabət qabiliyyətinin artırılmasına xidmət edir [137].

Avstraliya, Yeni Zelandiya, Çili təcrübəsi: Aqrar sahədə dövlət müdaxiləsinin ən aşağı səviyyədə olduğu ölkələr sırasında Avstraliya, Yeni Zelandiya və Çili xüsusi diqqət çəkir. Bu ölkələrin təcrübəsi göstərir ki, dövlət dəstəyi minimum səviyyədə saxlanılsa belə, aqrar sahənin inkişafı daha çox bazar əsaslı, ixracyönümlü və rəqabət qabiliyyətinə söykənən mexanizmlər vasitəsilə təmin oluna bilər.

Avstraliya fermerləri dünyada ən az subsidiya alan fermerlər sırasındadır. İƏİT məlumatlarına əsasən, fermer gəlirlərində dövlət dəstəyinin payı çox aşağı olmuşdur. Təqdim olunan materiallarda vurğulanır ki, *"subsidiyaların aşağı səviyyədə saxlanılması həm Avstraliya istehsalçıları, həm də beynəlxalq bazarlar üçün strateji əhəmiyyət kəsb edir"* [59]. Avstraliya təcrübəsi göstərir ki, bazar mexanizmlərinə müdaxilə edən dəstək formalarının və tənzimləyici müdaxilələrin azaldılması kənd təsərrüfatı sektorunun ümumi artımını sürətləndirir, qlobal bazarlarda iştirak imkanlarını genişləndirir və aqrar sahənin milli iqtisadiyyata verdiyi töhfəni artırır [59]. Bu model aqrar siyasətdə daha liberal, bazara uyğunlaşan və ixracyönümlü yanaşmanın nümunəsi kimi qiymətləndirilə bilər.

Yeni Zelandiyada da aqrar sahə ixracyönümlü xarakter daşıyır və kənd təsərrüfatı məhsullarının qiymətləri dünya bazar qiymətləri ilə uyğunluq təşkil edir. Dövlət dəstəyi əsasən fövqəladə hallar, xəstəliklərin qarşısının alınması və ümumi xidmətlər, o cümlədən kənd təsərrüfatı tədqiqatları və biotəhlükəsizlik nəzarəti kimi sahələrə yönəldilir. Bu baxımdan Yeni Zelandiya modeli məhsula birbaşa subsidiyaların minimuma endirildiyi, lakin ümumi xidmətlər və risk idarəetməsi vasitəsilə sektora dolayı dəstəyin göstərildiyi modeldir.

Çilidə də aqrar siyasət bazar müdaxilələrindən daha çox dəstəkləyici investisiyalar üzərində qurulur. Burada daxili bazar qiymətləri beynəlxalq bazar qiymətlərinə yaxın saxlanılmış, proteksionist siyasətin rolu məhdud olmuş, əsas dəstək formaları isə kiçik fermerlərə yönəlmiş kredit subsidiyaları, infrastruktur və suvarma

layihələri olmuşdur. Çili təcrübəsi göstərir ki, bazar qiymət dəstəyi olmadan da aqrar sahəyə inkişafyönlü, selektiv və bazar mexanizmlərinə daha az müdaxilə edən dəstək göstərmək mümkündür [158]. Bu ölkələrin ümumi xüsusiyyəti dövlət müdaxiləsinin minimum səviyyədə saxlanılması və bununla yanaşı bazarın işləməsi üçün zəruri infrastruktur və institusional dəstəyin qorunmasıdır.

Vyetnam və Çin təcrübəsi: Vyetnam və Çin təcrübəsi aqrar sahənin dövlət tənzimlənməsində keçid iqtisadiyyatlarına xas, çevik və mərhələli transformasiya modelini əks etdirir. Bu ölkələrdə aqrar siyasət mərkəzləşdirilmiş idarəetmədən bazar elementlərinin gücləndirilməsinə, həmçinin dövlətin selektiv və strateji müdaxiləsini qoruyan yanaşmaya keçmişdir.

Vyetnamda aqrar islahatlar ümumi iqtisadi transformasiya proqramı çərçivəsində başlamış və kənd təsərrüfatında liberallaşma, investisiya və innovasiyaların təşviqi, kredit imkanlarının yaradılması, ticarət məhdudiyyətlərinin mərhələli yumşaldılması və qiymət sabitləşdirmə mexanizmlərinin tətbiqi ilə xarakterizə olunmuşdur [163]. Bu modeldə dövlət müdaxiləsi tamamilə aradan qaldırılmamış, əksinə, ixracın genişləndirilməsi, əsas ərzaq məhsullarının qiymətlərinin sabitləşdirilməsi, kənd təsərrüfatı müəssisələrinə vergi güzəştləri, torpaq və su səthlərinin icarə haqlarından azadolmalar və kommersiya kreditləri üzrə faiz subsidiyaları kimi alətlərlə yeni məzmun qazanmışdır [163; 162]. Pandemiya dövründə isə fiskal dəstək, vergi ödənişlərinin təxirə salınması və torpaq icarəsi haqlarına güzəştlər kimi tədbirlər bu siyasətin çevikliyini göstərmişdir [57; 162].

Çində kənd təsərrüfatı siyasəti müxtəlif mərhələlərdən keçərək formalaşmışdır. Əvvəlcə kənd təsərrüfatı sənayeləşmənin maliyyələşdirilməsi üçün daha çox vergi yükü daşıyan sahə olmuş, sonradan isə ailə və fərdi təsərrüfatlara əsaslanan modelə keçid və beynəlxalq ticarətin liberallaşdırılması ilə aqrar siyasət yeni məzmun qazanmışdır. Çin modelinin əsas cəhəti ondan ibarətdir ki, liberallaşma ilə yanaşı, qiymət dəstəyi, tarif kvotaları, gömrük rüsumları və minimum təminatlı qiymətlər kimi alətlər qorunmuş, xüsusilə bəzi strateji məhsullar üzrə daxili bazarın müdafiəsi davam etdirilmişdir [152]. Sonrakı mərhələdə subsidiyaların vahid gəlir dəstəyi sisteminə keçirilməsi, ət və ət məhsulları üzrə dəstəyin artırılması, biotəhlükəsizlik və

aqrobiznesin dəstəklənməsi ilə bağlı tədbirlər də Çin modelinin çox komponentli xarakterini gücləndirmişdir [102]. Beləliklə, həm Vyetnam, həm də Çin təcrübəsi göstərir ki, keçid iqtisadiyyatlarında aqrar sahənin tənzimlənməsi daha çox mərhələli liberallaşma ilə selektiv dövlət müdaxiləsinin uzlaşdırılması əsasında qurulur.

Norveç, İslandiya, İsveçrə, Yaponiya təcrübəsi: Norveç, İslandiya, İsveçrə və Yaponiya aqrar sahəyə yüksək səviyyədə dövlət subsidiyası ayıran ölkələr sırasındadır [74, s. 5]. Bu ölkələrin ortaq xüsusiyyəti ondan ibarətdir ki, kənd təsərrüfatı yalnız bazar meyarları ilə deyil, həm də ərzaq təhlükəsizliyi, yüksək özünütəminetmə, kənd ərazilərinin qorunması, əlverişsiz təbii-coğrafi şəraitin kompensasiya olunması və milli istehsalın müdafiəsi kimi məqsədlərlə dəstəklənir. Bundan əlavə, Norveç və İsveçrədə dövlət subsidiyalarının əsas hissəsi heyvandarlıq sektorunun dəstəklənməsinə yönəldilir [128].

Norveçdə kənd təsərrüfatı siyasəti yüksək istehsal xərclərinə baxmayaraq ərzaqla özünütəminatın qorunmasına yönəlmişdir. Subsidiyalar, yüksək tarif dərəcələri, kəmiyyət məhdudiyyətləri və texniki tənzimləmə tədbirləri Norveç modelinin əsas alətləri sırasındadır [151]. Bu siyasət xarici, xüsusilə daha rəqabətqabiliyyətli məhsulların daxili bazara girişini məhdudlaşdırır və yerli istehsalçının mövqeyini qoruyur. Norveç nümunəsi göstərir ki, yüksək dəstək səviyyəsi yalnız fermer gəlirlərinin qorunmasına deyil, həm də daxili bazarın aktiv müdafiəsinə xidmət edir.

İslandiyada da dövlət dəstəyinin əsas ağırlığı heyvandarlıq, xüsusilə süd və qoyun əti istehsalına yönəlmişdir. Burada bazar qiyməti dəstəyi və yüksək tariflər hesabına daxili bazar qiymətləri dünya qiymətlərindən yüksək saxlanılır. Pandemiya dövründə vergi endirimləri, vergi ödənişlərinin təxirə salınması və dövlət zəmanətli kreditlər kimi tədbirlər aqrar siyasətin fövqəladə şəraitə uyğunlaşma qabiliyyətini də göstərmişdir.

İsveçrədə aqrar siyasət uzun müddət yüksək ticarət maneələri və güclü daxili bazar tənzimlənməsi ilə xarakterizə olunsa da, sonradan birbaşa ödənişlər, çarpaz uyğunluq tələbləri və ekoloji tələblərə əsaslanan əlavə ödənişlər sistemi formalaşdırılmışdır [139; 151]. İsveçrə modeli xüsusilə maraqlıdır, çünki burada

birbaşa ödənişlər həm ərzaq təminatının, həm də kənd landşaftının və ətraf mühitin qorunmasının kompensasiyası kimi təqdim olunur.

Yaponiyada isə kənd təsərrüfatı üçün yararlı torpaq ehtiyatlarının məhdudluğu və ərzaq təhlükəsizliyi ilə bağlı həssaslıq dövlət dəstəyinin yüksək səviyyədə saxlanmasını şərtləndirmişdir. Bu ölkələrdə aqrar siyasət daha çox dirijist xarakter daşıyır və yüksək dövlət müdaxiləsi iqtisadi səmərəlilikdən əlavə sosial və strateji səbəblərlə əsaslandırılır.

İsrail, Türkiyə, Kanada təcrübəsi: İsrail, Türkiyə və Kanada təcrübəsi aqrar sahədə qarışıq müdaxilə modellərinin mövcudluğunu göstərir. Bu ölkələrdə bazar mexanizmləri ilə dövlət dəstəyi və ya seçici müdaxilə alətləri paralel fəaliyyət göstərir.

İsraildə kənd təsərrüfatına dövlət dəstəyi İƏİT ölkələrinin orta göstəricisindən aşağı olsa da, istehlak qiymətlərinə nəzarət, seçilmiş qida məhsulları üzrə proteksionist siyasət və bəzi mallar üzrə bazar mexanizmlərinə müdaxilə edən dəstək formaları qalmaqdadır. Süd, yumurta, çörək kimi əsas qida məhsullarında qiymət nəzarəti, həmçinin quşçuluq və süd istehsalına verilən dəstək bu modelin əsas xüsusiyyətlərindəndir. Bu baxımdan İsrail təcrübəsi bazar yönümlü islahatlar aparılsa belə, strateji məhsullar üzrə selektiv müdaxilənin davam etdiyini göstərir.

Türkiyədə kənd təsərrüfatı istehsalçılarına göstərilən dövlət dəstəyi İƏİT üzrə orta göstəricilərə yaxın olsa da, dəstəyin əhəmiyyətli hissəsi bazar qiymət dəstəyi, bonus ödənişləri və sahəvi subsidiyalar formasında təqdim olunur [99.s.130]. Türkiyə modelində əraziyə əsaslanan dəstəklər, heyvandarlığa ödənişlər, kənd təsərrüfatı sığortası, kompensasiya və kənd inkişafı tədbirləri paralel şəkildə tətbiq olunur [158]. Bu, həm bazar müdaxiləsinin, həm də sosial və struktur dəstəyin bir arada istifadə edildiyini göstərir.

Kanadada isə dövlət dəstəyi son dövrlərdə daha çox biznes risklərinin idarə olunmasına yönəlmişdir. Burada təsərrüfat yığımlarının subsidiyalaşdırılması, gəlir azalması zamanı dəstək, sığorta mexanizmləri və fövqəladə hallara yardım proqramları əsas rol oynayır. Süd, quşçuluq və yumurta sektorlarında uzunmüddətli təchizat-idarəetmə sistemləri bazar qiyməti dəstəyinin əsas mənbəyi kimi çıxış edir. Kanada modelində dövlət müdaxiləsi istehsalı birbaşa yönləndirməkdən daha çox

risklərin yumşaldılması və təsərrüfat gəlirlərinin sabitliyinin təmin olunmasına fokuslanır.

Bəzi ölkələrdə aqrar sektora münasibətdə həyata keçirilən iqtisadi siyasət nəticəsində dövlət dəstəyi müsbət deyil, mənfi xarakter daşıyır. Bu vəziyyət kənd təsərrüfatının iqtisadiyyatın digər sektorları ilə müqayisədə daha yüksək vergi yükünə məruz qalması, ixrac vergilərinin tətbiqi (Argentina nümunəsində olduğu kimi), həmçinin istehsalçıların beynəlxalq bazarlara çıxış imkanlarını məhdudlaşdıran inzibati və tənzimləyici maneələrin mövcudluğu (Hindistan və Vyetnam təcrübəsində olduğu kimi) ilə əlaqədardır. Belə iqtisadi mexanizmlər aqrar istehsalçıların gəlirlərinin azalmasına və sahənin dövlət tərəfindən dəstəklənən deyil, fiskal və tənzimləyici yük daşıyan sektor kimi formalaşmasına səbəb olur.

Bu siyasət alətləri, əsasən, daxili ərzaq təminatının qorunması, qiymətlərin tənzimlənməsi və dövlət gəlirlərinin artırılması məqsədləri ilə tətbiq edilir. Bununla belə, aqrar sektora mənfi dəstək təsirləri yalnız istehsalçıların iqtisadi maraqlarına deyil, həm də beynəlxalq kənd təsərrüfatı ticarətinin inkişafına mənfi təsir göstərə bilər. Xüsusilə, ixracın məhdudlaşdırılması beynəlxalq bazarlarda təklifin azalmasına, ticarət axınlarının pozulmasına və qiymət dəyişkənliyinin güclənməsinə şərait yaradır. Nəticədə, ayrı-ayrı ölkələrin daxili ərzaq təminatını qorumaq məqsədilə həyata keçirdiyi məhdudlaşdırıcı tədbirlər qlobal ərzaq bazarlarında qeyri-sabitliyi dərinləşdirə və beynəlxalq ərzaq təhlükəsizliyinə əlavə risklər yarada bilər. Bu qarşılıqlı təsirlər 2007–2008-ci illərdə dünya ərzaq bazarında müşahidə olunan qiymət böhranı dövründə xüsusilə nəzərə çarpmışdır [75].

Aparılmış təhlil göstərir ki, dünya ölkələrinin əksəriyyətində aqrar sahə müəyyən səviyyədə dövlət dəstəyindən faydalanır. Dövlətlərin bu sahəyə müdaxiləsi vergi və gömrük güzəştləri, qiymət dəstəyi, birbaşa maliyyə yardımı, gəlir dəstəyi, sığorta, kredit subsidiyaları, ekoloji təşviqlər və risklərin idarə edilməsi kimi müxtəlif alətlərlə həyata keçirilir. Bu dəstəyin əsas səbəbi kənd təsərrüfatının iqtisadi, sosial və siyasi baxımdan strateji əhəmiyyətə malik olmasıdır. Aqrar sahə ərzaq təhlükəsizliyinin təmin olunması, məşğulluğun qorunması, regional inkişafın dəstəklənməsi və kənd əhalisinin rifahının yaxşılaşdırılması baxımından mühüm rol oynayır.

Beləliklə, dünya təcrübəsi aqrar sahədə vahid modelin mövcud olmadığını, lakin ümumi tendensiyanın dövlətin bu sahədə müəyyən səviyyədə fəal iştirakını tələb etdiyini göstərir. Ölkələr üzrə aqrar siyasət və dövlət müdaxiləsinin xüsusiyyətlərinin təhlili göstərir ki, onların bir qismində daha liberal, bazar mexanizmlərinə əsaslanan və nisbətən aşağı səviyyəli subsidiyalaşdırma ilə xarakterizə olunan model üstünlük təşkil edir. Digər qrup ölkələrdə isə yüksək səviyyəli dövlət dəstəyi, subsidiyalaşdırma və daxili aqrar bazarın qorunmasına yönəlmiş müdafiə tədbirləri əsas xarakterik xüsusiyyət kimi çıxış edir. Bununla yanaşı, bir sıra ölkələrdə bazar mexanizmləri ilə dövlət müdaxiləsinin uzlaşdırıldığı, ayrı-ayrı sahə və məhsullar üzrə selektiv dəstək tədbirlərinin tətbiqinə əsaslanan qarışıq tənzimləmə modeli formalaşmışdır. Nəticə etibarilə, aqrar sahənin tənzimlənməsi hər bir ölkənin təbii-coğrafi şəraiti, iqtisadi inkişaf səviyyəsi, sosial prioritetləri və ərzaq təhlükəsizliyi ilə bağlı strateji maraqları əsasında formalaşır.

Nəticə

Ümumilikdə, aparılan nəzəri araşdırmalar göstərir ki, dövlətin iqtisadiyyata müdaxiləsinin səviyyəsi və formaları ilə bağlı liberal və dirijist yanaşmalar fərqli fikirlər irəli sürsələr də, hər iki yanaşmanın üstünlükləri və çatışmayan cəhətləri mövcuddur.Liberal yanaşma azad bazarı, rəqabəti və sahibkarlıq fəaliyyətinin vacibliyini, dirijist yanaşma isə dövlətin iqtisadi sabitliyin, sosial müdafiənin və strateji inkişaf prioritetlərinin təmin edilməsində fəal şəkildə iştirakını əsas götürür. İqtisadi inkişafın səmərəliliyi dövlət müdaxiləsinin miqyasından daha çox, onun keyfiyyətindən, məqsədyönlülüyündən və konkret sosial-iqtisadi şəraitə uyğunluğundan asılıdır. Bu prinsip aqrar sahənin tənzimlənməsində də xüsusi əhəmiyyət daşıyır və liberal bazar mexanizmləri ilə dövlətin dəstəkləyici və tənzimləyici funksiyalarının optimal uzlaşdırılmasını tələb edir.

Aqrar sahənin dövlət tənzimlənməsi onun iqtisadi, sosial və təbii-bioloji xüsusiyyətlərindən irəli gələn obyektiv zərurətdir. Kənd təsərrüfatının təbii-iqlim şəraitindən asılılığı, mövsümiliyi, yüksək riskləri və ərzaq təhlükəsizliyinin təmin olunmasında strateji rolu bu sahədə dövlət müdaxiləsini zəruri edir. Dövlət tənzimlənməsi subsidiyalar, güzəştli kreditlər, vergi güzəştləri, sığorta, bazar nəzarəti,

ekoloji standartlar və institusional mexanizmlər vasitəsilə həyata keçirilir. Bununla belə, aqrar siyasətin səmərəliliyi yalnız dövlət dəstəyinin həcmi ilə deyil, tətbiq olunan alətlərin məqsədyönlülüyü, ünvanlılığı və mövcud şəraitə uyğunluğu ilə müəyyən olunur. Dünya təcrübəsinin təhlili də göstərir ki, aqrar sahənin dövlət tənzimlənməsində vahid universal model mövcud deyil. ABŞ, Avstraliya və Yeni Zelandiya kimi ölkələrdə bazar mexanizmlərinə üstünlük verildiyi halda, Avropa İttifaqı, Norveç, İsveçrə və Yaponiya kimi ölkələrdə dövlət dəstəyi daha geniş və çoxşaxəli xarakter daşıyır. Çin və Vyetnam təcrübəsi isə liberallaşma ilə seçici dövlət müdaxiləsinin uzlaşdırılmasının əhəmiyyətini göstərir. Beləliklə, aqrar tənzimləmənin səmərəliliyi dövlət müdaxiləsinin miqyasından daha çox, onun məqsədyönlülüyündən, tətbiq olunan mexanizmlərin xüsusiyyətlərindən və ölkənin konkret iqtisadi, sosial və institusional şəraitinə uyğunluğundan asılıdır.

II FƏSİL. AZƏRBAYCANDA AQRAR SAHƏDƏ İSLAHATLAR: MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ VƏ DÖVLƏT MÜDAXİLƏSİ SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

2.1. Aqrar sahədə aparılan liberal yönümlü institusional transformasiya prosesinin qiymətləndirilməsi

Müstəqilliyin ilk illərindən etibarən Azərbaycanda aqrar sahədə genişmiqyaslı və sistemli islahatlar həyata keçirilmiş, bu prosesdə mülkiyyət münasibətlərində, təsərrüfatçılıq formalarında və dövlətin tənzimləyici funksiyalarında əsaslı transformasiya baş vermişdir. Aqrar sahənin tənzimlənməsi məqsədilə çoxsaylı qanunlar, fərmanlar, sərəncamlar və digər normativ-hüquqi aktlar qəbul olunmuş, beləliklə də bazar iqtisadiyyatına keçidin hüquqi-institusional bazası formalaşdırılmışdır. İslahatların mərkəzində isə torpaq münasibətlərinin yenidən qurulması, kolxoz-sovxoz sisteminin ləğvi, aqrar sahədə özəl mülkiyyətin genişləndirilməsi və yeni sahibkarlıq-fermer subyektlərinin formalaşdırılması dayanmışdır. Aqrar sahədə baş verən bu dəyişikliklər təkcə idarəetmə modelinin yenilənməsini deyil, eyni zamanda kənd təsərrüfatının istehsal, mülkiyyət və bazar münasibətlərinin struktur baxımından transformasiyasını təmin etmişdir [80].

Bildiyimiz kimi, XX əsrdə Azərbaycanda kənd təsərrüfatı sektoru dinamik inkişaf yolu keçmiş, xüsusilə sovet dövründə ölkə daha çox kənd təsərrüfatı yönümlü respublika kimi xarakterizə olunmuşdur. Sovetlər dövründə ümumi məhsul buraxılışında kənd təsərrüfatının payı digər sahələrlə müqayisədə daha yüksək olmuşdur. A.A.Rüstəmov və D.Q.Qasımov kənd təsərrüfatının iqtisadi sistemdəki aparıcı mövqeyinin əsaslarını araşdırmışlar. Onların fikrincə müasir dövrdə kənd təsərrüfatı sektoru ümumi məhsul buraxılışında, əhalinin ərzaq tələbatının ödənilməsində, aqrar sənayenin xammalla təmin olunmasında, məşğulluğun saxlanılması və ixrac potensialının genişləndirilməsində strateji əhəmiyyətini qorumaqdadır [50, s. 30–31].

Məlum olduğu kimi sovet dövründə Azərbaycan üzümçülük və pambıqçılıq kimi sahələrin inkişafı ilə fərqlənmiş və bu istiqamətlər üzrə ixtisaslaşmışdır. Lakin müstəqilliyin ilk illərində kollektiv təsərrüfat sisteminin süqutu, idarəetmə mexanizmlərinin dağılması və yeni təsərrüfat strukturunun hələ tam formalaşmaması aqrar sahədə ciddi böhran yaratmışdır. Bu səbəbdən islahatların ilkin nəticələri birmənalı olmamış, bir tərəfdən institusional baza formalaşmış, digər tərəfdən isə istehsalın bərpası üçün əlavə dəstək mexanizmlərinə ehtiyac yaranmışdır. Buna baxmayaraq, 1995-ci ildən sonra həyata keçirilmiş torpaq və əmlak islahatları nəticəsində kolxoz-sovxoz sisteminin yerində fərdi və özəl sahibkarlıq formalaşmış, kənd təsərrüfatı sektoru bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etməyə başlamışdır.

Müstəqilliyin ilk illərində ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi, aqrar bölmədə də dərin böhran, istehsalın azalması, idarəetmədə qeyri-müəyyənlik və təsərrüfat əlaqələrinin dağılması müşahidə olunurdu. Belə bir böhran vəziyyətində aqrar islahatlar yalnız iqtisadi səmərəliliyin bərpasına deyil, həm də kənd yerlərində sosial gərginliyin azaldılmasına, məşğulluğun qorunmasına və istehsalın davamlılığının təmin edilməsinə yönəldilmişdir. Məhz bu səbəbdən islahatların ilkin mərhələsi torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərinin formalaşdırılmasına, sonrakı mərhələləri isə bazar mühitinin inkişafına, dəstək mexanizmlərinin gücləndirilməsinə və aqrar istehsalın modernləşdirilməsinə xidmət etmişdir.

Aqrar sahədə liberal islahatların hüquqi əsasını formalaşdıran mühüm sənədlərdən biri 18 fevral 1995-ci il tarixdə qəbul edilmiş "*Aqrar islahatın əsasları haqqında*" Azərbaycan Respublikasının Qanunu olmuşdur. Bu Qanun aqrar sahəni mövcud böhran vəziyyətindən çıxarmaq, iqtisadiyyatı stabilləşdirmək, torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərini formalaşdırmaq və aqrar sektorda mövcud olan əvvəlki istehsal münasibətlərini bazar iqtisadiyyatının tələblərinə transformasiya etmək məqsədi daşıyırdı [8]. Eyni tarixdə qəbul olunmuş "*Sovxoz və kolxozların islahatı haqqında*" Qanun aqrar bölmədə bazar iqtisadiyyatına uyğun müxtəlif təsərrüfat formalarının yaradılmasını və sahibkarlığın inkişafını qarşıya məqsəd kimi

qoymuşdur [53]. Bu sənədlərlə aqrar islahatların ilkin hüquqi bazası formalaşdırılmış, torpaq və əmlak münasibətlərində dövlət tənzimlənməsinin institusional transformasiyasının sürətlənməsinə hüquqi zəmin yaradılmışdır. Aqrar islahatların hüquqi-institutsional bazasını tamamlayan əsas sənədlərdən biri də 16 iyul 1996-cı il tarixli "*Torpaq islahatı haqqında*" *Azərbaycan Respublikasının Qanunu* [54] olmuşdur. Bu qanun aqrar sahədə bazar iqtisadiyyatının formalaşması və inkişafı prosesində mühüm rol oynamış, eyni zamanda, sahənin struktur transformasiyasının həyata keçirilməsi üçün zəruri hüquqi və institusional əsaslar yaratmışdır. Qanunda "*islahatların əsas məqsədinin iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini formalaşdırmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüskarlığını inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyini, o cümlədən ərzaq təminatını möhkəmləndirmək və nəticə etibarilə əhalinin maddi rifahının yüksəldilməsinə şərait yaratmaqdan"* ibarət olduğu qeyd olunmuşdur [54]. Bu baxımdan, torpaq islahatı təkcə aqrar sahədə mülkiyyət münasibətlərinin transformasiyasına deyil, bütövlükdə aqrar sektorun fəaliyyətinin bazar iqtisadiyyatı prinsipləri əsasında yenidən qurulmasına xidmət edirdi.

Bəzi tədqiqatlarda aqrar sahədə aparılan islahatlar dörd mərhələyə (1994-1997, 1998-2002, 2003-2015, 2016-dan başlayaraq sonrakı dövr) bölünür [29]. 1992-ci ildə "Kəndli (fermer) təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunun [37] qəbul edilməsi aqrar sahədə islahatların əsasını qoymuşdur. 1992-1996-cı illərdə qəbul edilmiş bu və digər qanunların icrası ilə həyata keçirilmiş islahatlar kənd təsərrüfatında mülkiyyət münasibətlərini əsaslı şəkildə dəyişdirmiş, dövlət və kollektiv mülkiyyətdə olan kənd təsərrüfatı torpaqlarının bir hissəsi əvəzsiz olaraq vətəndaşların xüsusi mülkiyyətinə verilmişdir. Bununla da torpaq üzərində dövlətin inhisarı zəifləmiş, vətəndaşların torpağa sahiblik, istifadə və sərəncam hüquqları tanınmış, ailə-kəndli təsərrüfatlarının və digər özəl təsərrüfat subyektlərinin yaranması üçün hüquqi baza formalaşmışdır. Bu baxımdan, Azərbaycanda həyata keçirilən torpaq islahatları torpaq üzərində mülkiyyət münasibətlərinin liberallaşdırılmasının mühüm istiqamətlərindən biri kimi qiymətləndirilə bilər.

Aparılan islahatlar nəticəsində böhran vəziyyətində olan 1970 kolxoz və sovxoz ləğv edilmiş, onların 280,7 milyon manat məbləğində dövlət borcları silinmişdir. Eyni zamanda dövlət mülkiyyətində olan torpaq sahələrinin mühüm hissəsi xüsusi mülkiyyətə, bələdiyyə mülkiyyətinə və fərdi təsərrüfatlara verilmiş, kənd əhalisinin torpaq üzərində sahiblik, istifadə və sərəncam verməsi hüquqi cəhətdən təmin edilmişdir. 1995-1999-cu illərdə Azərbaycanda 689,4 mindən çox torpaq mülkiyyəti sənədi kəndlilərə verilmişdir. 1 yanvar 2002-ci il tarixinə qədər torpaq payı almış 869,8 min ailədən 838,2 mini mülkiyyət sənədlərini əldə etmişdir. Beləliklə özəlləşdirilməsi nəzərdə tutulan kənd təsərrüfatı torpaqlarının 97%-i (təqribən 1349,8 min hektarı) kəndlilərə paylanmışdı [168].

DSK-nın məlumatına əsasən 2024-cü ildə Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqların 41,21%-i dövlət mülkiyyətində, 23,81%-i bələdiyyə mülkiyyətində, 34,9%-i isə xüsusi mülkiyyətdə olmuşdur (Cədvəl 2.1.1).

Cədvəl 2.1.1.

Kənd təsərrüfatına yararlı torpaqların mülkiyyət üzrə bölgüsü

İl	Cəmi, min ha	Dövlət mülk., min ha	Payı, %	Bələdiyyə mülk., min ha	Payı, %	Xüsusi mülk., min ha	Payı, %
2020	4780,1	1971,5	41,24	1139,3	23,83	1669,3	34,92
2021	4780,6	1971,8	41,25	1139,4	23,83	1669,4	34,92
2022	4780,5	1971,8	41,25	1139,2	23,83	1669,5	34,92
2023	4779,6	1971,1	41,24	1138,8	23,83	1669,7	34,93
2024	4774,2	1968,0	41,22	1136,5	23,81	1669,7	34,97

Qeyd:Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Ümumən Azərbaycanda torpaq münasibətləri xüsusi mülkiyyətin mövcudluğu baxımından liberal, ümumi mülkiyyət strukturu baxımından isə dövlət və bələdiyyə iştirakının üstün olduğu qarışıq model kimi səciyyələndirilə bilər. Onu da qeyd edək ki, Azərbaycanda meşə fondu bütövlükdə dövlət mülkiyyətindədir. Özəl subyektlər meşə sahələrindən yalnız icarə və ya istifadə müqaviləsi əsasında yararlana bildiyindən bu sahədə münasibətlər əsasən dirijist xarakter daşıyır.

Balıqçılıqda isə dövlət, bələdiyyə və xüsusi mülkiyyət formaları mövcuddur. Təbii su hövzələrində balıq ovu dövlətin müəyyən etdiyi kvota, icazə və müqavilələr əsasında həyata keçirilir, akvakultura təsərrüfatlarında yetişdirilən məhsul isə sahibkarın xüsusi mülkiyyətində ola bilər. Buna görə balıqçılıq dövlət tənzimlənməsi

ilə özəl sahibkarlığın birləşdiyi qarışıq model kimi qiymətləndirilə bilər (Bax: Cədvəl 2.1.2.).

Cədvəl 2.1.2.

Azərbaycanda meşə təsərrüfatı və balıqçılıqda mülkiyyət münasibətləri

Sahə	Əsas resursun mülkiyyəti	Özəl sektorun rolu	Model
Meşə təsərrüfatı	Meşə fondu dövlət mülkiyyətindədir	İcarə və istifadə əsasında xidmət və təsərrüfat fəaliyyəti	Əsasən dirijist
Təbii balıqçılıq	Əsas su hövzələri və bioresurslar dövlətin nəzarətindədir	Kvota, bilet və müqavilə əsasında	Qarışıq, dövlətin üstün mövqeyi
Akvakultura	Yetişdirilən məhsul xüsusi mülkiyyətdə ola bilər	Özəl təsərrüfatların yaradılması və məhsul istehsalı mümkündür	Nisbətən liberal

Mənbə. Mövcud qanunvericiliyə əsaslanaraq müəllif tərəfindən tərtib edilmişdir. Lakin mülkiyyətin xüsusi çəkisi ilə bağlı göstərici tapılmamışdır.

Aparılan islahatlar nəticəsində aqrar sahədə, xüsusilə kənd təsərrüfatında qeyri-dövlət sektoru[1] formalaşmış və sahibkarlıq fəaliyyətinin inkişafı üçün geniş imkanlar yaranmışdır. Onu da qeyd edək ki, 1998-2025-ci illərdə Azərbaycanda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə ümumi məhsul buraxılışının 95-99%-i kənd təsərrüfatının, qalan 1-4%-i isə meşə təsərrüfatı və balıqçılıq sektorunun payına düşür.

1991-1993-cü illərdə Azərbaycan ərazisinin təxminən 20%-nin ermənilər tərəfindən işğal edilməsi səbəbindən bu ərazilərdə torpaq islahatlarının həyata keçirilməsi mümkün olmamış və onlar islahat prosesindən kənarda qalmışdır. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində işğal altında olan ərazilərin böyük hissəsi azad edilmiş, 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirlərindən sonra isə Azərbaycan həmin ərazilərdə dövlət suverenliyini və konstitusiya quruluşunu tam bərpa etmişdir [142]. Keçən müddət ərzində işğaldan azad edilmiş torpaqların iqtisadi dövriyyəyə qaytarılması, o cümlədən kənd təsərrüfatı məqsədləri üçün istifadəsi istiqamətində işlər aparılır. Hazırda bu torpaq sahələri dövlət nəzarəti altında mərhələli şəkildə aqrar istehsala cəlb olunur və ölkənin kənd təsərrüfatı potensialının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.


[1] *Qeyd: Azərbaycan Respublikasının rəsmi statistikasında ÜDM üzrə göstəricilər ayrıca kənd təsərrüfatı üzrə deyil, "kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq" bloku üzrə təqdim olunur. Meşə təsərrüfatı və balıqçılıq üzrə ayrıca ÜDM göstəricilərinin verilməməsi səbəbindən bu tədqiqatda aqrar sahənin ÜDM-də xüsusi çəkisi həmin inteqrə olunmuş göstərici əsasında qiymətləndirilmişdir.*

Aqrar sahənin dövlət tənzimlənməsi sistemi: Azərbaycanda aqrar sahənin dövlət tənzimlənməsi çoxsəviyyəli və funksional bölgüyə əsaslanan sistem kimi xarakterizə oluna bilər. Aqrar siyasətin yuxarı səviyyəsində Azərbaycan Respublikasının Prezidenti, Milli Məclis və Nazirlər Kabineti dayanır. Bu səviyyədə aqrar inkişafın əsas istiqamətləri müəyyən edilir, qanunvericilik bazası formalaşdırılır və dövlət siyasətinin icra mexanizmləri təsdiq olunur.

İcra səviyyəsində əsas əlaqələndirici qurum Kənd Təsərrüfatı Nazirliyidir (KTN). Azərbaycanda aqrar sahənin dövlət tənzimlənməsində KTN-lə yanaşı qida təhlükəsizliyi, suvarma və meliorasiya, torpaq və kadastr, vergi və investisiya siyasəti, büdcə maliyyələşməsi və ekoloji tənzimləmə üzrə digər dövlət qurumları da sistemin fəaliyyətinə daxil olurlar. Bu qurumlar arasında qarşılıqlı əlaqə aqrar siyasətin və aqrar sahəyə dövlət dəstəyinin kompleks həyata keçirilməsini təmin edir (Bax: Şəkil 2.1.1.).

Beləliklə, aqrar sahənin tənzimlənməsi müxtəlif dövlət institutları arasında səlahiyyət və funksiyaların bölüşdürüldüyü, KTN-nin isə əsas sektor koordinatoru rolunu oynadığı inteqrasiya olunmuş idarəetmə sistemidir.

KTN-nin fəaliyyət dairəsinə kənd təsərrüfatı və akvakultura məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, torpaq resurslarından səmərəli istifadənin təmin edilməsi, aqrar sahədə normativ-hüquqi və iqtisadi tənzimləmənin həyata keçirilməsi, habelə fitosanitar və baytarlıq xidmətlərinin təşkili daxildir. Nazirliyin institusional sisteminə ümumilikdə 11 təşkilati struktur daxildir. Bunların 7-si dövlət idarəetmə, xidmət, tədqiqat, elmi-innovasiya və ixtisaslaşmış fəaliyyətləri həyata keçirən qurum və mərkəzlərdən, 4-ü isə istehsal, emal, tədarük, təchizat və ticarət sahəsində fəaliyyət göstərən təsərrüfat cəmiyyətləri və şirkətlərdən ibarətdir [140].




Şəkil 2.1.1 Azərbaycanda aqrar siyasətin idarə olunması mexanizmi
Qeyd. Şəkil müəllif tərəfindən tərtib edilib.

Aqrar sahədə özəl sektorun inkişafı. Azərbaycanda aqrar sahədə aparılan islahatlar və bazar iqtisadiyyatı institutlarının formalaşması nəticəsində dövlətin birbaşa təsərrüfat subyekti kimi dominant rolu zəiflədilmiş, onun yerinə özəl sahibkarlığa, ailə-kəndli təsərrüfatlarına və fərdi iqtisadi təşəbbüsə əsaslanan yeni təsərrüfat modeli formalaşmışdır. Bu isə aqrar sahədə liberallaşma prosesinin həm hüquqi, həm də real təsərrüfat münasibətləri səviyyəsində baş verdiyini göstərir.

Aparılan liberal yönümlü islahatların nəticəsi olaraq hazırda aqrar sahədə istehsal olunan ÜDM-in 100%-ə yaxını qeyri-dövlət sektorunun payına düşür. DSK-nın məlumatına görə 2025-ci ildə aqrar sahədə istehsal olunan ÜDM-də qeyri-dövlət


sektorunun xüsusi çəkisi 99,8%-ə yüksəlmişdir, 1995-ci ildə isə bu 61,5% olmuşdur. Təhlil dövründə aqrar sahədə qeyri-dövlət bölməsinin xüsusi çəkisi 38,3 faiz bəndi artmışdır. Ümumilikdə 1995-2025-ci illərdə ölkə üzrə istehsal olunan ÜDM-də qeyri-dövlət bölməsinin xüsusi çəkisi 30,3%-dən 80,5%-ə, sənayedə 5,5%-dən 86%-ə, tikintidə 79%-dən 90,7%-ə, ticarət və xidmətlərdə 82,4%-dən 99,6%-ə, nəqliyyatda 4,6%-dən 82,7%-ə, rabitədə 10%-dən 88,2%-ə yüksəlmişdir (Bax: Qrafik 2.1.1). Bu dinamika aqrar sahədə liberal islahatların daha sürətli aparıldığını, yeni təsərrüfat formalarının və xüsusi sektorun digər sahələrlə müqayisədə daha sürətlə genişləndiyini və üstün mövqe tutduğunu göstərir.



Qrafik 2.1.1. Ölkə üzrə ÜDM-də və sahələr üzrə ÜDM-də qeyri-dövlət bölməsinin payı, müvafiq illərin cari qiymətləri əsasında, faizlə
Qeyd: *Qrafik DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilir.*
https://azstat.gov.az/statHtml/statHtml.do?orgId=994&tblId=DT_BA_310&conn_path=I3 [11]

Aqrar sahədə fəaliyyət göstərən müəssislələrin mülkiyyət növünə görə strukturunda da qeyri-dövlət sektorunun aydın üstünlüyü müşahidə olunur. DSK-nın məlumatlarına görə 1995-1999-cu illərdə aqrar sahədə islahatlar daha sürətli olmuşdur. Belə ki, 1993-cü ildə qeyri-dövlət sektorunda fəaliyyət göstərən müəssisələrin xüsusi çəkisi 5,3% olduğu halda, 1995-ci ildə bu 12,6%-ə, 1997-ci ildə 58,5%-ə, 1999-cu ildə isə 84,4%-ə, 2000-ci ildə isə 84,6%-ə yüksəlmişdir. 2000-2024-cü ilərdə qeyri-dövlət sektorunda fəaliyyət göstərən müəssisələrin xüsusi çəkisində artma tendensiyası davam etmişdir. Bu müddətdə qeyri- dövlət müəssisələrinin xüsusi çəkisi 6,3 faiz bəndi artaraq 90,9%-ə yüksəlmişdir.

Qrafik 2.1.2-dən göründüyü kimi 2000-2024-cü illərdə də kənd təsərrüfatında xüsusi mülkiyyətin xüsusi çəkisində yüksəlmə aşağı templə də olsa davam etmişdir. Lakin hər iki mülkiyyət növü üzrə müəssisələrin sayında azalma olmuşdur. Belə ki, 2000–2024-cü illərdə ümumi kənd təsərrüfatı müəssisələrinin sayı 55% azalaraq 2653-dən 1194-ə, dövlət mülkiyyətində olan kənd təsərrüfatı müəssisələrinin sayı 73,3% azalaraq 408-dən 109-a, qeyri-dövlət mülkiyyətli müəssisələrinin sayı isə 51,7% azalaraq 2245-dən 1085-ə düşmüşdür. Bu, ümumi müəssisə sayındakı azalmanın hər iki mülkiyyət formasını əhatə etdiyini, lakin azalmanın dövlət sektorunda daha intensiv getdiyini göstərir. Buna səbəb kimi kiçik və iqtisadi cəhətdən səmərəsiz müəssisələrin fəaliyyətinin dayandırılması, təsərrüfatların birləşməsi, kənd təsərrüfatı fəaliyyətinin fərdi və ailə təsərrüfatları formasında həyata keçirilməsi ilə əlaqələndirilə bilər (Qrafik 2.1.2.).




Qrafik 2.1.2. Kənd təsərrüfatı müəssisələrinin ümumi sayında dövlət və xüsusi mülkiyyətli müəssisələrin xüsusi çəkisi, %

Qeyd. Qrafik DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

Ümumilikdə 1995-2024-cü illərdə dövlət mülkiyyətində həm xüsusi çəkisinin, həm də sayının azalması aqrar sahədə aparılan liberallaşdırma siyasətinin və institusional transformasiyanın nəticəsi kimi qiymətləndirilə bilər. Bu dinamika aqrar sahədə özəl sektorun aparıcı rolunun güclənməsini və mülkiyyət münasibətlərinin bazar iqtisadiyyatı prinsipləri əsasında formalaşdığını göstərir. Lakin dövlət müəssisələrinin ümumi müəssisələrin sayında xüsusi çəkisinin azalması dövlətin aqrar sahəyə təsir imkanlarının zəifləməsi kimi qiymətləndirilməməlidir. Çünki dövlət

birbaşa mülkiyyətçi olmadığı halda da, müxtəlif fiskal və iqtisadi tənzimləyici alətlərlə sahələrin fəaliyyətinə müdaxilə edə bilir və edir. Yeni iqtisadi münasibətlər şəraitində dövlət birbaşa istehsaldan daha çox tənzimləmə, dəstək, subsidiyalaşdırma, infrastruktur təminatı və bazar institutlarının formalaşdırılması istiqamətinə üstünlük verir.

Aqrar sahədə struktur dəyişiklikləri yalnız özəlləşmə ilə yekunlaşmamış, təsərrüfat formalarının daxilində də yenidənqurma prosesi baş vermişdir. Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların sayında 2014-cü ildən etibarən kəskin şəkildə azalma baş vermişdir. 2.1.3 saylı qrakikdən göründüyü kimi 2013-cü illə müqayisədə 2014-cü ildə fərdi sahibkarların sayı 1,4 dəfə, 2016-cı illə müqayisədə 2017-ci ildə 1,5 dəfə azalmışdır. Ümumilikdə 2000–2024-cü illərdə kənd təsərrüfatı ilə məşğul olan fərdi sahibkar təsərrüfatlarının sayı 3248-dən 736-ya enmişdir, yəni 77,3% azalma müşahidə edilmişdir (Qrafik 2.1.3).



Qrafik. 2.1.3. Kənd təsərrüfatı sahəsində fərdi sahibkar təsərrüfatlarının sayı
Qeyd. Qrafik ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

Müşahidə olunan bu azalma aqrar sahənin ümumi miqyasının eyni həcmdə azalması kimi qiymətləndirilməməlidir. Qeyd edək ki, təsnifata görə fərdi sahibkar təsərrüfatları kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan və rəsmi sahibkarlıq qeydiyyatına malik fiziki şəxsləri əhatə edir. Buna görə göstəricinin dəyişməsinə fərdi sahibkarların fəaliyyətinin dayandırılması, əsas iqtisadi fəaliyyət növünün dəyişdirilməsi, fəaliyyətin ailə kəndli və ev təsərrüfatı formasında davam etdirilməsi, habelə statistik uçot bazasının yenilənməsi və qeyri-fəal sahibkarların uçotdan çıxarılması təsir göstərə bilər. Bundan əlavə qeyd olunan dinamika aqrar sahədə fəaliyyətin daha

çox hüquqi şəxs formasında təşkil olunmasına keçid, institusional tələblərin sərtləşməsi, bazar mühitində rəqabətin güclənməsi və kiçik təsərrüfat subyektlərinin iqtisadi dayanıqlılığının zəifləməsi ilə də əlaqələndirilə bilər. Eyni zamanda, iri fermer təsərrüfatlarının formalaşması və onların pay torpaqlarını alması, habelə bələdiyyə torpaqlarını istifadəyə cəlb etməsi də bu prosesə təsir göstərmişdir. Deməli, aqrar sahədə liberallaşma son nəticədə yalnız fərdi sahibkarların artımı ilə deyil, daha səmərəli və daha dayanıqlı hesab edilən təsərrüfat formalarının üstün mövqe qazanması ilə müşayiət olunmuşdur.

Dövlət dəstəyi. Aqrar sahədə liberallaşma tendensiyasını təsdiqləyən digər mühüm addım vergi güzəştləridir. Qeyd edək ki, 1992-1996-cı illərin vergi qanunvericiliyinin təhlili göstərir ki, həmin dövrdə kənd təsərrüfatı subyektləri vergilərdən tam azad edilməmiş, onlar üçün güzəştli vergitutma rejimi müəyyən olunmuşdur. Belə ki, kolxozlardan, sovxozlardan, kəndli (fermer) təsərrüfatlarından, kənd təsərrüfatı kooperativlərindən və digər aqrar müəssisələrdən əsasən torpaq vergisi və əlavə dəyər vergisi tutulmuş, digər vergilər tətbiq edilməmişdir. Yeni yaradılan kəndli (fermer) təsərrüfatları isə üç il müddətinə torpaq vergisindən azad olunmuşdur. Bununla yanaşı, sənaye üsulu ilə fəaliyyət göstərən quşçuluq və donuzçuluq kompleksləri, istixanalar və digər ixtisaslaşdırılmış müəssisələrə ümumi vergi öhdəlikləri şamil edilmişdir. 1995-1996-cı illərdə aparılan aqrar və torpaq islahatları nəticəsində xüsusi mülkiyyətə əsaslanan təsərrüfatların formalaşması vergi münasibətlərinin də tədricən bazar prinsiplərinə uyğunlaşdırılmasını zəruri etmişdir. Beləliklə, 1992-1996-cı illərdə aqrar sahədə vergilərdən tam azadetmə deyil, məqsədli və güzəştli vergitutma rejimi mövcud olmuş, 1999-cu ildən güzəştlər genişləndirilmiş, 2001-ci ildə isə torpaq vergisi istisna olmaqla digər əsas vergilərdən azadolma vahid hüquqi çərçivədə rəsmiləşdirilmişdir. Bu siyasət özəl təsərrüfatların inkişafını stimullaşdırdığına görə liberal xüsusiyyət daşımışdır.

Aqrar sahədə liberallaşma siyasəti ilə yanaşı dövlətin tənzimləyici və dəstəkləyici mövqeyə keçməsi bu sahənin spesifikliyi, istehsal risklərinin yüksəkliyi və ərzaq təhlükəsizliyinin strateji əhəmiyyəti ilə bağlıdır. Məhz bu səbəbdən vergi güzəştləri ilə yanaşı subsidiya, güzəştli kreditlər, texnika dəstəyi, gübrə və toxum subsidiyaları,

damazlıq heyvanlar üzrə ödənişlər və sığorta mexanizmləri kimi çoxsaylı təşviq alətləri tətbiq olunmuşdur. Bu xüsusiyyət Azərbaycanda aqrar sahənin mülkiyyət və qərarvermə nöqteyi-nəzərindən liberal, məzmun etibarilə isə seçici və dəstəkləyici müdaxilə elementlərini özündə birləşdirən qarışıq xarakter daşıdığını göstərir. Bu tədbirlər aqrar istehsalçıların bazarda rəqabət apara bilməsi, risklərin minimallaşdırılması, ərzaq təhlükəsizliyi və kənd yerlərində məşğulluğun qorunması məqsədini daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "*Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi*" bu baxımdan xüsusi əhəmiyyət daşıyır [14]. Sənəddə kənd təsərrüfatı sektorunun rəqabət qabiliyyətinin artırılması, istehsal vasitələrinə çıxışın asanlaşdırılması, aqrobiznes və emal sənayesinin inkişafı, fermer tərəfdaşlığının dəstəklənməsi, elm və təhsil infrastrukturunun gücləndirilməsi kimi prioritetlər müəyyən edilmişdir. Burada diqqətçəkən əsas məqam ondan ibarətdir ki, dövlət siyasəti yalnız subsidiya vermək deyil, həm də sahənin məhsuldarlıq, bazara çıxış, kooperasiya, emal və bilik təminatı baxımından struktur problemlərini həll etməyə yönəlmişdir. Deməli, bu mərhələdə aqrar siyasət daha çox nəticəyönümlü və rəqabət qabiliyyətini yüksəltməyə hesablanmış institusional çərçivə kimi çıxış edir.

Aqrar sahədə yüksək risklilik səviyyəsi nəzərə alınaraq 19 avqust 2019-cu ildə *"Aqrar sığorta haqqında"* Azərbaycan Respublikasının Qanunu [10] qəbul edilmişdir. Həmin qanun aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Bu sənəd dövlətin aqrar siyasətdə yalnız liberallaşma ilə kifayətlənmədiyini, eyni zamanda risklərin idarə olunması sahəsində institusional mexanizmlər formalaşdırdığını göstərir. Aqrar sığorta mexanizminin yaradılması fermerlərin gəlirlərinin qorunması, təbii fəlakət və bazar risklərinin kompensasiyası, həmçinin istehsalın davamlılığının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, aqrar sahədə dövlət müdaxiləsinin bazar mexanizmlərini məhdudlaşdırmadan bazarın dayanıqlı fəaliyyətini dəstəkləyən tamamlayıcı funksiya rolunu oynayır.

Subsidiyalaşdırma siyasəti çərçivəsində kənd təsərrüfatı istehsalçılarına əkin sahələrinə görə verilən əkin subsidiyaları, kənd təsərrüfatı texnikasının əldə olunmasını və istifadəsini stimullaşdırmaq məqsədilə təqdim edilən lizinq mexanizmi, istehsal xərclərinin azaldılmasına yönəlmiş mineral gübrə subsidiyaları, yüksək məhsuldarlığa malik toxumların istifadəsini təşviq edən toxum subsidiyaları, habelə heyvandarlığın inkişafını dəstəkləməyə yönəlmiş damazlıq heyvan subsidiyaları tətbiq edilmişdir. Bu alətlərin hər biri aqrar sahədə istehsal xərclərinin azaldılması, məhsuldarlığın yüksəldilməsi və fermerlərin risklərinin yumşaldılması məqsədi daşıyır. Lakin bu dəstək mexanizmlərinin genişliyi onların səmərəliliyinin də yüksəltməsini birmənalı şəkildə ifadə etmir. Əksinə, belə bir nəticəyə gəlmək olar ki, dövlət dəstəyinin həcmindən daha çox, onun məqsədyönlülüyü, ünvanlılığı və nəticələrinin ölçülməsi xüsusi əhəmiyyət kəsb edir.

Sonrakı strateji sənədlərdə də aqrar sahə dövlətin prioritet istiqamətlərindən biri kimi saxlanılmışdır. *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"* [13] *və "Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"* [20] sənədlərində kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, məhsuldarlığın artırılması, rəqabətqabiliyyətli aqrobiznes mühitinin formalaşdırılması və kənd ərazilərinin inkişafı ilə bağlı konkret hədəf və çağırışlar yer almışdır. Bu sənədlər göstərir ki, aqrar sahə üzrə dövlət siyasəti artıq yalnız postislahat keçid dövrünün problemlərini həll etməyə deyil, həm də uzunmüddətli dayanıqlı inkişaf modelinin formalaşdırılmasına yönəlmişdir.

25 may 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən "*Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı*" [15] təsdiq edilmişdir. Dövlət Proqramının əsas məqsədi aqrar sahənin dayanıqlı və rəqabətqabiliyyətli inkişafını təmin etmək, ərzaq təhlükəsizliyini gücləndirmək və daxili istehsal potensialını artırmaq, məhsuldarlığı, yaradılan əlavə dəyəri və ixracyönümlülüyü yüksəltmək, innovasiya və rəqəmsallaşmanı genişləndirmək, insan kapitalının inkişafını dəstəkləmək, habelə balıqçılıq və

akvakultura sahələrinin davamlı inkişafına şərait yaratmaqdan ibarətdir [15]. Dövlət Proqramında müəyyən edilmiş əsas hədəf göstəriciləri kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılan ümumi daxili məhsulun, eləcə də kənd təsərrüfatı, balıqçılıq və emal məhsullarının ixracının həcminin artırılmasını nəzərdə tutur.

2026-2030-cu illər üçün Dövlət Proqramının məzmununun təhlili göstərir ki, proqram aqrar sahənin tənzimlənməsində qarışıq modelə əsaslanır. Bununla belə, ərzaq təhlükəsizliyi, daxili istehsal potensialının artırılması, dövlət tərəfindən prioritetlərin müəyyənləşdirilməsi və maliyyə-investisiya imkanlarının genişləndirilməsi kimi istiqamətlər proqramda dövlət müdaxiləsinin, yəni dirijist elementlərin nisbətən üstün mövqedə olduğunu göstərir. Eyni zamanda, özəl investisiyaların təşviqi, aqrobiznesin inkişafı, rəqabətqabiliyyətliliyin və ixracyönümlülüyün artırılması bazar mexanizmlərinin də mühüm rol oynadığını göstərir.

Hazırda bu sahədə aparılan islahatlara və tətbiq olunan dəstək mexanizmlərinə baxmayaraq, aqrar sahədə bir sıra problemlər qalmaqdadır. Buraya tətbiq olunan tənzimləyici alətlərin səmərəliliyinin həmişə yüksək olmaması, əmək məhsuldarlığının və adambaşına məhsul istehsalının zəifliyi, texniki və texnoloji təminatın yetərli səviyyədə olmaması, su təminatı, yol şəbəkəsi və maddi-texniki infrastruktur kimi problemlər daxildir. Bu isə onu göstərir ki, Azərbaycanda aqrar sahədə aparılan liberallaşdırma və özəlləşdirmə islahatları mühüm struktur dəyişikliyi yaratsa da, onların yekun effektivliyi yalnız mülkiyyət transformasiyası ilə deyil, həm də məhsuldarlıq, rəqabət qabiliyyəti və sosial nəticələr baxımından qiymətləndirilməlidir. Başqa sözlə, liberallaşmanın və ya dirijistləşmənin dərinliyi ilə tənzimləmənin səmərəliliyini qiymətləndirmək olmur. Aqrar sahədə uğurlu nəticə əldə etmək üçün bazar institutları ilə nəticəyönümlü dövlət dəstəyi mexanizmlərinin uyğunlaşdırılması zəruridir və nəticələrin monitorinqinin aparılması zəruridir.

2.2. Aqrar sahədə dövlət müdaxiləsinin ölçülməsi: metodologiya, ölkələrarası müqayisəli təhlil və qiymətləndirmə

Dünya ölkələrində aqrar sahədə inkişafın tənzimlənməsi məqsədilə davamlı olaraq liberal və ya dirijist yöndə islahatlar aparılır. Bu islahatlar əlbəttə ki həmişə gözlənilən nəticəni vermir. Azərbaycanda da son 30 ildə aqrar sahənin inkişafının tənzimlənməsi ilə bağlı davamlı islahatlar aparılmışdır. Belə ki, ölkəmizdə aqrar sahədə inkişafın stimullaşdırılması məqsədilə vergi güzəştləri tətbiq edilmiş, subsidiyalar ayrılmış, digər dəstək alətlərindən istifadə edilmişdir və bu gün də islahatlar davam etdirilir. Çünki aqrar sahədə tətbiq edilən dövlət dəstəyi və tənzimləmə alətləri yalnız istehsalın stimullaşdırılmasına deyil, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd yerlərində gəlirlərin qorunmasına, məşğulluğun təmin olunmasına, istehsalçıların bazar və təbiət risklərinin azaldılmasına, kənd yerlərinin sosial sabitliyinin saxlanılmasına və dayanıqlı inkişafın dəstəklənməsinə xidmət edir. Bu islahatların təsirinin qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün ilk növbədə dövlətin müdaxilə dərəcəsinin kəmiyyətcə ölçülməsi lazım gəlir. Aqrar sahəyə dövlət müdaxiləsinin ölçülməsi yalnız miqyasını müəyyən etmək deyil, həm də onun liberallıq və dirijistlik müstəvisində xarakterini dəyərləndirmək mühüm əhəmiyyət kəsb edir.

Aqrar sahəyə dövlət müdaxiləsinin səviyyəsinin ölçülməsi üçün prof. N.Müzəffərlinin "İqtisadiyyatın solluğu (sağlığı) indeksi" yanaşmasından istifadə edilmişdir. Bu yanaşmaya əsaslanaraq fərqli metodologiya ilə iki indeks: 1) Kənd təsərrüfatına dövlət dəstəyinin liberallıq-dirijistlik indeksi (KTDDLDİ) və 2) Aqrar sahənin liberallıq-dirijistlik indeksi (ASLDİ) hesablanmışdır.

İndekslərin hesablanmasında istifadə olunan göstəricilər: KTDDLD İndeksinin hesablanmasında İƏİT-in Kənd təsərrüfatı siyasətinin monitorinqi və qiymətləndirilməsi (*Agricultural Policy Monitoring and Evaluation*) məlumat bazasının göstəricilərindən istifadə edilmişdir [100]. Qiymətləndirmə Kənd təsərrüfatına ümumi dəstəyin (KTÜD) (Total Support Estimate -TSE) kəmiyyət göstəricisinin ÜDM-də payı əsasında aparılmışdır. Bu kompozit göstəricidir və bu

göstərici dövlətin kənd təsərrüfatına müdaxiləsinin həm ümumi səviyyəsini, həm də onun istehsalçı yönümlü və dolayı komponentlərini qiymətləndirməyə imkan verir.

Dövlətin müdaxilə səviyyəsinin ölçülməsi üçün KTÜD-ün ÜDM-də xüsusi çəkisinin yüksək olması dövlətin aqrar sahəyə müdaxiləsinin dirijist, aşağı olması isə liberal xüsusiyyətlərin nisbətən güclü olduğunu ifadə edir.

KTÜD (TSE) kənd təsərrüfatını dəstəkləyən siyasətlər nəticəsində istehlakçılardan və vergi ödəyicilərindən aqrar sektora yönələn bütün ümumi transferlərin illik pul dəyərini ifadə edir.

$$TSE = PSE + GSSE + TCT \quad (1)$$

Burada: PSE- istehsalçı dəstəyi kompozit göstəricisi; CSE -istehlakçı dəstəyi kompozit göstəricisi; GSSE - ümumi xidmətlərə dəstək üztə kompozit göstəricisidir. KTDDLDİ-nin hesablanmasında istifadə olunan baza göstəricilər və onların iqtisadi məzmunu cədvəl əlavə1-də göstərilmişdir. Buarada istehsalçı dəstəyinə - 21, istehlakçı dəstəyinə -3 ümumi xidmətlərə dəstəyə isə 7 göstərici daxildir [101;159; 160]. (*Bax Əlavə 2.1*)

KTÜD kənd təsərrüfatına dövlət müdaxiləsinin ümumi miqyasını qiymətləndirməyə imkan verir və dövlətin bu sahədə nə dərəcədə fəal rol oynadığını göstərir. KTÜD-in ÜDM-də payı dövlətin aqrar sahəyə yönəltdiyi ümumi müdaxilə və dəstəyin miqyasını, xüsusilə də dolayı, sistem və institut yönümlü müdaxilə səviyyəsini qiymətləndirməyə imkan verir [97].

ASLDİ iki sub-indeks əsasında hesablanmışdır. Birinci sub-indeks aqrar sahəyə birbaşa dövlət xərclərinin büdcə xərclərində xüsusi çəkisi, ikinci sub-indeks isə aqrar istehsalçılara tətbiq edilən vergi və gömrük-rüsumu güzəştlərinin bal sistemli qiymətləndirmənin nəticələri əsasında hesablanmışdır.

Birinci sub-indekslə bağlı statistik məlumatlar FAOSTAT-ın bazasından götürülmüşdür. İkinci sub-indeksi hesablamaq üçün vahid beynəlxalq statistik göstərici olmadığından milli qanunvericilik, FAOLEX, EY.COM vergi bələdçiləri, WTO-nun Ticarət Siyasətinə Baxışları, BVF-in hesabatları və Avropa Komissiyasının vergi məlumat bazalarından istifadə olunmuşdur. Qiymətləndirmə bal sistemi ilə aparılmış hüquqi məlumatlar vahid meyarlarla kəmiyyət ölçüsünə gətirilmişdir.

İndekslərin hesablanması və normallaşdırılması: KTDDLD İndeksinin və ASLD İndeksinin normallaşdırılması aşağıdakı düsturu əsasında aparılmışdır:

$$I_n = (V_i - V_{min}) / (V_{max} - V_{min}) \quad (2)$$

KTDDLDİ-nin hesablanmasında simmetrik genişləndirmə, ASLDİ-nin hesablanmasında isə asimmetrik genişləndirmə metodundan istifadə edilmişdir. Bunun üçün seçilmiş illər üzrə faktiki maksimumdan seçilmiş illər üzrə faktiki minimum çıxılmış və R tapılmışdır və bundan sonra tapılmış fərq əsasında simmetrik metodda hər iki tərəfə 0,1 əmsalı, asimmetrik metodda isə minimuma 0, maksimuma 0,1 əmsalı ilə genişləndirilmə aparılmışdır.

$$R = X_{max} - X_{min} \quad (3)$$

$$L = X_{min} - \alpha R \quad (4)$$

$$U = X_{max} + \beta R \quad (5)$$

Burada R faktiki maksimal və minimal göstəricilər arasındakı fərq, L genişləndirilmiş aşağı sərhəd, U genişləndirilmiş yuxarı sərhəd, α və β isə genişləndirmə əmsallarıdır.

$$I_n = (V_i - L) / (U - L) \quad (6)$$

Burada I_n normallaşdırılmış göstərici, V_i isə i-ci ölkə üzrə faktiki qiymətdir. Normallaşdırma əsasında göstəricilər 0-1 intervalına gətirilmiş, 0 liberal, 1 isə dirijist nəzəri qütb, 0.5 isə nəzəri orta kimi qəbul edilmişdir.

Yuxarıda qeyd edilən düstur əsasında İƏİT ölkələrində kənd təsərrüfatının və aqrar sahənin liberallıq-dirijistlik səviyyəsi hesablanır. Hesablama zamanı dinamika üzrə ən maksimum və ən minimum göstərici götürülmüş və genişləndirmə əmsalı bu maksimum və minimumlara tətbiq edilmişdir. Burada məqsəd uzun müddətli dövrdə dövlət müdaxiləsi səviyyəsinin hansı yöndə dəyişdiyini müəyyən etməkdir. Yəni eyni maksimum və minimum əsasında hesablama ölkələrin təhlil dövrü ərzində hansı istiqamətdə dəyişdiyini izləməyə imkan verir.

KTDDLDİ-nin normallaşdırılması: KTDDLD İndeksinin hesablanarkən TSE-nin ÜDM-ə nisbətində mənfi göstəricinin də olduğunu nəzərə alaraq simmetrik genişləndirmə aparılmışdır. Simmetrik normallaşdırmada 0.1 əmsallı genişləndirmə ilə maksimum U=8.2; minimum isə L=-.8,2 müəyyən edilmişdir.

ASLDİ-nin normallaşdırılması və çəkiləndirilməsi: ASLDİ Birbaşa dövlət dəstəyi sub-indeksi (BDDSİ) və Dolayı dövlət dəstəyi sub-indekslərinin (DDDSİ) çəkili ortası əsasında hesablanmışdır. Çəkilər müdaxilənin sosial-iqtisadi təsirini və müdaxilə dərəcəsini nəzərə alaraq müəyyən edilmişdir. DBBSİ üçün asimmetrik genişləndirilmiş normallaşdırma tətbiq olunmuşdur. Bütün illər üçün yuxarı sərhəddə 0.1 əmsallı genişləndirmə aparılmış və maksimum göstərici 12,3% müəyyən edilmişdir. Aşağı sərhəd isə 0 götürülmüşdür və 6-cı düsturla normallaşdırılmışdır.

Dolayı dövlət dəstəyi sub-indeksi (DDDSİ) bal şkalası əsasında hesablanmışdır. Bu məqsədlə 148 ölkədə aqrar sahəyə tətbiq edilən vergi və gömrük-rüsumu güzəştlərinin əhatə səviyyəsinə görə 5 ballıq şkala üzrə qiymətləndirilmişdir. Bu hesablamada süni intellektin imkanlarından istifadə edilmişdir. Şkalada 1 bal heç bir güzəştin tətbiq olunmadığı daha dirijist vəziyyəti, 5 bal isə daxili vergilər və gömrük rüsumları üzrə birlikdə geniş güzəşt və azadolmalar tətbiq edildiyi daha liberal vəziyyəti ifadə edir.

Cədvəl 2.2.1.

Vergi və gömrük-rüsumu güzəştlərinin 5 ballıq şkala əsasında ölçülməsi

Bal	Qiymətləndirmənin məzmunu
1	Aqrar sahə üçün xüsusi vergi və gömrük-rüsumu güzəşti tətbiq edilmir.
2	Ayrı-ayrı vergilər, məhsullar və ya təsərrüfat qrupları üzrə məhdud güzəştlər vardır.
3	Bir və ya bir neçə konkret vergidən azadolma tətbiq edilir.
4	Bütün və ya praktiki olaraq bütün daxili vergilər üzrə geniş güzəşt və azadolmalar tətbiq edilir.
5	Daxili vergilər və gömrük rüsumları üzrə birlikdə geniş güzəşt və azadolmalar tətbiq edilir.

ASLDİ-də 0 liberal, 1 isə dirijist qütb kimi qəbul edildiyindən bal göstəricisi indeks qiymətinə tərs normallaşdırma yolu ilə aşağıdakı düsturla çevrilmişdir. Faktiki 1–5 ballıq şkalanın hər iki tərəfində nəzəri ehtiyat saxlanılaraq normallaşdırmanın aşağı sərhədi "0", yuxarı sərhədi isə "6" müəyyən edilmişdir:

$$I_n = (V_{max} - V_{fak}) / (V_{max} - V_{min}) \quad (7)$$

Beləliklə, 1 bal 0,8333, 2 bal 0,6667, 3 bal 0,5000, 4 bal 0,3333, 5 bal isə 0,1667 indeks qiyməti alır. Başqa sözlə, aqrar sahəyə tətbiq edilən vergi və gömrük-rüsumu güzəştlərinin əhatə dairəsi genişləndikcə normallaşdırılmış DDDSİ qiyməti azalaraq liberal qütbə yaxınlaşır. Əksinə, güzəştlərin məhdudlaşması və ya ümumiyyətlə tətbiq edilməməsi DDDSİ-nin qiymətinin yüksələrək dirijist qütbə yaxınlaşmasına səbəb olur. Normallaşdırmada nəzəri 0 və 6 sərhədlərinin qəbul edilməsi faktiki 1 və 5 balların müvafiq olaraq mütləq 1 və 0 qiymətlərini almasının qarşısını alır.

Vergi və rüsum güzəştləri üzrə əsas qiymətləndirmələr 2001-2024-cü illəri əhatə edir. Bəzi illərin göstəriciləri tapılmadığından həmin illər iki qonşu istinad ili arasında xətti interpolasiya üsulu ilə doldurulmuşdur:

$$B_{it} = B_{i,t_0} + [(B_{i,t_1} - B_{i,t_0}) / (t_1 - t_0)] \times (t - t_0) \quad (8)$$

Bu üsul onunla əsaslandırılır ki, vergi və gömrük-rüsumu güzəştləri çevik və qısamüddətli dəyişənlər deyil. Onlar vergi məcəlləsi, gömrük tarifi, qanun və uzunmüddətli proqramlarla müəyyən olunur və adətən bir neçə il qüvvədə qalır. Dəqiq hüquqi dəyişiklik ili məlum olduqda faktiki məlumat interpolasiya nəticəsinə üstün tutulur.

BDD Sub-indeksinə 0,40, DDD (vergi və gömrük-rüsumu güzəştləri) sub-indeksinə isə 0,60 çəki verilir:

$$ASLDİ_{it} = 0{,}40 \times BDD_{it} + 0{,}60 \times DDD_{it}$$

Vergi-rüsum güzəştlərinə daha yüksək çəki onların istehsalçıların cari xərclərinə, mənfəətinə, texnika və digər istehsal vasitələrinin idxal dəyərinə davamlı təsiri ilə bağlıdır.

Metodologiyaların məhdudiyyətləri: KTDDLD indeksinin əsas məhdudiyyəti İƏİT məlumatlarının ölkələr üzrə əhatə dairəsinin məhdud olması və göstəricilərin aqrar sahəni bütövlükdə deyil, əsasən kənd təsərrüfatını əhatə etməsidir. ASLDİ metodologiyasının məhdudiyyəti isə istifadə olunan FAO göstəricilərinin daha ümumiləşdirilmiş xarakter daşıması və dövlət müdaxiləsinin bütün formalarını tam əhatə etməməsi ilə bağlıdır. Bundan əlavə, ölkələr üzrə aqrar sahəyə tətbiq edilən vergi və gömrük-rüsumu güzəştlərini sistemli və müqayisəli şəkildə əhatə edən etibarlı vahid

statistik məlumat bazasının mövcud olmaması dolayı dövlət dəstəyinin qiymətləndirilməsində müəyyən şərtilik yaradır.

İndekslərin vahid qruplaşdırma intervalları: Alınan nəticələr 0–1 intervalında dəyişir, göstəricinin 0-a yaxınlaşması aqrar sahədə dövlət müdaxiləsinin nisbətən zəiflədiyini, yəni liberallaşma meylinin gücləndiyini, 1-ə yaxınlaşması isə dövlət müdaxiləsinin və dirijist xarakterli tənzimləmənin nisbətən artdığını göstərir. Hər iki indeksdə 0 liberal, 1 dirijist nəzəri qütb, 0,500 isə nəzəri orta qəbul edilir. Qruplar faktiki minimum və maksimumdan deyil, dəyişməyən 0–1 nəzəri şkalasından formalaşdırılır.

Hər iki indeks üçün əsas linqvistik təsnifat 0–1 nəzəri diapazonunun beş bərabər hissəyə bölünməsi ilə aparılır. İnterval addımı 0,20-dir:

$$h = (1 - 0) / 5 = 0{,}20$$

Cədvəl 2.2.2.

KTDDLDİ və ASLDİ üçün vahid nəzəri linqvistik intervallar

İnterval	Qrup	İqtisadi məzmun
$0{,}000 \leq I < 0{,}200$	Liberal	Dövlət müdaxiləsi çox aşağıdır.
$0{,}201 \leq I < 0{,}400$	Qismən liberal	Bazar mexanizmləri üstünlük təşkil edir, dövlət müdaxiləsi aşağıdır.
$0{,}401 \leq I < 0{,}600$	Qarışıq orta	Bazar və dövlət mexanizmləri paralel fəaliyyət göstərir.
$0{,}601 \leq I < 0{,}800$	Qismən dirijist	Dövlət müdaxiləsi və dəstəyi yüksəkdir.
$0{,}801 \leq I \leq 1{,}000$	Dirijist	Dövlət müdaxiləsi və dəstəyi çox yüksəkdir.

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Bu yanaşma müxtəlif ölkələr üzrə fərqli ölçü vahidlərində təqdim olunan göstəriciləri vahid müqayisə müstəvisinə gətirməyə və aqrar siyasətin xarakterini reytinq formasında qiymətləndirməyə imkan verir.

KTDDLDİ üzrə nəticələrin təhlili: KTDDLDİ 2000, 2005, 2010, 2015, 2020 və 2024-cü illər üzrə statistik məlumatları əlçatan olan 27 ölkə və Avropa Birliyi əsasında hesablanmışdır. Ölkələrin sıralanması liberallıqdan dirijistliyə doğru aparılmış, nəticələr aşağıdakı cədvəldə təqdim olunmuşdur (2.2.3).

Qeyd edilən cədvəldə kənd təsərrüfatında liberallıq–dirijistlik indeksinin 2000, 2005, 2010, 2015, 2020 və 2024-cü illərdə dinamikası öz əksini tapmışdır. İndeks

qiymətinin mərkəz göstəricisindən (0,500) yuxarı olması dirijist yanaşmanın, aşağı olması isə liberal yanaşmanın üstün olduğunu göstərir.

Cədvəl 2.2.3.


Kənd təsərrüfatına dövlət dəstəyinin liberallıq-dirijistlik indeksi göstəriciləri

Ölkələr	reytinq sırası	2024	reytinq sırası	2000	reytinq sırası	2005	reytinq sırası	2010	reytinq sırası	2015	reytinq sırası	2020
Cənubi Afrika	1	0.722	3	0.803	5	0.721	3	0.788	2	0.805	1	0.751
İndoneziya	2	0.69	9	0.698	6	0.72	4	0.726	3	0.743	3	0.71
Rusiya	3	0.683	6	0.713	7	0.692	10	0.646	7	0.665	11	0.636
Kolumbiya	4	0.678	4	0.741	4	0.735	6	0.696	5	0.691	7	0.651
Koreya	5	0.663	2	0.813	3	0.747	5	0.704	6	0.683	6	0.676
Filippin	6	0.651	19	0.63	20	0.617	2	0.809	1	0.85	5	0.704
Avropa Birliyi	7	0.65	17	0.635	2	0.749	7	0.696	11	0.639	16	0.616
Türkiyə	8	0.649	1	0.917	1	0.755	1	0.888	4	0.724	2	0.721
Meksika	9	0.639	12	0.665	18	0.629	16	0.625	19	0.618	13	0.622
İsveçrə	10	0.638	5	0.715	9	0.687	9	0.651	10	0.651	8	0.65
Hindistan	11	0.635	20	0.627	14	0.638	17	0.625	23	0.6	22	0.596
Yaponiya	12	0.629	11	0.665	11	0.647	11	0.646	13	0.634	9	0.648
İslandiya	13	0.628	8	0.701	8	0.689	13	0.644	8	0.659	10	0.642
Norveç	14	0.622	10	0.676	10	0.651	14	0.639	12	0.638	12	0.633
Ədədi orta		***0.62***		***0.671***		***0.643***		***0.645***		***0.643***		***0.631***
Argentina	15	0.617	14	0.65	12	0.641	18	0.623	17	0.619	15	0.618
Braziliya	16	0.612	16	0.649	15	0.635	15	0.628	16	0.619	14	0.619
Kosta Rika	17	0.607	13	0.664	16	0.634	8	0.657	14	0.631	17	0.614
ABŞ	18	0.603	21	0.624	21	0.613	21	0.612	20	0.609	19	0.608
Kanada	19	0.601	22	0.623	19	0.623	20	0.613	22	0.6	20	0.602
nisbi orta		***0.599***		***0.746***		***0.588***		***0.663***		***0.648***		***0.603***
Ukrayna	20	0.597	25	0.603	17	0.631	12	0.645	15	0.631	18	0.614
İsrail	21	0.596	23	0.619	23	0.601	22	0.606	21	0.602	21	0.599
Vietnam	23	0.594	24	0.607	22	0.61	25	0.591	24	0.599	24	0.596
Yeni Zelandiya	22	0.594	27	0.587	25	0.595	24	0.594	26	0.593	23	0.596
Çili	24	0.591	18	0.632	24	0.599	23	0.595	25	0.598	25	0.594
Birləşmiş Krallıq	25	0.589	15	0.65	13	0.641	19	0.623	18	0.619	26	0.594
Avstraliya	26	0.585	26	0.59	26	0.591	26	0.587	27	0.585	27	0.587
Qazaxıstan	27	0.523	7	0.702	27	0.497	27	0.477	9	0.653	4	0.708
Nəzəri mərkəz		**0.5**		**0.5**		**0.5**		**0.5**		**0.5**		**0.5**
Çin	28	0.476	28	0.576	28	0.421	28	0.438	28	0.446	28	0.454

Mənbə: OECD statistikası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldə qeyd edilən ölkələr üzrə indeksin ədədi orta qiyməti 2000-ci ildə 0,671 olduğu halda 2024-cü ildə bu göstərici 0,620-yə enmişdir. Beləliklə, 24 il ərzində kənd təsərrüfatında liberallıq-dirijistlik indeksinin orta göstərici 0,051 bənd azalmışdır. Əldə olunan nəticə tədqiqat aparılan ölkələr qrupunda kənd təsərrüfatı siyasətinin ümumilikdə daha liberal istiqamətə dəyişdiyini göstərir. Lakin 2024-cü ildə ədədi orta qiymətinin (0,620) mərkəzi qiymətdən yüksək olması onu göstərir ki, kənd təsərrüfatında dirijistlik daha üstün mövqe tutur.

Cədvəldən göründüyü kimi illər üzrə maksimum və minimum göstəricilər arasındakı fərq də xeyli dəyişkəndir. Belə ki, 2000-ci ildə ölkələr arasında kənd təsərrüfatının liberallıq-dirijistlik indeksində maksimum göstərici 0,917, minimum göstərici isə 0,576 olmuş, 2024-cü ildə isə maksimum və minimum göstərici müvafiq olaraq 0,722 və 0,476 təşkil etmişdir. Bu onu göstərir ki, 2024-cü ildə həm ölkələrarası maksimum göstərici aşağı düşmüşdür, həm də ölkələrarası fərq müəyyən qədər daralmışdır.



Qrafik 2.2.1. 2000-ci illə müqayisədə 2024-cü ildə indeks qiymətinin dəyişməsi, bənd

Qeyd: Qrafik İƏİT-in məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib edilmişdir.

Ölkələr üzrə isə əsas dəyişikliklərə nəzər salanda görürük ki, kənd təsərrüfatında liberallıq-dirijistlik indeksi göstəricilərində ən böyük azalma Türkiyədə müşahidə edilmişdir. İndeks 2000-ci ildəki 0,917 göstəricisindən 2024-cü ildə 0,649-a enmiş və nəticə olaraq 0,268 bənd azalmışdır. Bu nəticə cədvəldəki ölkələr arasında ən böyük dəyişikliyi göstərir. Buna baxmayaraq, 2024-cü ildə qeyd olunan göstəricinin mərkəzi qiymətdən yüksək olması Türkiyədə dirijist siyasətin elementlərinin hələ də üstün olduğunu göstərir.

2000 və 2024-cü illərdə Cənubi Koreyanın kənd təsərrüfatına müdaxiləsində də əhəmiyyətli dəyişiklik baş vermişdir. Belə ki, kənd təsərrüfatında liberallıq və dirijistlik indeksi 0,813-dən 0,663-ə enmişdir, yəni 0,150 bənd azalmışdır. Cənubi Koreyada da kənd təsərrüfatı siyasətinin əvvəlki illərlə müqayisədə daha liberal istiqamətə yönlənməsi müşahidə olunur.

Qazaxıstanda 2000-2024-cü illərdə kənd təsərrüfatında liberallıq və dirijistlik indeksi 0,702-dən 0,523-ə düşərək 0,178 bənd azalmışdır. Lakin digər ölkələrlə müqayisədə bu ölkədə göstəricinin dinamikası daha dəyişkən olmuşdur. Belə ki, 2010-cu ildə indeksin qiyməti 0,477-yə qədər endiyi halda, 2020-ci ildə 0,708-ə yüksəlmişdir. Bu göstərici kənd təsərrüfatı siyasətində dövlət müdaxiləsinin və dəstək mexanizmlərinin dövrlər üzrə əhəmiyyətli dəyişikliklərə məruz qaldığını göstərir. Qeyd olunan hal Avropa İttifaqı üçün də keçərlidir. Cədvəldən də göründüyü kimi kənd təsərrüfatı siyasətində dövlət dəstəyi mexanizmləri və bazar tənzimlənməsi qeyd edilən dövrlər üzrə dəyişmişdir.

2024-cü ildə qeyd edilən ölkələrin böyük əksəriyyətində kənd təsərrüfatında liberallıq və dirijistlik indeksi mərkəzi qiymətdən (0,500) yüksəkdir. Tədqiqat aparılan ölkələrdə kənd təsərrüfatı siyasətində dirijist yanaşma elementləri hələ də üstün mövqedədir.

2024-cü ildə kənd təsərrüfatında liberallıq və dirijistlik indeksinin mərkəzi qiymətindən (0,500) aşağı olan yeganə ölkə Çin (0,476) olmuşdur. Çində kənd təsərrüfatında liberallıq və dirijistlik indeksinin 0,500-dən aşağı düşməsi ölkənin kənd təsərrüfatında daha liberal siyasət istiqamətinin formalaşdığını göstərir. Qazaxıstan isə 0,523 göstəricisi ilə mərkəzə ən yaxın ölkələrdən biridir. Bu baxımdan Qazaxıstanın kənd təsərrüfatı siyasəti liberal və dirijist yanaşmalar arasında nisbətən balanslı mövqedə qiymətləndirilə bilər.

Ümumilikdə, 2000–2024-cü illərdə kənd təsərrüfatında liberallıq və dirijistlik indeksinin orta qiymətinin 0,671-dən 0,620-yə enməsi tədqiq olunan ölkələrdə kənd təsərrüfatına dövlət müdaxiləsinin əvvəlki dövrlə müqayisədə nisbətən zəifləməsini və bazar mexanizmlərinin rolunun artmasını ifadə edir. Bununla yanaşı, 2024-cü ildə orta indeksin mərkəzi qiymət indeksindən (0,500) əhəmiyyətli dərəcədə yüksək olması

kənd təsərrüfatında liberal siyasətə keçidin tam olaraq mümkün olmadığını göstərir. Əksər ölkələrin kənd təsərrüfatında isə bazar mexanizmləri ilə dövlət tənzimlənməsinin birgə tətbiqinə əsaslanan qarışıq model mövcuddur.

2024-cü ildə ölkələrin kənd təsərrüfatında liberallıq-dirijistlik indeksinə görə qruplaşdırılması göstərir ki, tədqiqata daxil edilən ölkələr qarışıq və qismən dirijist mövqedə cəmlənmişdir. Bu qrupda Avstraliya, Çili, İsrail, Yeni Zelandiya, Çin, Qazaxıstan, Birləşmiş Krallıq, Ukrayna və Vyetnam yer almışdır. Bu ölkələrdə qarışıq idarəetmə forması olan kənd təsərrüfatında həm bazar mexanizmlərinin, həm də dövlət müdaxiləsinin daha nəzərəçarpan şəkildə birləşdiyini göstərir. Bu cür idarəetmə sistemində dövlət yalnız bazarın fəaliyyətini tənzimləmir, həmçinin kənd təsərrüfatı istehsalçılarına dəstək, gəlirlərin sabitləşdirilməsi və digər aqrar siyasət tədbirlərindən istifadə edir.

Araşdırılan ölkələrin böyük hissəsi 0,600-0,800 intervalında, yəni qismən dirijist qrupda cəmlənmişdir. Bu qrupa Kanada, Kolumbiya, İslandiya, Yaponiya, Koreya, Meksika, Norveç, İsveçrə, Türkiyə, ABŞ, Argentina, Braziliya, Hindistan, İndoneziya, Filippin, Rusiya, Cənubi Afrika, Kosta-Rika və Avropa Birliyi daxildir. Qeyd olunan ölkələrdə kənd təsərrüfatının inkişafında bazar mexanizmləri fəaliyyət göstərməklə yanaşı, eyni zamanda dövlətin subsidiyalaşdırma, qiymətlərin tənzimlənməsi, idxalın qorunması, istehsalçıların dəstəklənməsi və digər aqrar siyasət alətləri vasitəsilə müdaxiləsi daha nəzərəçarpandır.

Bütün bunlar onu göstərir ki, 2000-2024-cü illərdə araşdırma aparılan ölkələrdə kənd təsərrüfatı siyasətində dirijist yanaşma üstün mövqeyini qorumuşdur. İndeksin orta qiymətinin müəyyən qədər azalması dövlət müdaxiləsinin əvvəlki dövrlə müqayisədə nisbətən zəiflədiyini göstərsə də, bu dəyişiklik aqrar siyasətin ümumi xarakterini dəyişdirəcək səviyyədə olmamışdır. Xüsusilə 2024-cü ildə indeksin orta qiymətinin 0,500 həddindən yüksək olması kənd təsərrüfatında dövlət tənzimlənməsi və dəstək mexanizmlərinin hələ də mühüm rol oynadığını göstərir. Bu hal aqrar sahənin strateji əhəmiyyəti, ərzaq təhlükəsizliyinin təmin edilməsi, daxili istehsalın qorunması və kənd təsərrüfatı istehsalçılarının dəstəklənməsi kimi amillərlə əlaqələndirilə bilər.

Cədvəl 2.2.4.

KTDDLDİ üzrə ölkələrin standart nəzəri qruplar üzrə bölgüsü

Qrup	2000		2005		2010		2015		2020		2024	
	Ölkə sayı	faiz	Ölkə sayı	faiz	Ölkə sayı	faiz	Ölkə sayı	faiz	Ölkə sayı	faiz	Ölkə sayı	faiz
Liberal	0	0,00	0	0,00	0	0,00	0	0,00	0	0,00	0	0,00
Qismən liberal	0	0,00	0	0,00	0	0,00	0	0,00	0	0,00	0	0,00
Qarışıq	3	10,71	5	17,86	6	21,43	5	17,86	8	28,57	9	32,14
Qismən dirijist	22	78,57	23	82,14	20	71,43	21	75,00	20	71,43	19	67,86
Dirijist	3	10,71	0	0,00	2	7,14	2	7,14	0	0,00	0	0,00

Müşahidə vahidləri: 27 ölkə və Avropa İttifaqı. Mənbə: təqdim edilmiş KTDDLDİ cədvəli əsasında müəllif hesablamaları.

KTDDLDİ üzrə liberal və qismən liberal qruplarda ölkə yoxdur. 2000-ci ildə ölkələrin 78,57%-i qismən dirijist, 10,71%-i dirijist və 10,71%-i qarışıq qrupda yerləşmişdir. 2024-cü ildə qismən dirijist qrupun payı 67,86%-ə enmiş, qarışıq qrupun payı 32,14%-ə yüksəlmiş, dirijist qrupda isə ölkə qeydə alınmamışdır.

2000-2024-cü illərdə 9 ölkə daha liberal qrupa keçmiş, 19 ölkə eyni qrupda qalmışdır. Daha dirijist yekun qrupa keçən ölkə olmamışdır. İndeks qiyməti 24 ölkə azalmış, 4-də yüksəlmişdir. Bu, dəstəyin zəifləməsi istiqamətini göstərsə də, kənd təsərrüfatında yüksək dövlət dəstəyi modelinin davam etdiyini təsdiqləyir.

KTDDLDİ-nin ədədi ortası 2000-ci ildə 0,671-dən 2024-cü ildə 0,620-yə enmişdir. Buna baxmayaraq, bütün müşahidə illərində ədədi orta 0,600-dən yüksəkdir və qismən dirijist qrupda qalır. 2024-cü ildə nisbi orta 0,599 olmaqla qarışıq orta qrupun yuxarı sərhədində, ədədi orta isə 0,620 olmaqla qismən dirijist qrupdadır.

ASLDİ üzrə nəticələrin təhlili: 2001-2024-cü illərdə 148 ölkə üzrə ASLDİ-nin dinamikası ümumilikdə liberal istiqamətin gücləndiyini göstərir. Ölkələr üzrə ədədi orta 2001-ci ildə 0,412 olmuş və qarışıq orta qrupa daxil olmuşdur. 2020-ci ildə 0,356 olmuşdur. 2024-cü ildə ədədi orta cüzi yüksələrək 0,364 təşkil etsə də, qismən liberal

intervalda qalmışdır. Beləliklə, 2001-2024-cü illərdə ədədi orta qiymətin 0,048 bənd azalması ASLDİ-nin əhatə etdiyi dövlət müdaxiləsi komponentləri üzrə ümumi liberallaşma meylinə işarə edir.

Cədvəl 2.2.5.

ASLD indeksi üzrə bir sıra ölkələrin mövqeyi və indeks qiyməti

	Sıralama D-L	2024	Sıralama D-L	2001	Sıralama D-L	2020
M. Afrika Respublikası	1	0,685	58	0,443	2	0,592
Tanzaniya	2	0,581	34	0,495	10	0,523
Hindistan	3	0,567	8	0,649	1	0,615
Əlcəzair	4	0,559	25	0,539	17	0,494
Myanma	5	0,555	1	0,711	5	0,542
Mikroneziya	6	0,545	33	0,503	7	0,532
Esvatini	7	0,544	38	0,485	11	0,521
Şri-Lanka	8	0,525	31	0,518	27	0,451
Bruney-Darüssəlam	9	0,525	67	0,425	8	0,528
Fici	10	0,522	29	0,524	4	0,543
Nəzəri orta		**0,500**		**0,500**		**0,500**
Türkiyə	16	0,498	88	0,373	106	0,312
Qırğızıstan	29	0,443	19	0,578	6	0,534
Median		**0,473**		**0,580**		**0,460**
Çin	35	0,429	48	0,458	38	0,431
Qazaxıstan	44	0,405	28	0,527	26	0,451
Nisbi orta		**0,397**		**0,444**		**0,363**
Türkmənistan	47	0,392	100	0,348	139	0,207
Rumıniya	49	0,388	83	0,388	55	0,384
Polşa	62	0,373	125	0,280	122	0,259
Finlandiya	63	0,372	81	0,388	57	0,378
Ədədi orta		**0,364**		**0,412**		**0,356**
Rusiya Federasiyası	73	0,360	47	0,460	76	0,341
Sloveniya	78	0,351	144	0,202	70	0,348
Xorvatiya	80	0,347	76	0,405	49	0,400
Litva	90	0,336	92	0,360	66	0,353
Slovakiya	96	0,332	111	0,338	79	0,339
Tacikistan	98	0,330	123	0,281	123	0,257
Estoniya	100	0,326	148	0,178	82	0,334
Moldova Respublikası	104	0,325	103	0,346	37	0,431
Azərbaycan	**122**	**0,293**	35	0,490	109	0,312
Çexiya	123	0,284	147	0,183	111	0,310
Gürcüstan	125	0,274	96	0,352	54	0,385
İsveçrə	137	0,217	102	0,346	128	0,235
İtaliya	139	0,216	132	0,239	134	0,219
Fransa	138	0,216	140	0,219	135	0,216
İsrail	140	0,215	136	0,225	136	0,212
Almaniya	141	0,214	137	0,222	137	0,211
Koreya Respublikası	142	0,212	120	0,285	140	0,203
Madaqaskar	143	0,187	32	0,517	138	0,208
İslandiya	144	0,164	129	0,253	144	0,160
Konqo Demokratik Respublikası	145	0,158	75	0,415	124	0,247
Norveç	146	0,143	145	0,198	147	0,131
Qana	147	0,122	135	0,229	146	0,136
Puerto-Riko	148	0,110	134	0,230	148	0,111

Qeyd. Cədvəl müəllif tərəfindən tərtib edilmişdir

Qruplar üzrə struktur dəyişiklik daha aydın görünür. 2001-ci ildə qismən liberal qrupun payı 45,27%, qarışıq orta qrupun payı 41,22%, qismən dirijist qrupun payı 10,81%, liberal qrupun payı isə 2,7% olmuşdur. 2024-cü ildə qismən liberal ölkələrin payı 66,22%-ə yüksəlmiş, qarışıq orta qrupun payı 29,05%-ə, qismən dirijist qrupun payı isə 0,68%-ə enmişdir. Liberal qrupun payı 4,05% olmuş, dirijist qrupda isə heç bir ölkə qeydə alınmamışdır. Bu nəticə ölkələrin paylanmasının nəzəri mərkəzdən liberal qütbə doğru çəkildiyini göstərir (Cədvəl 2.2.5).


Cədvəl 2.2.6.

ASLDİ üzrə ölkələrin nəzəri qruplar üzrə bölgüsü

Qrup	2001		2010		2020		2024	
	Ölkə sayı	%	Ölkə sayı	%	Ölkə sayı	%	Ölkə sayı	%
Liberal	4	2,7	9	6,1	8	5,4	6	4,1
Qismən liberal	67	45,3	77	52,0	92	62,2	98	66,2
Qarışıq orta	61	41,2	57	38,5	47	31,8	43	29,1
Qismən dirijist	16	10,8	5	3,4	1	0,7	1	0,7
Dirijist	0	0,0	0	0,0	0	0,0	0	0,0


Mənbə: 148 ölkə üzrə ASLDİ göstəriciləri əsasında müəllif hesablamaları.

Ədədi orta yalnız 2001-ci ildə qarışıq orta qrupda olmuş, 2005-ci ildən etibarən qismən liberal intervalda qərarlaşmışdır. 2024-cü ildə ədədi orta nəzəri ortadan 0,136 bənd, nisbi ortadan isə 0,033 bənd aşağı olmuşdur. Bu fərq ölkələrin böyük hissəsinin 0,201–0,400 intervalında cəmləşdiyini göstərir. 148 ölkədən 15-i nəzəri ortanın dirijist tərəfində, 133-ü isə nəzəri ortanın liberal tərəfində cəmlənmişdir.



Qrafik 2.2.2. ASLDİ üzrə ölkələrin nəzəri orta və ədədi ortaya görə yerləşməsi

Ölkələr üzrə fərdi dinamika vahid istiqamətdə olmamışdır. 2001-2024-cü illərdə ən böyük liberal istiqamətli dəyişikliklər Əfqanıstan, Madaqaskar, El Salvador, Nigeriya, Ekvador və Tunisdə müşahidə edilmişdir. Əks istiqamətdə ən böyük dəyişiklik Mərkəzi Afrika Respublikasında qeydə alınmış, indeks 0,443-dən 0,685-ə yüksəlmişdir. 2024-cü ildə qismən dirijist qrupda yalnız Mərkəzi Afrika Respublikası qalmışdır. 2001-2024-cü illər ərzində ümumilikdə qarar sahəyə müdaxilə dərəcəsində liberal yöndə dəyişmə qeydə alınmışdır .




Qrafik 2.2.3. 2001-2024-cü illər ərzində ASLDİ-nin liberal və dirişist yöndə dəyişməsi

Azərbaycan üzrə ASLDİ-nin ayrıca təhlili: Azərbaycan üzrə ASLDİ dinamikası üç əsas mərhələ ilə xarakterizə olunur. 2001 və 2005-ci illərdə indeks müvafiq olaraq 0,490 və 0,489 olmuş və Azərbaycan qarışıq orta qrupda yerləşmişdir. Bu dövrdə göstəricinin demək olar ki, dəyişməməsi ASLDİ-nin əhatə etdiyi dövlət müdaxiləsi komponentləri üzrə nisbi sabitliyi göstərir.

2005–2010-cu illərdə ən kəskin dəyişiklik baş vermişdir. İndeks 0,489-dan 0,195-ə enərək 0,294 bənd azalmış və Azərbaycan qarışıq orta qrupdan liberal qrupa keçmişdir. 2015-ci ildə indeks 0,196 olmaqla liberal qrupda qalmışdır. Bu mərhələ ASLDİ üzrə ən güclü liberallaşma dövrü kimi qiymətləndirilə bilər.

2015-2020-ci illərdə isə əks istiqamətli dəyişiklik müşahidə edilmişdir. İndeks 0,196-dan 0,312-yə yüksəlmiş və ölkə liberal qrupdan qismən liberal qrupa keçmişdir. 2020–2024-cü illərdə göstərici yenidən 0,312-dən 0,293-ə enmiş, lakin qrup mövqeyi dəyişməmişdir. Bütövlükdə, 2001–2024-cü illərdə Azərbaycanın ASLDİ-si 0,197 bənd azalmışdır ki, bu da uzunmüddətli istiqamətdə liberallaşmanı göstərir.

2024-cü ildə Azərbaycanın 0,293 göstəricisi nəzəri ortadan 0,207 bənd, nisbi ortadan 0,104 bənd və 148 ölkə üzrə ədədi ortadan 0,071 bənd aşağı olmuşdur. Buna görə Azərbaycan ASLDİ üzrə qismən liberal mövqedədir və ölkələr üzrə orta göstəricidən liberal qütbə daha yaxın yerləşir. Bununla belə, bu nəticə aqrar sahəyə dövlət dəstəyinin bütövlükdə zəif olması kimi şərh edilməməlidir. İndeks yalnız metodologiyada nəzərdə tutulan birbaşa və dolayı dəstək komponentlərini əhatə edir.



Qrafik 2.2.4. Azərbaycan üzrə ASLDİ-nin dəyişmə dinamikası, 2001–2024

Qeyd: Nəzəri orta 0,500 səviyyəsində sabit qəbul edilmişdir. Azərbaycanın 2001–2024-cü illər üzrə illik ASLDİ göstəricilərinin sadə ədədi ortası 0,309 təşkil edir.

Qrafik Azərbaycanın ASLDİ üzrə inkişaf trayektoriyasının xətti deyil, mərhələli xarakter daşıdığını göstərir. 2001-2005-ci illərdə göstərici 0,487-0,492 intervalında, yəni nəzəri orta olan 0,500 səviyyəsinə çox yaxın olmuşdur. 2006-cı ildən etibarən indeks sürətlə liberal yöndə dəyişmiş, 2010-cu ildə 0,195-ə, 2013-cü ildə isə dövr üzrə minimum səviyyə olan 0,181-ə enmişdir. Bu dəyişmə Azərbaycanın qarışıq orta

mövqedən liberal istiqamətə kəskin keçidini göstərir. 2014-cü ildən sonra indeks yenidən yüksəlməyə başlamış və 2020-ci ildə 0,312-yə çatmışdır. 2021-ci ildə 0,243-ə enmədən sonra 2022-2024-cü illərdə göstərici 0,288-0,295 intervalında sabitləşmişdir. Beləliklə, son dövrdə müəyyən dirijistləşmə elementləri müşahidə olunsa da, 2024-cü ilin 0,293 göstəricisi həm nəzəri ortadan, həm də 2001-2024-cü illər üzrə Azərbaycanın 0,309-luq ədədi ortasından aşağı qalır və ölkənin qismən liberal mövqeyini təsdiqləyir.

Azərbaycanın mövqeyini daha düzgün şərh etmək üçün yalnız bütün ölkələr üzrə orta göstərici ilə deyil, institusional və tarixi inkişaf trayektoriyası baxımından yaxın olan postsovet və postsosialist ölkələrlə müqayisə aparılması məqsədəuyğundur. Bu müqayisə iqtisadi strukturların tam eyniliyini deyil, keçmiş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid, torpaq və mülkiyyət islahatları, dövlət dəstəyi mexanizmlərinin transformasiyası kimi ortaq institusional xüsusiyyətləri əsas götürür.

Cədvəl 2.2.9.

Azərbaycanın seçilmiş postsovet ölkələri ilə ASLDİ üzrə müqayisəsi

Ölkə	2001	2020	2024	2001–2024 dəyişmə	2024-cü il qrupu
Azərbaycan	0,490	0,312	0,293	-0,197	Qismən liberal
Gürcüstan	0,352	0,385	0,274	-0,078	Qismən liberal
Ukrayna	0,482	0,337	0,310	-0,172	Qismən liberal
Moldova	0,346	0,431	0,325	-0,021	Qismən liberal
Tacikistan	0,281	0,257	0,330	+0,049	Qismən liberal
Rusiya	0,460	0,341	0,360	-0,100	Qismən liberal
Ermənistan	0,447	0,354	0,368	-0,079	Qismən liberal
Türkmənistan	0,348	0,207	0,392	+0,044	Qismən liberal
Qazaxıstan	0,527	0,451	0,405	-0,122	Qarışıq orta
Qırğızıstan	0,578	0,534	0,443	-0,135	Qarışıq orta

Qeyd. Cədvəl müəllif hesablamaları əsasında tərtib edilmişdir

Müqayisə göstərir ki, 2024-cü ildə Azərbaycan 0,293 göstəricisi ilə seçilmiş postsovet müqayisə qrupunda Gürcüstandan (0,274) sonra ən liberal mövqelərdən birində yerləşir. Azərbaycan Ukrayna (0,310), Moldova (0,325), Tacikistan (0,330), Rusiya (0,360), Ermənistan (0,368) və Türkmənistandan (0,392) daha aşağı indeks qiymətinə malikdir. Qazaxıstan (0,405) və Qırğızıstan (0,443) isə qarışıq orta qrupda qalır. 2001–2024-cü illər üzrə Azərbaycan indeksinin 0,197 bənd azalması müqayisə edilən postsovet ölkələri arasında ən güclü liberal istiqamətli dəyişikliklərdən biridir, yalnız qrupun seçilmiş tərkibindən asılı olaraq bu nəticənin şərhi dəyişə bilər.

Bu müqayisə Azərbaycan üzrə nəticənin yalnız qlobal orta ilə deyil, oxşar institusional keçid təcrübəsinə malik ölkələr fonunda da qismən liberal mövqeyə uyğun olduğunu göstərir. Bununla yanaşı, postsovet və postsosialist ölkələrin aqrar siyasətləri, büdcə imkanları və vergi-gömrük rejimləri fərqli olduğundan bu qrup müqayisəsi səbəb-nəticə əlaqəsi kimi deyil, müqayisəli institusional göstərici kimi şərh edilməlidir.

Postsosialist ölkələrlə əlavə müqayisə göstərir ki, 2024-cü ildə Azərbaycanın 0,293 göstəricisi Macarıstan (0,336), Serbiya (0,368), Polşa (0,373), Rumıniya (0,388), Albaniya (0,396) və Bolqarıstanın (0,424) göstəricilərindən aşağıdır. Bu baxımdan Azərbaycan seçilmiş postsosialist müqayisə qrupunda da daha liberal mövqedə yerləşir. Bununla belə, bu ölkələr arasında Avropa İttifaqına üzvlük, subsidiya sistemləri və vergi-gömrük rejimləri baxımından ciddi institusional fərqlər olduğundan müqayisə yalnız ASLDİ üzrə nisbi mövqenin şərhi məqsədi daşıyır.

Cədvəl 2.2.10.

Azərbaycanın seçilmiş postsosialist ölkələri ilə ASLDİ üzrə müqayisəsi

Ölkə	2001	2024	2001–2024 dəyişmə	2024-cü il qrupu
Azərbaycan	0,490	0,293	-0,197	Qismən liberal
Macarıstan	0,471	0,336	-0,135	Qismən liberal
Serbiya	0,488	0,368	-0,120	Qismən liberal
Polşa	0,280	0,373	+0,093	Qismən liberal
Rumıniya	0,388	0,388	0,000	Qismən liberal
Albaniya	0,637	0,396	-0,241	Qismən liberal
Bolqarıstan	0,281	0,424	+0,143	Qarışıq orta

Qeyd. Cədvəl müəllif hesablamaları əsasında tərtib edilmişdir

Cədvəl 2.2.11.

Azərbaycanın ASLDİ üzrə mövqeyi

İl	ASLDİ	Qrup	Nəzəri ortadan	Nisbi ortadan	Ədədi ortadan
2001	0,490	Qarışıq orta	-0,010	+0,046	+0,078
2005	0,489	Qarışıq orta	-0,011	+0,063	+0,095
2010	0,195	Liberal	-0,305	-0,212	-0,189
2015	0,196	Liberal	-0,304	-0,231	-0,183
2020	0,312	Qismən liberal	-0,188	-0,051	-0,044
2024	0,293	Qismən liberal	-0,207	-0,104	-0,071

Qeyd. Cədvəl müəllif hesablamaları əsasında tərtib edilmişdir


Yeni qruplaşdırma sərhədləri və yenilənmiş indeks qiymətləri əsasında ASLDİ üzrə əsas nəticə ondan ibarətdir ki, 2001-2024-cü illərdə ölkələr üzrə ümumi meyl liberal istiqamətdə olmuşdur. Qismən liberal qrup əsas dominant qrupa çevrilmiş,

qismən dirijist mövqe isə kəskin şəkildə zəifləmişdir. Azərbaycan da uzunmüddətli dövrdə qarışıq orta mövqedən qismən liberal mövqeyə keçmiş, lakin bu proses aralıq mərhələlərdə həm liberallaşma, həm də nisbi dirijistləşmə dalğaları ilə müşayiət olunmuşdur.

2.3. Azərbaycanda aqrar sahənin iqtisadi təhlili və ASLDİ ilə qarşılıqlı əlaqəsinin qiymətləndirilməsi

Azərbaycanda bazar iqtisadiyyatının formalaşdırılması prosesində aqrar sahədə həyata keçirilən institusional və iqtisadi islahatlar, idarəetmə prinsiplərinin yenilənməsi və dövlət dəstəyi mexanizmlərinin tətbiqi sahənin inkişaf imkanlarını genişləndirmişdir. Bazar münasibətlərinin formalaşmasının ilk illərində aqrar istehsalda geriləmə müşahidə olunsa da, sonrakı mərhələdə istehsal həcmi, əlavə dəyər, məhsuldarlıq və maliyyə nəticələri üzrə müsbət dinamika yaranmışdır. Buna görə aqrar sahənin inkişafı yalnız məhsul buraxılışının artımı ilə deyil, sahənin ÜDM-də mövqeyi, real istehsal dinamikası, məşğulluq və əmək məhsuldarlığı, qiymətlər, rentabellik, maliyyə nəticələri və investisiya fəallığı ilə birlikdə qiymətləndirilməlidir.

Aqrar sahənin makroiqtisadi mövqeyi və beynəlxalq müqayisə: DSK-nın məlumatlarına görə, 1995-ci illə müqayisədə 2024-cü ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda yaradılan ÜDM-in faktiki qiymətlərlə həcmi 758,9 milyon manatdan 7147,1 milyon manata yüksəlmişdir. Bununla yanaşı, sahənin ölkə ÜDM-ində xüsusi çəkisi 16,1%-dən 5,7%-ə enmişdir (Qrafik 2.3.1).




Qrafik 2.3.1. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda yaradılan ÜDM-in ölkə ÜDM-ində xüsusi çəkisi, %

Mənbə: DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

Aqrar sahənin ÜDM-də payının azalması sahənin mütləq həcminin kiçilməsi deyil, iqtisadiyyatın digər sahələrinin, xüsusilə sənaye və xidmətlərin daha sürətli genişlənməsi ilə izah olunur. Bu baxımdan sahənin nisbi çəkisinin azalması iqtisadi strukturun dəyişməsi ilə yanaşı qiymətləndirilməlidir.


2000–2024-cü illərdə adambaşına düşən kənd təsərrüfatı məhsullarının istehsal həcmi 137,1 manatdan 1270,9 manata yüksəlmişdir. Ayrı-ayrı illərdə müəyyən geriləmələr olsa da, ümumi trend artım istiqamətində olmuş, xüsusilə 2017-ci ildən sonra yüksəliş sürətlənmişdir. Bununla belə, göstərici cari qiymətlərlə ifadə olunduğundan onun artımını əmək və torpaq məhsuldarlığının eyni nisbətdə yüksəlməsi kimi qiymətləndirmək olmaz.

2024-cü ildə Azərbaycanda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın ÜDM-də payı 5,6%, adambaşına yaradılan aqrar əlavə dəyər isə 407,2 ABŞ dolları olmuşdur. Müqayisə göstərir ki, Azərbaycanda sektorun ÜDM-də payı dünya, Aİ və İƏİT göstəricilərindən yüksək olsa da, adambaşına aqrar əlavə dəyər dünya orta səviyyəsindən və müqayisə olunan bir sıra ölkələrdən aşağıdır (Qrafik 2.3.2 və Qrafik 2.3.3).



Qrafik 2.3.2. Aqrar sahədə yaradılmış əlavə dəyərin ÜDM-də payının ölkələr üzrə müqayisəsi, %, 2024

Qeyd. Qrafik müəllif hesablamaları əsasında tərtib edilmişdir




Qrafik 2.3.3. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda adambaşına yaradılan əlavə dəyərin ölkələr üzrə müqayisəsi, ABŞ dolları, 2024

Qeyd. Qrafik müəllif hesablamaları əsasında tərtib edilmişdir

2024-cü ildə Azərbaycanın aqrar sahəsinin ÜDM-də payı 5,6% təşkiil etmişdir. Bu göstərici 2024-cü ildə dünya üzrə ota hesabla 4,1%, Aİ üzrə 1,6% və İƏİT üzrə 1,4% olmuşdur. Həmin ildə Azərbaycanda aqrar sahədə yaradılan adambaşına əlavə dəyər 407,2 ABŞ dolları olduğu halda, dünya üzrə 558,3 dollar, Aİ və İƏİT üzrə təxminən 700 dollar, Türkiyədə isə 925 dollar təşkil etmişdir. Bu müqayisə göstərir ki, aqrar sahənin iqtisadiyyatda yüksək paya malik olması öz-özlüyündə yüksək səmərəlilik demək deyil. İnkişaf etmiş iqtisadiyyatlarda sektorun ÜDM-də payı aşağı olsa da, adambaşına yaradılan əlavə dəyər daha yüksəkdir. Azərbaycan üçün əsas məsələ aqrar sahənin nisbi çəkisini artırmaqdan daha çox mövcud resurslardan daha yüksək əlavə dəyər yaratmaq, əmək və torpaq məhsuldarlığını yüksəltmək, texnoloji modernləşməni və emal-dəyər zəncirlərini inkişaf etdirməkdir.

İstehsal dinamikası və ASLDİ ilə əlaqə: Aqrar sahənin ÜDM-də xüsusi çəkisinin azalmasına baxmayaraq ümumi məhsul buraxılışı (ÜMB) nominal ifadədə davamlı yüksəlmişdir. 2000–2025-ci illərdə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə ÜMB cari qiymətlərlə 1124 milyon manatdan 14918 milyon manata çatmışdır (Qrafik 2.3.4).




Qrafik 2.3.4. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə cari qiymətlərlə ÜMB və əvvəlki ilə nisbətən dəyişmə, %

Qeyd: Qrafik DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

Nominal artım illər üzrə dəyişkən olmuşdur. Ən yüksək artım 2007-ci ildə 37,8% təşkil etmiş, 2014-cü ildə isə 0,3%-lik azalma qeydə alınmışdır. 2022-ci ildə nominal ÜMB 20,1%, kənd təsərrüfatı istehsalçı qiymətləri isə 15,9% artmışdır. Bu, həmin ildə nominal artımın mühüm hissəsinin qiymət amili ilə bağlı olduğunu göstərir.

ASLDİ ilə aqrar ÜMB arasındakı əlaqə nominal və real göstəricilər üzrə birlikdə nəzərdən keçirildikdə daha düzgün şərh olunur. Qrafik 2.3.5-də indeksin dinamikası ilə nominal və əvvəlki kənd təsərrüfatı üzrə istehsalçı qiymətlərinin dəyişməsinə əsaslanan real ÜMB-nin dəyişməsi müqayisə edilir. Nominal ÜBM ilə ASLDİ arasında zəif əks əlaqə müşahidə edilir.




Qrafik 2.3.5. ASLDİ ilə aqrar sahə üzrə nominal ÜMB arasındakı əlaqə və real ÜMB-nin dinamikası

Qeyd: Qrafik DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Müşahidə dövründə nominal ÜMB-nin daha davamlı yüksəlişi əsasən ASLDİ-nin 0,200-0,300 intervalında formalaşdığı illərə təsadüf edir. Bu hal bazar mexanizmlərinin üstün olduğunu, lakin dövlət dəstəyinin müəyyən səviyyədə saxlanıldığını, qismən liberal modelin real istehsal artımı ilə uyğunlaşdığını göstərən ilkin empirik nəticə kimi qəbul edilə bilər.

Dövlət müdaxiləsi ilə kənd təsərrüfatı istehsalçı qiymətlərinin dinamikası: Nominal ÜMB qiymət dəyişmələrinin təsirini də əks etdirdiyindən, real istehsal dinamikasının qiymətləndirilməsində ümumi inflyasiya və kənd təsərrüfatı istehsalçı qiymətlərinin dəyişməsinin nəzərə alınması mövcud vəziyyətin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Qrafik 2.3.6 qiymət göstəricilərinin ayrı-ayrı illərdə yüksək dəyişkənliyini göstərir.




Qrafik 2.3.6. Ölkə üzrə inflyasiya və kənd təsərrüfatında istehsalçı qiymətlərinin dəyişməsi, %

Qeyd: Qrafik DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

2005–2024-cü illərdə inflyasiya, kənd təsərrüfatı istehsalçı qiymətləri və ASLDİ-nin müqayisəli dinamikası göstərir ki, ümumi inflyasiya ilə aqrar istehsalçı qiymətləri arasında daha sıx paralellik mövcuddur, ASLDİ isə daha uzunmüddətli və hamar dəyişmə trayektoriyasına malikdir.

Ayrı-ayrı dövrlərdə ASLDİ-nin yüksəlməsi ilə qiymət təzyiqlərinin güclənməsi eyni vaxta təsadüf etsə də, bu uyğunluq bütün müşahidə dövrü üzrə sabit xarakter daşımır. Bu nəticə dövlət müdaxiləsinin qiymət dinamikasını müəyyən edən yeganə amil olmadığını, əksinə, bəzi hallarda yüksələn qiymət və xərc təzyiqlərinə cavab olaraq dövlət dəstəyinin gücləndirilə bildiyini göstərir. Buna görə ASLDİ ilə qiymət göstəriciləri arasındakı əlaqə səbəb-nəticə münasibəti kimi deyil, qarşılıqlı təsir və ümumi makroiqtisadi şərait fonunda formalaşan statistik uyğunluq kimi qiymətləndirilməlidir.

ASLDİ ilə kənd təsərrüfatı istehsalçı qiymətlərinin dəyişməsi arasında müsbət statistik əlaqə müşahidə olunur. Determinasiya əmsalının R^2=0,3983, korrelyasiya əmsalının isə təxminən r=0,63 olması indeks yüksəldikcə istehsalçı qiymətlərinin artım tempinin də ümumilikdə yüksəlməyə meylli olduğunu göstərir (Qrafik 2.3.7).




Qrafik 2.3.7. ASLDİ ilə kənd təsərrüfatı istehsalçı qiymətlərinin dəyişməsi arasındakı əlaqə

Qeyd: Qrafik DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bu nəticə dövlət müdaxiləsinin qiymət artımına səbəb olması kimi şərh edilməməlidir. 2005-2024-cü illərdə yanacaq və enerji qiymətlərinin, istehsal və logistika xərclərinin, gübrə, əməkhaqqı, texnologiya, məhsuldarlıq, iqlim şəraiti, dünya ərzaq qiymətləri, logistika və eləcə də ümumi inflyasiyanın yüksəlməsi kənd təsərrüfatında istehsalçı qiymətlərinin artmasına təsir göstərir. Subsidiyalar, vergi və gömrük güzəştləri, güzəştli kredit və digər dəstək alətləri bu xərc təzyiqlərinin bir hissəsini kompensasiya etsə də ümumilikdə qiymət artımının qarşısını ala bilmir.

Məşğulluq və ASLDİ ilə əlaqə: Aqrar sahə Azərbaycanda məşğulluğun təmin edilməsində mühüm rol oynayır. 1999-2024-cü illərdə aqrar sahədə məşğul olanların sayı 1569,6 min nəfərdən 1782,3 min nəfərə yüksəlmiş, lakin sahənin ümumi məşğulluqdakı payı 41,5%-dən 35,4%-ə enmişdir (Qrafik 2.3.8).




Qrafik 2.3.8. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda məşğul əhalinin sayı və ümumi məşğulluqdakı xüsusi çəkisi

Mənbə: DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

Məşğulluğun dinamikası ümumi artım meylinə malik olsa da, ayrı-ayrı illərdə geriləmələr müşahidə edilmişdir. 2018-ci illə müqayisədə 2020-ci ildə məşğulların sayı 1769,3 min nəfərdən 1696,5 min nəfərə enmiş, 2021-ci ildən sonra yenidən yüksələrək 2024-cü ildə 1782,3 min nəfərə çatmışdır. Aqrar sahənin məşğulluqdakı payının ÜDM-dəki payından xeyli yüksək olması əmək məhsuldarlığının digər sahələrlə müqayisədə aşağı olduğunu göstərən mühüm struktur göstəricidir.

Məşğulluğun strukturunda muzdla çalışanların xüsusi çəkisi də aqrar sahədə xeyli aşağıdır. Belə ki, 2024-cü ildə aqrar sahədə məşğul olanların təxminən 2,5%-i muzdla çalışanlardan ibarət olmuşdur. 1999-cu ildə isə bu göstərici 14,6% idi (Qrafik 2.3.9).




Qrafik 2.3.9. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda muzdla çalışanların sayı və məşğulluqdakı xüsusi çəkisi

Mənbə: DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

Muzdla çalışanların sayı 1999-cu ildəki 203,5 min nəfərdən 2004-cü ildə 36,4 min nəfərə qədər kəskin azalmış, sonrakı dövrdə müəyyən bərpa müşahidə edilsə də 2024-cü ildə 44,7 min nəfər olmuşdur. Bu dinamika aqrar sahədə ailə əməyinin və fərdi təsərrüfatların yüksək rolunu, muzdlu məşğulluğun isə məhdud miqyasını göstərir.

Beynəlxalq müqayisə də Azərbaycanda aqrar sahədə məşğulluğun yüksək olduğunu göstərir. Müqayisə mənbəsində kənd təsərrüfatında çalışanların ümumi məşğulluqdakı payı Azərbaycan üzrə 34,7% göstərilir ki, bu da dünya orta göstəricisini və Türkiyə, Qazaxıstan, Rusiya, Aİ və İƏİT göstəricilərini əhəmiyyətli dərəcədə üstələyir (Qrafik 2.3.10).




Qrafik 2.3.10. Aqrar sahədə məşğulluğun ümumi məşğulluqdakı payının ölkələr üzrə müqayisəsi, %, 2024

Mənbə. Qrafik İƏİTin statistik bazası əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycan üçün mühüm struktur fərq ondan ibarətdir ki, aqrar məşğulluğun payı təxminən 35% olduğu halda sahənin ÜDM-də payı 5,6% səviyyəsindədir. Bu fərq bir məşğula düşən əlavə dəyərin və əmək məhsuldarlığının iqtisadiyyatın digər sahələrindən aşağı olduğunu göstərir. Buna görə əsas məqsəd məşğulluğun sayını artırmaqdan daha çox mövcud məşğulluğun məhsuldarlığını yüksəltmək olmalıdır.

ASLDİ ilə kənd təsərrüfatında məşğulluq arasında nəzərəçarpacaq mənfi statistik əlaqə mövcuddur. R^2=0,5277 və təxminən r=-0,7300 göstəriciləri ASLDİ-nin aşağı olduğu, yəni daha liberal mövqenin müşahidə edildiyi dövrlərdə məşğulluğun daha yüksək olmağa meylli olduğunu göstərir (Qrafik 2.3.11).




Qrafik 2.3.11. ASLDİ ilə kənd təsərrüfatında məşğulluq arasındakı əlaqə və zaman dinamikası

Qeyd. Qrafik DSK məlumatları və müəllif hesablamaları əsasında qurulmuşdur [23].

Bu əlaqə səbəb-nəticə münasibəti kimi qəbul edilməməlidir. Məşğulluğa demoqrafik proseslər, urbanizasiya və miqrasiya, torpaq konsolidasiyası, təsərrüfatların iriləşməsi, mexanikləşmə və əmək məhsuldarlığının yüksəlməsi və digər amillər də təsir edir. Dövlət dəstəyi bir tərəfdən istehsalın və məşğulluğun qorunmasına şərait yaratsa da, digər tərəfdən texnoloji yenilənmə vasitəsilə eyni məhsul həcminin daha az əmək qüvvəsi ilə daha çox istehsalına, məhsuldarlığın artırılmasına imkan yarada bilər.


Əmək məhsuldarlığı. Aqrar sahənin iqtisadi səmərəliliyinin əsas göstəricilərindən biri əmək məhsuldarlığıdır. 2017-2024-cü illərdə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda bir məşğula düşən əlavə dəyər 2250 manatdan 3963,1 manata yüksəlmiş, yəni 76,1% artmışdır. İlkin qiymətləndirmələrə görə 2025-ci ildə bu göstərici 4310,6 manata çatmışdır (Qrafik 2.3.12).



Qrafik 2.3.12. İqtisadi fəaliyyət növləri üzrə əmək məhsuldarlığı (bir məşğula düşən əlavə dəyər), manat

Mənbə: DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
Qeyd: DSK bu göstəricini 2017-ci ildən təqdim edir [23].

Ölkə üzrə ümumi əmək məhsuldarlığı 2017-ci ildə 13548,7 manatdan 2024-cü ildə 22688,7 manata çatmışdır. Lakin aqrar sahə ilə ümumi iqtisadiyyat arasında məhsuldarlıq fərqi böyük olaraq qalır.



Qrafik 2.3.13. Ümumi iqtisadiyyat üzrə bir məşğula düşən əlavə dəyərin aqrar sahədəki göstəriciyə nisbəti, dəfə

Mənbə: DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].
Qeyd: DSK bu göstəricini 2017-ci ildən təqdim edir.

Ümumi iqtisadiyyat üzrə bir məşğula düşən əlavə dəyər aqrar sahədəki səviyyədən 2017-ci ildə 6 dəfə, 2020-ci ildə 4,8 dəfə, 2022-ci ildə 7,2 dəfə, 2024-cü ildə isə 5,7 dəfə yüksək olmuşdur. Bu fərq aqrar sahədə məhsuldarlığın yüksəlməsinə baxmayaraq struktur geriliyin hələ də qaldığını göstərir. Təbii ki, aqrar sahədə məhsuldarlığın digər sahələrdən aşağı olması, bu sahənin xüsusiyyətindən də qaynaqlanır. Hesab edirik ki, məhsuldarlıq fərqinin azaldılması üçün dövlət dəstəyinin


texniki-texnoloji yenilənməyə, suvarma və seleksiyaya, aqrar xidmətlərə, təsərrüfatların səmərəli ölçüdə təşkilinə və yüksək əlavə dəyərli məhsulların istehsalına yönəldilməsi xüsusi əhəmiyyət daşıyır.

Maya dəyəri, rentabellik və maliyyə nəticələri. Kənd təsərrüfatı məhsullarının maya dəyəri, satış qiyməti və rentabellik göstəriciləri sahənin iqtisadi vəziyyətini və dövlət dəstəyinin nəticələrini qiymətləndirmək baxımından mühüm əhəmiyyət daşıyır.

2005-2024-cü illərdə bir sıra məhsullar üzrə həm maya dəyəri, həm də satış qiymətləri yüksəlmişdir. Məsələn, dənli bitkilərin bir sentnerinin maya dəyəri 8,1 manatdan 16,7 manata, satış qiyməti isə 13,6 manatdan 30,0 manata çatmışdır. Məhsullar üzrə fərqli dinamika istehsal xərclərinin, bazar qiymətlərinin, texnologiyanın və məhsuldarlığın rentabelliyə müxtəlif istiqamətlərdə təsir etdiyini göstərir.

Məhsul satışının rentabelliyi təsərrüfat formaları üzrə də fərqlənir. 2005-2024-cü illərdə fərdi sahibkar təsərrüfatlarında bitkiçilik rentabelliyi ümumilikdə yüksək olsa da, dövrün sonuna doğru kənd təsərrüfatı müəssisələri ilə fərq azalmışdır. Heyvandarlıqda isə kənd təsərrüfatı müəssisələrinin rentabelliyi uzunmüddətli dövrdə yüksəlmişdir (Qrafik 2.3.14).

Fərdi sahibkarlarda bitkiçilik məhsulları üzrə rentabellik 2005-ci ildə 86,6%-dən 2024-cü ildə 38,3%-ə enmiş, kənd təsərrüfatı müəssisələrində isə 41,5%-dən 38,7%-ə dəyişmişdir. Heyvandarlıqda fərdi sahibkar təsərrüfatlarında rentabellik 54,4%-dən 22,5%-ə enmiş, kənd təsərrüfatı müəssisələrində isə 5,4%-dən 26,7%-ə yüksəlmişdir.



Qrafik 2.3.14. Kənd təsərrüfatı müəssisələri və fərdi sahibkar təsərrüfatlarında məhsul satışının rentabelliyi, %

Qeyd: Qrafik DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

Məhsul növləri üzrə rentabellik də ciddi fərqlənir. Meyvə-giləmeyvə, kartof və tərəvəz kimi məhsullarda ayrı-ayrı illərdə yüksək rentabellik müşahidə olunduğu halda, bəzi heyvandarlıq məhsullarında göstəricilər daha aşağı olmuşdur. Bu fərqlər məhsuldarlıq, satış qiymətləri, xərclərin strukturu və bazar konyunkturası ilə bağlıdır.

Dənli bitkilərin rentabelliyinin 2005-2010-cu illərdə azalması, sonrakı dövrdə isə yenidən yüksəlməsi xərclər, satış qiymətləri, məhsuldarlıq və subsidiya mexanizmlərinin birgə təsiri ilə izah oluna bilər. Buna görə də rentabellik göstəricilərinin şərhində qiymət amili və məhsul üzrə fərqlər nəzərə alınmalıdır.

Kənd təsərrüfatı müəssisələrinin maliyyə nəticələrinin dinamikası da sahənin kommersiyalaşma səviyyəsini qiymətləndirməyə imkan verir. Cədvəl 2.3.1-də 2005-2024-cü illər üzrə mənfəət, zərər, satış gəlirləri və bitkiçilik-heyvandarlıq üzrə maliyyə nəticələri təqdim olunur.

Cədvəl 2.3.1.

Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri

Göstəricilərin adı	2005	2015	2020	2021	2022	2023	2024
Mənfəət , min manat	7098	53275	132835	201836	319498	284586	337564
Zərər, min manat	1207	13512	28820	30638	9486	27160	24661
Ümumi mənfəət, min manat	5892	39763	104016	171197	310012	257425	312902
Satışdan əldə edilən gəlir, min manat	70882	391801	637351	794863	1104580	1243014	1360698
Bitkiçilikdə mənfəət (zərər (-), min manat	2769	20241	69321	127159	170174	126029	168593
Heyvandarlıqda mənfəət (zərər (-), min manat	3117	19993	27180	32557	113751	132731	149089
Kənd təsərrüfatının ümumi məhsulu, (faktiki satış qiymətləri ilə), min manat	79683	374320	814426	988366	1172861	1633784	1318774

Qeyd: Cədvəl DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].


Cədvəl göstərir ki, müəssisələrin mənfəəti 2005-ci ildə 7098 min manatdan 2024-cü ildə 337564 min manata yüksəlmişdir. Satışdan əldə edilən gəlir eyni dövrdə 70882 min manatdan 1360698 min manata çatmışdır. Bununla yanaşı zərər göstəricisi illər üzrə dəyişkən olmuş, maliyyə nəticələrinin istehsal xərcləri, satış qiymətləri və məhsul strukturuna həssas olduğunu göstərmişdir.

Bitkiçilik və heyvandarlıq üzrə mənfəət də uzunmüddətli dövrdə artmışdır. Bununla belə, ayrı-ayrı illərdə baş verən dalğalanmalar məhsuldarlıq, hava şəraiti, satış qiymətləri və istehsal resurslarının dəyərindəki dəyişikliklərlə əlaqələndirilə bilər.

Kənd təsərrüfatı müəssisələrində ümumi mənfəətin ümumi məhsula nisbəti 2005-ci ildə 7,4%-dən 2024-cü ildə 23,7%-ə, satışdan əldə edilən gəlirin ümumi məhsula nisbəti isə təxminən 89,0%-dən 103,2%-ə yüksəlmişdir. Bununla belə, göstəricilər illər üzrə sabit deyil və 2023-cü ildə nəzərəçarpacaq zəifləmə müşahidə olunmuşdur.

Fərdi sahibkar təsərrüfatlarında isə mənfəət və satış gəlirlərinin ümumi məhsula nisbəti fərqli struktur nümayiş etdirir. Bu müqayisə maliyyə nəticələrinin yalnız istehsal həcmi ilə deyil, təsərrüfat forması, bazara çıxış, xərclərin strukturu və satış qiymətləri ilə də müəyyənləşdiyini göstərir.

İnvestisiya fəallığı. 2024-cü ildə aqrar sahədə əsas kapitala yönəldilən investisiyaların həcmi 2005-ci illə müqayisədə təxminən 7 dəfə yüksək olmuş, lakin 2020-ci il səviyyəsindən aşağı qalmışdır. Ümumi iqtisadiyyat üzrə əsas kapital investisiyalarında sahənin xüsusi çəkisi 2018-ci ildə 4,4%-ə qədər yüksəldikdən sonra 2024-cü ildə 1,3%-ə enmişdir. Bu, uzunmüddətli artıma baxmayaraq son illərdə aqrar sahənin ümumi investisiya strukturundakı nisbi mövqeyinin zəiflədiyini göstərir.



Qrafik 2.3.15. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda əsas kapitala yönəldilən investisiyaların həcmi və ümumi investisiyalarda xüsusi çəkisi
Qeyd: Qrafik DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [23].

Ümumilikdə təhlil göstərir ki, Azərbaycanda aqrar sahə uzunmüddətli dövrdə istehsal, adambaşına istehsal, əmək məhsuldarlığı və müəssisələrin maliyyə nəticələri üzrə müsbət dinamika nümayiş etdirmişdir. Aqrar sahənin ÜDM-də xüsusi çəkisinin azalması onun mütləq həcminin geriləməsi ilə deyil, iqtisadiyyatın digər sahələrinin daha sürətli inkişafı ilə bağlıdır. Bununla yanaşı, beynəlxalq müqayisədə adambaşına aqrar əlavə dəyərin və əmək məhsuldarlığının aşağı qalması, məşğulluğun yüksək payı və investisiyaların nisbi çəkisinin azalması struktur səmərəlilik probleminin davam etdiyini göstərir.

2.4. Azərbaycanda aqrar sahəyə dövlət dəstəyi səviyyəsinin qiymətləndirilməsi

Azərbaycanda aqrar sahə dövlətin geniş dəstək göstərdiyi sahələrdən biridir və bu dəstək həm birbaşa, həm də dolayı mexanizmlər vasitəsilə həyata keçirilir. 2001-ci ildən etibarən kənd təsərrüfatı istehsalçılarına torpaq vergisi istisna olmaqla digər əsas vergilər üzrə güzəştlərin tətbiqi aqrar sahəyə mühüm dolayı dəstək mexanizmini formalaşdırmışdır. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydaları"*na əsasən, AKİA tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə güzəştli kreditlərin, habelə kənd təsərrüfatı istehsal vasitələrinin güzəştli şərtlərlə satışı və lizinqinin maliyyələşdirilməsi davam etdirilmişdir [9].

Kredit, investisiya və büdcə dəstəyi: Mövcud qanunvericiliyə görə AKİA və Sahibkarlığın İnkişafı Fondu (SİF) sahibkarlıq subyektlərinə güzəştli kreditlər verir. AKİA mikrokreditlərin 12%-dən, digər kreditləri 7%-dən, SİF kreditləri isə 5%-dən çox olmamalıdır. 2020–2024-cü illərdə AKİA-nın aqrar sahəyə yönəltdiyi kreditlərin həcmi 87,4 mln. manatdan 75,4 mln. manata enmiş, SİF-in kənd təsərrüfatı məhsullarının istehsalına ayırdığı güzəştli kreditlər isə 56,5 mln. manatdan 132,2 mln. manata yüksəlmişdir. AKİA kreditlərinin strukturunda texnika və damazlıq heyvanların alışının payı 2020-ci ildəki 45,4%-dən 2024-cü ildə 67,1%-ə yüksəlmiş, mikrokreditlərin payı isə 39,4%-dən 27,6%-ə enmişdir. Eyni dövrdə AKİA tərəfindən birbaşa verilən uzunmüddətli kreditlərin həcmi 13,2 mln. manatdan 4,0 mln. manata düşmüşdür [47]. Verilən 75,4 mln. manat kreditlərin 50,6 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 4 milyon manatı güzəştli kreditlər, 20,8 milyon manatı isə mikrokreditlərdir.

Azərbaycanda 2019-cu ildə Aqrar Sığorta Fondu yaradılmış, aqrar sığorta sistemi təkmilləşdirilərək 2020-ci ildən kənd təsərrüfatı məhsullarının, əkin sahələrinin və kənd təsərrüfatı heyvanlarının dövlət dəstəyi ilə sığortalanmasına başlanılmışdır. Hazırda fermerlərin sığorta haqlarının 50 faizi dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Beləliklə, 2020–2024-cü illərdə aqrar sahəyə verilən güzəştli kreditlərin ümumi həcmi artsa da, bu maliyyələşmə tələbatı tam qarşılamır. Aqrar sahədə kapitalın dövriyyə sürətinin digər sahələrlə müqayisədə aşağı olması nəzərə alınaraq, fermerlərin dövriyyə vəsaitləri üçün əlverişli faizlərlə kredit əldə etmək imkanlarının genişləndirilməsi məqsədəuyğundur [23.a].

Bu dinamikanı daha aydın görmək üçün aşağıdakı cədvəldə aqrar sahəyə ayrılan investisiyaların, kreditlərin və büdcə xərclərinin həcmi, həmçinin onların ümumi iqtisadi göstəricilər daxilində xüsusi çəkisi təqdim olunur.

Cədvəl 2.4.1.

Aqrar sahəyə kredit, investisiya və ayrılmış büdcə xərclərinin həcmi və ümumi çəkisi

İllər	Aqrar sahəyə investisiya, milyon manatla	Xüsusi çəkisi, %	Aqrar sahəyə kredit, milyon manatla	Xüsusi çəkisi, %	Aqrar sahəyə büdcə xərcləri, milyon manatla	Xüsusi çəkisi, %
2010	431,0	4,4	441,3	4,8	352,9	3,0
2015	355,4	2,2	508,1	2,3	523,2	2,9
2020	520,6	3,0	566,2	3,9	862,2	3,3
2021	341,9	2,0	591,7	3,5	910,4	3,3
2022	408,0	2,3	629,1	3,1	920,1	2,9
2023	578.3	2,7	532,8	2,3	947, 6	2,6
2024	283.1	1,3	**593,2**	2,2	1095,8	2,9

Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Qeyd:Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının dövlət büdcəsinin icrasına dair illik hesabat.

Mərkəzi Bankın Kredit qoyuluşlarının sahələr üzrə strukturu (dövrün sonuna), real sektora kredit qoyuluşu.

2010-2024-cü illərdə aqrar sahəyə yönəldilən investisiyaların həcmi sabit olmamış və dəyişkən dinamika nümayiş etdirmişdir. 2010–2024-cü illərdə aqrar sahəyə investisiyaların həcmi qeyri-sabit dinamika ilə dəyişmişdir. Belə ki, 2010-cu ildə 431,0 milyon manat təşkil edən investisiyalar 2023-cü ildə 578,3 milyon manata yüksəlsə də, 2024-cü ildə 283,1 milyon manata enmişdir. Eyni zamanda, investisiyaların ümumi həcmində aqrar sahənin xüsusi çəkisi 2010-cu ildəki 4,4%-dən 2024-cü ildə 1,3%-ə düşmüşdür. Bu dinamika göstərir ki, aqrar sahəyə mütləq ifadədə investisiya axını davam etsə də, ümumi investisiya strukturunda onun nisbi mövqeyi zəifləmişdir. Qeyd edək ki, ölkədəmizdə ümumi investisiyanın əsas hissəsi sənaye,

nəqliyyat, tikinti, neft-qaz və digər sahələrə yatırılmışdır. Bu baxımdan aqrar sahəyə yatırılan investisiya artsa belə, onun ümumi investisiya portfelində payı aşağıdır. 2023-cü illə müqayisədə 2024-cü ildə aqrar sahəyə ayrılan investiya həcmi çox aşağı olmuşdur. Aqrar sahəyə ayrılan investiya həcminin azalmasına sahənin riskli olması və bu sahədə əlverişli iqtisadi mühitin olmaması, rentabelliyin aşağı olması, son illər yaranan iqlim dəyişikliyi, suvarma probleminin mövcudluğu, riskli sahə olması təsir göstərir. Bəzi banklar tərəfindən kiçik və orta fermerlərə aşağı faizli və uzunmüddətli kredit ayırmağa maraqlı olmurlar

Cədvəl 2.4.1-dən göründüyü kimi 2010–2024-cü illərdə aqrar sahəyə yönəldilən kreditlərin həcmi 151,9 milyon manat və ya 34,4% artmışdır. Aqrar sahəyə yönəldilən kreditlərin həcmi qeyd olunan illər ərzində sabit olmamış, artım və azalma halları müşahidə edilmişdir. Xüsusilə, 2022-ci ildə kreditlərin həcmi dövr üzrə ən yüksək səviyyəyə çatmış, 2023-cü ildə isə yenidən azalmış və 2024-cü ildə qismən bərpa olunmuşdur. Cədvəldən də göründüyü kimi aqrar sahəyə kredit qoyuluşlarının mütləq həcmi artsa da, müvafiq ümumi kredit göstəricisindəki payı azalmışdır.

2010–2024-cü illərdə aqrar sahəyə ayrılan büdcə xərclərinin həcmində davamlı olaraq artım müşahidə edilmişdir. Xüsusilə, 2015–2020-ci illərdə büdcə xərclərinin 523,2 milyon manatdan 862,2 milyon manata yüksəlmişdir ki, bu da aqrar sahənin dövlət tərəfindən maliyyələşdirilməsinin da artdığını göstərir. Sonrakı illərdə də artım baş vermişdir və 2024-cü ildə büdcə vəsaitlərinin həcmi qeyd olunan illər üzrə ən yüksək səviyyəyə çatmışdır.

Dövlət proqramları və subsidiya mexanizmlərinin inkişafı: Bununla yanaşı, dövlət dəstəyinin mühüm istiqamətlərindən biri müxtəlif dövlət proqramları çərçivəsində prioritet sahələrə ayrılan vəsaitlərlə bağlıdır. Belə ki, "*Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı*"na 75,8 milyon manat, "*Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı*"na 5,6 milyon manat, "*Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı*"na 2,3 milyon manat, *"Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət*

*Proqramı”*na 1,7 milyon manat, “*Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı”*na 1,6 milyon manat, *“Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı*”na 1,2 milyon manat, “*2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı*”na isə 0,2 milyon manat vəsait xərclənmişdir [140]. Bu fakt göstərir ki, dövlət dəstəyi yalnız ümumi aqrar istehsala deyil, eyni zamanda seçilmiş məhsul və sahələr üzrə ixtisaslaşmış inkişaf strategiyalarına da yönəlmişdir.

Dövlət proqramları ilə yanaşı, kənd təsərrüfatına ayrılan subsidiyaların strukturu da aqrar siyasətin prioritetlərini və dəstəyin əsas istiqamətlərini aydın göstərir.

Cədvəl 2.4.2.

Azərbaycanda kənd təsərrüfatına ayrılan subsidiyaların həcmi, min manat

Subsidiyanın istiqamətləri	**2018**	**2019**
Yanacaq və motor yağlarının dəyərinin 50 faizinin ödənilməsi (hər hektara 50 manat)	60555,0	60713,0
Buğda və çəltik istehsalçılarına hər hektar sahəyə 40 manat yardım verilməsi	23330,0	22527,6
1-ci və 2-ci reproduksiyalı toxum və ting istehsalçılarına subsidiyalar	7738,8	7425,1
Elmi-tədqiqat müəssisələrinə orijinal, super elit və elit toxumların istehsalına çəkilən xərclərin ödənilməsi	905,1	893,2
Mineral gübrələrin və biohumusların dəyərinin 70 faizinin ödənilməsi	102257,0	150858,3
Pestisidlərin dəyərinin 70 faizinin ödənilməsi	5743,0	19141,1
Kənd təsərrüfatı texnikasının lizinqlə satışına tətbiq edilən güzəştin həcmi	88000,0	59950,0
Damazlıq heyvanların satışına tətbiq edilən güzəştin həcmi	15970,0	9740,0
Süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat subsidiya verilməsi	6905,1	8254,5
Xam pambığın hər kq-na görə 0,1 manat subsidiya verilməsi	23038,0	29551,5
Quru tütünün hər kq-na, yaş tütünün isə hər 10 kq-na görə 0,05 manat subsidiya verilməsi	247,4	185,5
Bütün növ yaş baramanın hər kq-na görə 5 manat subsidiya verilməsi	2490,5	3156,5
Şəkər çuğundurunun hər tonuna görə 4 manat subsidiya verilməsi	1106,6	873,8
Təkrar əkinlərə görə (hər hektara 50 manat)	1431,2	1887,7
Arıçılara hər arı ailəsinə (pətəyə) görə 10 manat subsidiya verilməsi	3106,0	4265,3
Cəmi	**342824,0**	**379423,2**

Mənbə: *Kənd Təsərrüfatı Nazirliyinin məlumatları əsasında tərtib edilmişdir.*

Cədvəl 2.4.2-dən göründüyü kimi kənd təsərrüfatının müxtəlif istiqamətləri üzrə subsidiyaların ümumi həcmi artmışdır. 2018-ci ildə subsidiyaların 63,9%-i, 2019-cu ildə 63,2%-i texnika, mineral gübrə, pestisid və damazlıq heyvan kimi istehsal

vasitələrinin daha əlverişli şərtlərlə əldə edilməsinə yönəldilmişdir. Müvafiq olaraq 9,8 və 11,1%-i isə pambıq, tütün, barama, şəkər çuğunduru və süni mayalanma ilə alınmış buzovlara görə nəticəyönümlü ödənişlərin payına düşmüş, qalan hissə isə yanacaq-motor yağları, buğda və çəltik əkinləri və toxum istehsalı üzrə xərc yükünün azaldılmasına xidmət etmişdir.

Bu struktur göstərir ki, Azərbaycanda subsidiyalar yalnız sosial və kompensasiya xarakteri daşımır, eyni zamanda istehsal vasitələri bazasının genişləndirilməsinə, xərc yükünün azaldılmasına və bəzi məhsul qruplarında nəticəyönümlü təşviqə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin "*Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında*" 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə "*Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası*" təsdiq edilmişdir. Bu qaydaya əsasən hesabat ilində subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə verilməsi Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təmin edilmişdir. 2020-ci il yanvarın 1-dən etibarən fermerlərə subsidiyaların verilməsi üçün yeni mexanizm tətbiq edilmiş, bu mexanizm çərçivəsində əkin, məhsul, toxum, heyvan, arı və barama subsidiyaları daxil olmaqla 6 adda yeni subsidiya növü üzrə ödənişlərə başlanılmışdır.

Qeyd olunanlardan əlavə, kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən lizinqə götürülən və ya satın alınan kənd təsərrüfatı texnikasının ilkin dəyərinin 20%-i ödənildiyi halda, dövlət büdcəsi hesabına onun ilkin dəyərinin 40%-i həcmində güzəşt tətbiq edilmişdir [21]. Bu fakt onu göstərir ki, dövlət yalnız cari istehsal xərclərinə deyil, həm də əsas kapitalın yenilənməsinə və texnoloji təminata birbaşa müdaxilə edir.

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi çərçivəsində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi üçün 402,6 milyon manat vəsait ayrılmışdır. 2020-ci ildə ayrılan vəsait 2019-cu illə müqayisədə 63,2 milyon manat, yəni 18,6% çox olmuşdur [18]. Bu artım dövlətin ərzaq təhlükəsizliyinin təmin olunması ilə aqrar sahəyə dəstək siyasəti arasında sıx əlaqə olduğunu nəzərə aldığını göstərir.

2021-2023-cü illər üzrə subsidiya və güzəştlərin strukturunda baş verən dəyişiklikləri aşağıdakı cədvəldən izləmək mümkündür.

Cədvəl 2.4.3.

Subsidiya və güzəştlərin həcmi, min manat

Göstəricilər	**2021**	**2022**	**2023**
Əkin subsidiyası (əsas əkinlər)	254494,0	242995,1	257004,5
Təkrar əkinlərə görə subsidiya	3434,8	3563,3	5487,3
Pambıq satışına görə subsidiya	28088,5	56438,3	53774,9
Tütün satışına görə subsidiya	106,4	788,4	1668,6
Şəkər çuğunduru satışına görə subsidiya	544,6	2358,2	3556,5
Barama satışına görə subsidiya	2405,1	1989,0	2050,6
Ərzaqlıq buğda satışına görə subsidiya	-	-	12536,5
Süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiya	9067,4	9690,4	10300,0
Arı ailəsinin saxlanmasına görə subsidiya	5313,3	5820,9	-
Sertifikatlı toxum və tinglərin satışına görə subsidiya	6658,4	7431,1	6002,3
Cəmi subsidiya	**310112,4**	**331074,7**	**352381,2**
Texnika və avadanlıqların satışına görə güzəşt	80000,0	82900,0	83900,0
Texnika faiz subsidiyası	4740,0	6190,0	6500,0
Damazlıq heyvanların satışına görə güzəşt	17100,0	28800,0	7370,0
Cəmi güzəşt	**101840,0**	**117890,0**	**97770,0**
Cəmi	**411952,5**	**448964,7**	**450151,3**

Mənbə: *Azərbaycan Respublikası Maliyyə Nazirliyi, dövlət büdcəsinin icrasına dair illik hesabat* [17; 18; 19; 21].

Bu cədvəl göstərir ki, 2021-2023-cü illərdə subsidiyaların ümumi həcmi artmış, 2021-ci ildə 411952,5 min manat olan ümumi subsidya və güzəşt məbləği 2023-cü ildə 450151,3 min manata çatmışdır. Bu, dövlət dəstəyinin həcminin azalmadığını, əksinə, müəyyən struktur dəyişiklikləri ilə davam etdiyini göstərir. Xüsusilə əkin subsidiyaları bütün dövrlər üzrə əsas çəkini qorumuşdur. Bununla yanaşı, pambıq, tütün, şəkər çuğunduru və ərzaqlıq buğda üzrə satış subsidiyalarında artım müəyyən olunmuşdur. Ərzaqlıq buğda satışına görə subsidiyanın 2023-cü ildə ilk dəfə ayrıca görünməsi isə dövlətin ərzaq təhlükəsizliyi baxımından strateji məhsullara dəstəyini gücləndirdiyini göstərir.

2021-2023-cü illərdə subsidiya mexanizmlərinin tətbiqi ərzaq təhlükəsizliyi, texniki yenilənmə və prioritet istehsal sahələrinin dəstəklənməsi istiqamətində davam etmişdir. 2021-ci ildə ərzaq təhlükəsizliyinin təmin edilməsi tədbirləri üçün 467,5 milyon manat ayrılmış və bunun 454,8 milyon manatı (97,3%-i) sərf edilmişdir; vəsaitdə işğaldan azad olunmuş ərazilərdə yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi ilə bağlı əlavə xərclər də nəzərə alınmışdır. Həmin dövrdə kənd təsərrüfatı

texnikasının ilkin dəyərinin 40%-i, damazlıq heyvanların qiymətləndirilmiş dəyərinin isə 60%-i həcmində dövlət güzəştləri tətbiq edilmişdir [21, s.29].

2022-ci ildə 212 fermerə yeni salınan 1361,2 hektar intensiv meyvə bağlarına görə 6379,9 min manat, 8317 fermerə 41,44 min hektar təkrar əkinlərə görə 3563,3 min manat əkin subsidiyası ödənilmişdir. 209 toxum və ting istehsalçısına isə ümumilikdə 7433,1 min manat subsidiya verilmiş və həmin il subsidiyaların ödənilməsi üçün dövlət büdcəsindən 331076,7 min manat vəsait sərf olunmuşdur [21]. 2023-cü ildə arı ailəsinin saxlanmasına görə subsidiya verilməsə də, ərzaqlıq buğda satışına görə 12536,5 min manat subsidiya ayrılmış, kənd təsərrüfatı texnikasına 40% həcmində güzəşt mexanizmi saxlanılmışdır [17, s.43].


Vergi və gömrük güzəştləri formasında dolayı dövlət dəstəyi: Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçıları üçün vergi və gömrük təşviqləri də tətbiq olunur. Belə ki, kənd təsərrüfatı vergi ödəyiciləri 1 yanvar 2014-cü il tarixindən etibarən 10 illik müddət üçün gəlir vergisindən, ƏDV-dən və əmlak vergisindən azad edilmişdir. ƏDV yalnız Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışına tətbiq olunur. Bundan başqa, 1 yanvar 2017-ci il tarixindən etibarən buğdanın idxalı və satışı, həmçinin un və çörək istehsalı və satışı, eləcə də quş ətinin satışı ƏDV-dən azad edilmişdir. 1 yanvar 2020-ci il tarixindən etibarən isə bu siyahı bir qədər də genişləndirilmiş, heyvan və quş ətinin satışı, heyvandarlıqda və quşçuluqda istifadə olunan yem və yem qatqılarının satışı ilə bağlı əməliyyatlar da dörd il müddətinə ƏDV-dən azad edilmişdir. Bu faktlar göstərir ki, Azərbaycanda kənd təsərrüfatı istehsalçılarına dəstək yalnız subsidiya və kreditlərlə məhdudlaşmır, eyni zamanda vergi güzəştləri də aqrar sahəyə dövlətin dolayı müdaxilə və dəstək mexanizmlərinin mühüm komponentidir [21].

"*Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair"* Strateji Yol Xəritəsində kənd təsərrüfatının vergilərdən azad edilməsi, istehsalçılara büdcədən güzəştli kreditlərin verilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi üzrə idxal olunan əksər istehsal vasitələrinə gömrük güzəştlərinin tətbiq edilməsi nəzərdə tuturdu. Eyni zamanda "Aqrolizinq" ASC tərəfindən satılan kənd təsərrüfatı maşın, texnika və avadanlıqlarının dəyərinin

40%-nin büdcə hesabına ödənildiyi, onların lizinq yolu ilə satıldığı, kənd təsərrüfatı əmlakının və müəyyən edilmiş sığorta hadisələrinin sığortalanması üzrə hesablanmış sığorta haqqının 50%-nin dövlət tərəfindən ödənildiyi vurğulanır [12, s.37].

Beləliklə, Azərbaycanda kənd təsərrüfatı istehsalçılarına geniş vergi və gömrük güzəştlərinin, güzəştli kreditlərin, subsidiyaların və digər təşviq mexanizmlərinin tətbiqi dövlətin aqrar sahədə həm birbaşa, həm də dolayı iştirakının geniş olduğunu göstərir. Bu baxımdan aqrar sahə tam sərbəst bazar prinsipləri əsasında deyil, bazar mexanizmlərinin dövlət dəstəyi ilə tamamlandığı qarışıq model çərçivəsində fəaliyyət göstərir.

Birbaşa və dolayı dövlət dəstəyinin ümumi miqyasının qiymətləndirilməsi: Aparılan hesablamalar göstərir ki, aqrar sahəyə tətbiq edilən vergi güzəştləri və büdcə dəstəyi uzunmüddətli dövrdə artan dinamika ilə davam etmişdir. Hesablamalarımıza görə, 2024-cü ildə mənfəət vergisi və ƏDV-dən azadolma nəticəsində büdcədən "itirilmiş gəlirin" həcmi təqribən 2052,9 milyon manat təşkil etmişdir. Bu məbləğ həmin ildə birbaşa büdcə dəstəyindən daha yüksək olmaqla, aqrar sahəyə dövlət müdaxiləsinin yalnız subsidiya və kreditlərlə məhdudlaşmadığını göstərir.



Qrafik 2.4.1. Mənfəət vergisindən və ƏDV-dən azadolma səbəbindən büdcədən itirilmiş gəlir, mln manat (təqribi qiymətləndirmə)
Qeyd. DSK-nın məlumatları əsasında müəllif hesablamasıdır [23].

Göründüyü kimi 2010-cu ildə mənfəət vergisi və ƏDV-dən azadolma nəticəsində büdcədən itirilmiş gəlir 600,3 milyon manatdan olmuş və bu, 2024-cü ildə 3,4 dəfə artaraq 2052,9 milyon manata yüksəlmişdir. Büdcədən kənd təsərrüfatına ayrılan vəsait

isə eyni dövrdə 363,4 milyon manatdan 1102,6 milyon manata çatmışdır. Bununla belə, hər iki göstərici üzrə artım illər üzrə tam ardıcıl olmamışdır.

Cədvəl 2.4.4.

Dövlətin aqrar sahəyə birbaşa və dolayı dəstəyi

	Vergilərdən azadedilmə səbəbindən büdcədən itirilmiş gəlirin təqribi həmi (mln. manat)	Büdcədən kənd təsərrüfatına ayrılan vəsait (mln. manat)	K/T-na birbaşa və dolayı yolla edilən güzəştlər (mln. manat)
2010	600,2	363,4	963,6
2015	873,2	537,1	1410,3
2016	880,7	574,1	1454,8
2017	1023,7	484,6	1508,3
2018	1096,1	718,6	1814,7
2019	1223,5	874,2	2097,7
2020	1316,7	897,6	2214,3
2021	1442,8	943	2385,8
2022	1744,9	997,3	2742,2
2023	1925,6	1202,1	3127,7
2024	2056,3	1102,6	3158,9


Qeyd: *Cədvəl Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanaraq müəllif tərəfindən tərtib edilmişdir. Büdcə xərcləri ilə bağlı verilən göstəricilər büdcə proqnozuna əsaslanır və DSK-nın verdiyi faktiki göstəricilərdən fərqlənə bilər, bir çox hallarda faktiki xərclər proqnozdan az olmuşdur*.

Cədvəldəki seçilmiş illərdə birbaşa büdcə dəstəyi ilə vergi güzəştləri formasında hesablanan dolayı dəstəyin cəmi 963,6 mln manatdan 3 158,9 mln manata yüksəlib. Lakin dəstəyin ÜMB-dəki xüsusi çəkisi eyni templə artmayıb. Belə ki, hər 1 manat ÜMB-yə düşən dəstək 22,9-26,8 qəpik arasında dəyişib, göstərilən illər üzrə çəkili orta göstərici isə təxminən 25,3 qəpikdir. Nisbət 2017-ci ildə minimuma - 22,92 qəpiyə, 2019-cu ildə maksimuma - 26,77 qəpiyə çatıb. 2010-cu ildəki 24,85 qəpiklə müqayisədə 2024-cü ildə 24,31 qəpik olub.

2010–2024-cü illərdə dəstəyin nominal həcmi təxminən 3,28 dəfə, ÜMB isə 3,35 dəfə artıb. Deməli, nominal dəstəyin artması onun ÜMB-yə nisbətdə xüsusi çəkisinin də artması demək deyil. Dolayı dəstək vergi güzəştləri hesabına bütün müşahidə illərində əsas payı təşkil edib, ümumi dəstəkdə payı isə təxminən 58–68% intervalında dəyişib.

ASLDİ ilə dəstəyin ÜMB-yə nisbəti eyni istiqamətdə dəyişməyib. Məsələn, ASLDİ-nin ən yüksək olduğu 2020-ci ildə dəstək payı 26,27 qəpik, 2024-cü ildə isə ASLDİ 0,293 olduğu halda dəstək payı 24,31 qəpik olub. Seçilmiş müşahidələr üzrə sadə korrelyasiya təxminən 0,39-dur.

Ümumilikdə, göstəricilər aqrar sahənin həm fiskal, həm də büdcə alətləri ilə davamlı şəkildə dəstəkləndiyini göstərir. Lakin dəstəyin nominal həcminin artması onun səmərəliliyini avtomatik şəkildə təsdiq etmir. Qiymətləndirmədə dəstəyin strukturunun, ÜMB-də xüsusi çəkisinin, istehsal və məhsuldarlıq nəticələrinin, habelə dövlət müdaxiləsinin liberallıq–dirijistlik mövqeyinə təsirinin birlikdə nəzərə alınması daha məqsədəuyğundur.



Qrafik 2.4.2. Kənd təsərrüfatına birbaşa və dolayı yolla edilən güzəştlərin kənd təsərrüfatının ÜMB-də xüsusi çəkisi

Qeyd: DSK-nın [23] və Maliyyə Nazirliyinin hesabatları [17; 18; 19; 21] əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qrafik 2.4.2 göstərir ki, 2010–2024-cü illərdə kənd təsərrüfatına birbaşa və dolayı yolla edilən ümumi güzəştlərin ÜMB-də xüsusi çəkisi 31,2–35,1 faiz intervalında dəyişmişdir. Ən yüksək göstərici 2019-cu ildə 35,1%, ən aşağı göstərici isə 2017-ci ildə 31,2% olmuş, 2024-cü ildə 32,4% təşkil etmişdir. Büdcədən kənd təsərrüfatına ayrılan vəsaitlərin ÜMB-də payı 7,36–11,16 faiz intervalında dəyişmiş, vergi güzəştləri nəticəsində büdcədən itirilmiş gəlirlərin ÜMB-də xüsusi çəkisi isə 23,85–24,05 faiz intervalında nisbi sabitlik nümayiş etdirmişdir. Beləliklə, dövlət dəstəyinin əsas hissəsi birbaşa büdcə ayırmalarından deyil, ƏDV və mənfəət vergisi üzrə güzəştlər formasında dolayı dəstəkdən ibarət olmuşdur. Ümumilikdə, ÜMB-nin hər 1 manatının 31–33 qəpiyi dövlət dəstəyi hesabına formalaşır.

Nəticə etibarilə, Azərbaycanda aqrar sahəyə dövlət dəstəyi geniş və çoxşaxəli olmaqla subsidiyalar, güzəştli kreditlər, büdcə ayırmaları, texnika və damazlıq heyvanların alınmasına güzəştlər, vergi və gömrük təşviqləri vasitəsilə həyata keçirilir. ASLDİ dinamikası göstərir ki, bu dəstəyin genişlənməsi müəyyən dövrlərdə dirijistlik səviyyəsinin yüksəlməsi ilə müşayiət olunsa da, Azərbaycan 2024-cü ildə 0,293 indeks qiyməti ilə qismən liberal qrupda qalır. Bu səbəbdən aqrar siyasətin xarakteri yüksək dövlət dəstəyi ilə bazar mexanizmlərinin paralel fəaliyyət göstərdiyi, lakin liberal komponentlərin üstün olduğu qarışıq model kimi qiymətləndirilə bilər. Dövlət dəstəyinin səmərəliliyi isə onun həcmi ilə deyil, real istehsal, məhsuldarlıq, rentabellik, investisiya fəallığı və ərzaq təhlükəsizliyinə yaratdığı nəticələrlə qiymətləndirilməlidir.

Nəticə. Aparılan araşdırma göstərir ki, müstəqillik dövründə Azərbaycanda həyata keçirilən aqrar islahatlar mülkiyyət münasibətlərinin liberallaşdırılmasına, kolxoz-sovxoz sisteminin ləğvinə və özəl sahibkarlığın inkişafına şərait yaratmışdır. Nəticədə aqrar sahədə qeyri-dövlət sektorunun mövqeyi əhəmiyyətli dərəcədə güclənmiş, 2025-ci ildə kənd təsərrüfatında istehsal olunan ÜDM-də onun xüsusi çəkisi 99,8%-ə yüksəlmişdir.

Bununla yanaşı, dövlət aqrar sahədə birbaşa istehsalçı rolundan daha çox tənzimləyici və dəstəkləyici funksiyalara üstünlük vermişdir. Vergi güzəştləri, subsidiyalar, güzəştli kreditlər, lizinq və aqrar sığorta mexanizmləri, eləcə də strateji

dövlət proqramları Azərbaycanda liberal və dirijist elementləri birləşdirən qarışıq tənzimləmə modelinin formalaşdığını göstərir.

Bununla belə, özəl sektorun üstünlüyü və dövlət dəstəyinin genişliyi aqrar sahənin səmərəliliyini avtomatik təmin etmir. Məhsuldarlığın artırılması, texnoloji təminatın yaxşılaşdırılması, infrastruktur problemlərinin həlli və dövlət dəstəyinin nəticələrinin qiymətləndirilməsi aktual vəzifələr olaraq qalır.

Beləliklə, aqrar sahənin tənzimlənməsinin səmərəliliyi liberal və ya dirijist yanaşmanın üstünlüyündən deyil, bazar mexanizmləri ilə məqsədyönlü dövlət müdaxiləsinin düzgün uzlaşdırılmasından asılıdır. Əsas prioritet dövlət dəstəyinin həcmini deyil, onun ünvanlılığını, keyfiyyətini və iqtisadi-sosial nəticələrini yüksəltmək olmalıdır

Dünya ölkələrində aqrar sahənin inkişafı tənzimlənərkən liberal və dirijist (dövlət yönümlü) islahatlar həyata keçirilir. Bu islahatlar istehsalın stimullaşdırılması, ərzaq təhlükəsizliyinin təmin olunması, məşğulluğun qorunması və risklərin azaldılmasına xidmət edir. Azərbaycanda da son 30 ildə vergi güzəştləri, subsidiyalar və müxtəlif dəstək alətləri vasitəsilə analoji addımlar atılmışdır. Dövlət müdaxiləsinin səviyyəsini və xarakterini ölçmək üçün prof. N.Müzəffərlinin "İqtisadiyyatın solluğu (sağlığı) indeksi" yanaşması əsasında 0–1 şkalası (0 – liberal, 0,5 – nəzəri orta, 1 – dirijist) üzrə iki xüsusi indeks hesablanmışdır.

Birinci indeks - Kənd Təsərrüfatına Dövlət Dəstəyinin Liberallıq-Dirijistlik İndeksi (KTDDLDİ) İƏİT-in məlumat bazası əsasında 27 ölkə və Avropa İttifaqı üzrə qiymətləndirilmişdir. Nəticələrə əsasən, 2000–2024-cü illərdə ölkələrin orta göstəricisi 0,671-dən 0,620-yə enmişdir. Bu azalma aqrar siyasətdə dövlət müdaxiləsinin nisbətən zəiflədiyini və liberallaşma meylinin artdığını göstərir. Bununla belə, 2024-cü ildə orta göstəricinin mərkəz həddindən (0,500) yüksək olması dirijist elementlərin hələ də üstün mövqe tutduğunu sübut edir.

İkinci indeks - Aqrar Sahənin Liberallıq-Dirijistlik İndeksi (ASLDİ) birbaşa dövlət xərcləri (40% çəki) və vergi-gömrük güzəştləri (60% çəki) əsasında 148 ölkə üzrə hesablanmışdır. 2001–2024-cü illərdə bu indeks üzrə orta qiymət 0,412-dən 0,364-ə enərək qismən liberal intervalda qərarlaşmışdır. Bu göstərici üzrə Azərbaycan

2001-ci ildəki 0,490 qiymətindən 2024-cü ildə 0,293-ə enmişdir. Bu eniş ölkəmizdə tətbiq edilən geniş vergi və rüsum azadolmaları hesabına aqrar sahədə liberallaşma meylinin kəskin gücləndiyini nümayiş etdirir.

Dünyada kənd təsərrüfatına dövlət müdaxiləsi müəyyən dərəcədə yumşalsa da, sahənin strateji əhəmiyyəti və ərzaq təhlükəsizliyi riskləri səbəbindən tam liberal modelə keçid baş verməmişdir. Dünya praktikasında daha çox bazar mexanizmləri ilə dövlət tənzimlənməsinin birgə tətbiqinə əsaslanan qarışıq və qismən dirijist idarəetmə modeli üstünlüyünü saxlamaqdadır.

Aparılan təhlil göstərir ki, Azərbaycanda aqrar sahədə istehsal həcmi, əmək məhsuldarlığı və maliyyə göstəriciləri üzrə müsbət dəyişikliklər baş versə də, aşağı məhsuldarlıq, məşğulluqla yaradılan əlavə dəyər arasındakı uyğunsuzluq və investisiya fəallığının zəifliyi kimi struktur problemlər qalmaqdadır. ASLDİ ilə aqrar sahənin ayrı-ayrı göstəriciləri arasında müəyyən statistik əlaqələr müşahidə olunsa da, bunlar dövlət müdaxiləsinin birbaşa təsirini sübut etmir. Buna görə də aqrar tənzimləmənin səmərəliliyi müdaxilənin miqyası ilə deyil, tətbiq olunan mexanizmlərin nəticəliliyi ilə qiymətləndirilməlidir. Əsas prioritet dövlət dəstəyinin bazar mexanizmləri ilə uzlaşdırılması, məhsuldarlığın, rentabelliyin və investisiya səmərəliliyinin yüksəldilməsi olmalıdır.

Azərbaycanda aqrar sahəyə dövlət dəstəyi subsidiyalar, güzəştli kreditlər, büdcə ayırmaları, lizinq, vergi və gömrük güzəştləri vasitəsilə geniş şəkildə həyata keçirilir. Bununla belə, dəstəyin əsas hissəsinin dolayı fiskal güzəştlərdən ibarət olması və investisiyaların xüsusi çəkisinin azalması dövlət müdaxiləsinin strukturunun və nəticəliliyinin qiymətləndirilməsini zəruri edir. ASLDİ-nin 2024-cü ildə 0,293 təşkil etməsi aqrar siyasətdə liberal komponentlərin üstünlüyünü göstərsə də, geniş dövlət dəstəyi sahədə qarışıq tənzimləmə mexanizmlərinin mövcudluğunu təsdiqləyir. Beləliklə, aqrar siyasətin səmərəliliyi dəstəyin həcmi ilə deyil, onun məhsuldarlığın, rentabelliyin, investisiya fəallığının və ərzaq təhlükəsizliyinin yüksəldilməsinə verdiyi töhfə ilə müəyyən edilməlidir.

III FƏSİL. AZƏRBAYCANDA AQRAR SAHƏNİN DÖVLƏT DƏSTƏYİNİN İQTİSADİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

3.1. Ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətləri

Müasir şəraitdə əhalinin etibarlı ərzaq təminatının davamlı olaraq yaxşılaşdırılması yalnız aqrar sahənin deyil, bütövlükdə ölkə iqtisadiyyatının qarşısında duran əsas vəzifələrdən biridir. Ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsi isə birbaşa kənd təsərrüfatının inkişaf səviyyəsi ilə əlaqəlidir. Bu baxımdan aqrar sahəyə dövlət müdaxiləsinin əsas məqsədlərindən biri məhz ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Çünki kənd təsərrüfatı yalnız ərzaq məhsullarının istehsalını deyil, həm də cəmiyyətin sosial sabitliyini, istehlak bazarının davamlılığını, kənd əhalisinin məşğulluğunu və milli təhlükəsizliyin mühüm komponentlərindən biri olan ərzaq təminatını müəyyən edir. Digər tərəfdən, beynəlxalq təşkilatlar da insanların normal qidalanması və layiqli həyat şəraitinin təmin edilməsi ilə bağlı mühüm bəyannamələr və standartlar müəyyən etmişlər.

Ərzaq təhlükəsizliyi problemi ilk dəfə XX əsrin 70-ci illərində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı tərəfindən qlobal səviyyədə müzakirəyə çıxarılaraq beynəlxalq gündəliyin mühüm məsələlərindən birinə çevrilmişdir. Bu dövrdə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nəzdində daimi fəaliyyət göstərən Beynəlxalq Ərzaq Təhlükəsizliyi Komitəsi yaradılmış, nəticədə ərzaq təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi istiqamətində institusional əsaslar formalaşmışdır. Müasir dövrdə dünyanın əksər ölkələrində ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəlmiş milli proqramlar hazırlanır və məqsədyönlü şəkildə icra edilir. 1996-cı ildə təşkil edilmiş Ümumdünya Ərzaq Sammiti çərçivəsində dünya ölkələrinin ərzaq təhlükəsizliyinin təmin olunmasına dair ümumi mövqeyi ifadə edən "Dünya ərzaq təhlükəsizliyi haqqında" Bəyannamə qəbul edilmişdir. Həmin bəyannaməyə əsasən, dövlətlər aclıqla mübarizə, ərzaq məhsullarına çıxışın təmin edilməsi, qidanın bütün sosial qruplar üçün əlçatanlığı və ərzaq təchizatının dayanıqlığının gücləndirilməsi

istiqamətində öhdəliklər götürmüşlər. Bu isə göstərir ki, ərzaq təhlükəsizliyi təkcə kənd təsərrüfatı məsələsi deyil, eyni zamanda dövlət siyasətinin strateji hədəflərindən biridir.

Bu baxımdan, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatının davamlı inkişafının dəstəklənməsini, yerli ərzaq istehsalının stimullaşdırılmasını, məhsuldarlığın yüksəldilməsini, strateji ərzaq ehtiyatlarının formalaşdırılmasını, sanitariya və fitosanitar tələblərə əməl olunmasının təmin edilməsini, habelə ərzaq məhsullarının keyfiyyət və təhlükəsizliyinə nəzarətin gücləndirilməsini, logistika və saxlama infrastrukturunun inkişafını, əhalinin bütün sosial təbəqələri üçün iqtisadi əlçatanlığın qorunmasını, idxaldan asılılığın azaldılmasını və risklərin idarə olunması üçün dayanıqlı mexanizmlərin formalaşdırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsini zəruri edir. Beləliklə, aqrar sahəyə dövlət müdaxiləsi ilə ərzaq təhlükəsizliyi arasında qarşılıqlı əlaqə mövcuddur. Lakin bu əlaqənin gücü və əldə olunan nəticələrin səmərəliliyi dövlət müdaxiləsinin yalnız miqyasından deyil, eyni zamanda onun strukturundan, tətbiq olunan alətlərin məqsədyönlülüyündən və effektivliyindən asılıdır [81].

Ölkələr üçün ərzaq təhlükəsizliyinin nə qədər əhəmiyyətli olduğunu nəzərə alaraq, bu yarımbölmədə ərzaq təhlükəsizliyi indeksi göstəricilərini, dünya ölkələrinin reytinqdəki mövqeyini və aqrar sahədə liberallıq/dirijistlik indeksi göstəricilərinin ölkələrin ərzaq təhlükəsizliyi səviyyəsi iə əlaqəsini araşdırmaq məqsədəuyğun hesab edilmişdir. 2022-ci il üzrə Qlobal Ərzaq Təhlükəsizliyi İndeksini əks etdirən məlumatlar göstərir ki, ölkələr arasında ərzaq təminatı səviyyəsi əhəmiyyətli dərəcədə fərqlənir. Təhlil edilən ölkələr üzrə indeks göstəriciləri 57,9–80,5 intervalında dəyişir ki, bu da ərzaq təhlükəsizliyinin həm iqtisadi inkişaf, həm kənd təsərrüfatının səviyyəsi, həm də sosial və institusional amillərlə bağlı olduğunu təsdiqləyir. Ən yüksək göstəricilər əsasən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə müşahidə olunur. Norveç (80,5), Yaponiya (79,5), Kanada (79,1), Birləşmiş Krallıq (78,8), İsveçrə (78,2), ABŞ (78,0) və Yeni Zelandiya (77,8) kimi ölkələr ərzaq təhlükəsizliyi baxımından yüksək nəticələr göstərmişdir. Bu ölkələrin reytinqdə yüksək mövqedə qərarlaşması kənd təsərrüfatı texnologiyalarının inkişaf səviyyəsi, bazar institutlarının

sabitliyi, infrastrukturun inkişafı, gəlir səviyyəsi və əhalinin alıcılıq qabiliyyəti ilə sıx bağlıdır.

Kosta Rika (77,4), Avstraliya (75,4), İsrail (74,8), Çili (74,2) və Çin (74,2) də tədqiq olunan ölkələr arasında nisbətən yüksək nəticələrə malikdir. Beləliklə, ilk qrup ölkələrdə indeks göstəricisinin 74 baldan yüksək olması və onların əsasən qlobal reytinqin ilk 30-luğunda qərarlaşması diqqəti cəlb edir.

Reytinqin orta hissəsində isə Cənubi Koreya istisna olmaqla, əsasən, inkişaf etməkdə olan ölkələr qrupuna daxil olan dövlətlər yer alır. Bu qrupa Qazaxıstan (72,1), Cənubi Koreya (70,2), Rusiya (69,1), Meksika (69,1) və Vyetnam (67.9) daxildir. Həmin ölkələrdə ərzaq istehsalı və daxili bazar potensialı müəyyən səviyyədə olsa da, sosial bərabərsizlik, gəlir bölgüsü, istehlak əlçatanlığı, logistik imkanlar və bəzən idxaldan asılılıq kimi amillər ümumi indeks səviyyəsini aşağı salır. Ən aşağı göstəricilər isə Türkiyə (65,3), Braziliya (65,1), Argentina (64,8), Cənubi Afrika (61,7), İndoneziya (60,2), Kolumbiya (60,1), Filippin (59,3), Hindistan (58,9) və Ukraynada (57,9) müşahidə olunur. Bu ölkələrdə indeksin 60 bal ətrafında və ya daha aşağı olması onların qlobal ərzaq təhlükəsizliyi reytinqində daha aşağı mövqelərdə yerləşməsi ilə xarakterizə olunur. Bu ölkələrdə ərzaq təhlükəsizliyinin zəifliyi daha çox əhali sayının böyüklüyü, gəlir bərabərsizliyi, kənd təsərrüfatında məhsuldarlığın kifayət qədər yüksək olmaması və bazara çıxış imkanlarının tam səmərəli təşkil edilməməsi ilə əlaqələndirilə bilər.

Bu ümumi mənzərə fonunda aqrar sahədə liberallıq-dirijistlik səviyyəsi ilə ərzaq təhlükəsizliyi arasında qarşılıqlı əlaqəyə baxmaq məqsədəuyğundur. Birinci metodologiya üzrə hesablanmış ASLDİ göstəriciləri əsasında seçilmiş ölkələrdə ərzaq təhlükəsizliyi indeksi ilə aqrar sahədə dövlət müdaxiləsinin səviyyəsi aşağıdakı cədvəldə təqdim olunur.

Cədvəl 3.1.1.

Kənd təsərrüfatının liberallıq-dirijistlik indeksi göstəricilərinin ərzaq təhlükəsizliyi indeksinə təsiri (birinci metodologiya)

Ölkələr	Ərzaq təhlükəsizliyi indeksi (2022)	Ərzaq təhlükəsizliyi indeksinin ölkələrin reytinqdəki sıra yeri (2022)	Kənd təsərrüfatının liberallıq-dirijistlik indeksi göstəriciləri (2022)
Norveç	80.5	3	0.610
Yaponiya	79.5	6	0.628
Kanada	79.1	7	0.599
Birləşmiş Krallıq	78.8	9	0.590
İsveçrə	78.2	11	0.634
ABŞ	78	13	0.611
Yeni Zelandiya	77.8	14	0.590
Kosta Rika	77.4	18	0.592
Avstraliya	75.4	22	0.588
İsrail	74.8	24	0.596
Çili	74.2	25	0.593
Çin Xalq Respublikası	74.2	25	0.431
Qazaxıstan	72.1	32	0.480
Cənubi Koreya	70.2	39	0.664
Meksika	69.1	43	0.603
Rusiya	69.1	43	0.615
Vyetnam	67.9	46	0.593
Türkiyə	65.3	49	0.643
Braziliya	65.1	51	0.613
Argentina	64.8	54	0.617
Cənubi Afrika	61.7	59	0.736
İndoneziya	60.2	63	0.694
Kolumbiya	60.1	64	0.612
Filippin	59.3	67	0.608
Hindistan	58.9	68	0.618
Ukrayna	57.9	71	0.597

Mənbə: Economist Impact, Global Food Security Index 2022 [66] və müəllifin hesablamaları əsasında hazırlanmışdır.

Ərzaq təhlükəsizliyi göstəricisi yüksək olan Norveç (80,5), Yaponiya (79,5), Kanada (79,1), Birləşmiş Krallıq (78,8), İsveçrə (78,2) və ABŞ (78,0) kimi ölkələrdə aqrar tənzimləmə indeksinin 0,590–0,634 intervalında olması kənd təsərrüfatında dirijist yanaşmanın üstünlük təşkil etdiyini göstərir. Xüsusilə İsveçrədə 0,634, Yaponiyada 0,628 və ABŞ-da 0,611 səviyyələri dövlətin aqrar sektora müdaxilə və dəstək mexanizmlərinin əhəmiyyətini göstərir. Lakin buna baxmayaraq əks nümunələr də mövcuddur. Məsələn, ərzaq təhlükəsizliyi göstəricisi nisbətən aşağı olan ölkələrdə

də yüksək dirijistlik səviyyəsi müşahidə edilir. Məsələn, Cənubi Afrikada ərzaq təhlükəsizliyi indeksi 61,7 olduğu halda, liberallıq-dirijistlik indeksi 0,736, İndoneziyada isə müvafiq göstəricilər 60,2 və 0,694 təşkil edir. Bu fakt onu göstərir ki, aqrar sahəyə dövlət müdaxiləsinin səviyyəsi ərzaq təhlükəsizliyinin formalaşmasına təsir edən vacib amillərdən biri olsa da, yeganə və həlledici amil deyildir. Burada gəlir səviyyəsi, əhali sayı, alıcılıq qabiliyyəti, kənd təsərrüfatının məhsuldarlığı, logistika və infrastruktur, texnoloji səviyyə və dövlət siyasətinin icra keyfiyyəti də eyni dərəcədə mühüm rol oynayır. Buna görə də belə nəticəyə gəlmək olar ki, ərzaq təhlükəsizliyini təmin etmək üçün yalnız dirijist siyasətin mövcudluğu kifayət etmir, müdaxilənin keyfiyyəti və digər institusional-iqtisadi şərtlər də həlledicidir.

Cədvəldə diqqətçəkən göstəricilərdən biri də Çin və Qazaxıstana məxsudur. Belə ki, Çində liberallıq–dirijistlik indeksi 0,431, Qazaxıstanda isə 0,480 təşkil edir və hər iki göstərici 0,500 həddindən aşağıdır. Bu ölkələrdə digər ölkələrin əksəriyyətindən fərqli olaraq dirijist yanaşma deyil, qarışıq modelə daha yaxın tənzimləmə mövqeyi müşahidə olunur. Bununla belə, Çinin ərzaq təhlükəsizliyi indeksinin 74,2 və 26-cı yerdə olması göstərir ki, yüksək ərzaq təhlükəsizliyinin formalaşmasını yalnız aqrar tənzimləmənin dirijistlik səviyyəsi ilə izah etmək düzgün olmazdı.


Nəticə etibarilə, cədvəl göstərir ki, ərzaq təhlükəsizliyinin yüksək səviyyəsi ilə aqrar siyasətin daha liberal olması arasında zəruri əlaqə yoxdur. Əksinə, ərzaq təhlükəsizliyi yüksək olan bir sıra ölkələrdə dövlətin kənd təsərrüfatına müdaxiləsi, istehsalçıların dəstəklənməsi və daxili bazarın qorunmasına yönəlmiş mexanizmlər mühüm yer tutur. Bu baxımdan, ərzaq təhlükəsizliyinin təmin edilməsində bazar mexanizmləri ilə dövlət tənzimlənməsinin qarşılıqlı tamamlanması, xüsusilə strateji kənd təsərrüfatı məhsullarının istehsalının və daxili bazarın qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

Dövlət müdaxiləsinin nəticəsi isə tətbiq edilən siyasətin keyfiyyətindən, dəstəyin istiqamətindən, resursların bölüşdürülməsinin səmərəliliyindən, kənd təsərrüfatının məhsuldarlığından, infrastrukturun inkişafından və əhalinin ərzağa iqtisadi çıxış imkanlarından asılıdır. Başqa sözlə, dirijist tənzimləmənin yüksək olması ilə yüksək ərzaq təhlükəsizliyi arasında avtomatik və birbaşa əlaqənin mövcudluğu

gözlənilməməlidir. Bu fərqlər göstərir ki, ərzaq təhlükəsizliyinin səviyyəsini yalnız aqrar siyasətin liberallıq və ya dirijistlik istiqaməti ilə izah etmək mümkün deyildir. Ölkələrin iqtisadi inkişaf səviyyəsi, əhalinin gəlirləri, ərzağın fiziki və iqtisadi əlçatanlığı, kənd təsərrüfatının məhsuldarlığı, idxaldan asılılıq, logistika və infrastruktur, iqlim və təbii resurslar, habelə dövlət institutlarının səmərəliliyi kimi amillər də nəticənin formalaşmasında mühüm rol oynayır.

KTDDLDİ göstəricilərinin əksəriyyətinin 0,500-dən yüksək olması seçilmiş ölkələrdə kənd təsərrüfatının tam liberal bazar prinsipləri əsasında deyil, dövlətin müxtəlif formalarda tənzimləyici və dəstəkləyici rolunu saxladığı bir şəraitdə fəaliyyət göstərdiyini göstərir. Bu baxımdan, ərzaq təhlükəsizliyinin təmin edilməsində dövlət müdaxiləsinin əsas məsələsi onun mövcudluğu deyil, müdaxilənin hansı alətlərlə, hansı sahələrə və hansı məqsədlərlə yönəldilməsidir. Xüsusilə strateji ərzaq məhsullarının istehsalının dəstəklənməsi, istehsalçı gəlirlərinin sabitləşdirilməsi, aqrar risklərin sığortalanması, infrastrukturun inkişaf etdirilməsi və böhran dövrlərində daxili bazarın qorunması kimi tədbirlər bazar mexanizmlərini tamamlayan dövlət tənzimlənməsi kimi çıxış edə bilər.

Qrafik 3.1.1-in təhlili göstərir ki, ümumilikdə ərzaq təhlükəsizliyi indeksi ilə KTDDLD İndeksi arasında tam xətti və birmənalı əlaqə mövcud deyildir.



Qrafik 3.1.1. KTDDLDİ ilə Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi arasında əlaqə (birinci metodologiya)

Qeyd. Qrafik müəllif hesablamaları əsasında tərtib edilmişdir.

Qrafik üzrə aparılmış təhlil əsasında kənd təsərrüfatına dövlət dəstəyinin liberallıq-dirijistlik indeksi ilə ərzaq təhlükəsizliyi arasında zəif mənfi istiqamətli əlaqənin mövcudluğu öz əksini tapır. Trend xəttinin aşağı istiqamətli olması onu göstərir ki, KTDDLDİ artdıqca ərzaq təhlükəsizliyi indeksi müəyyən qədər azalmaya meyllidir. Lakin əldə olunan nəticənin $R^2 = 0,102$ olması bu əlaqənin zəif olduğunu və ərzaq təhlükəsizliyi indeksindəki dəyişmələrin yalnız 10,2%-nin KTDDLDİ-nə təsir etdiyi göstərir. Apardığımız araşdırmaya əsasən qeyd edə bilərik ki, ərzaq təhlükəsizliyinin formalaşmasında dövlət müdaxiləsinin səviyyəsi ilə yanaşı məhsuldarlıq, texnoloji təminat, emal imkanları, logistika və infrastruktur, əhalinin iqtisadi əlçatanlığı, xarici ticarət və institusional səmərəlilik kimi digər amillər də mühüm rol oynayır. Buna görə də qrafikdən dövlət müdaxiləsinin artmasının ərzaq təhlükəsizliyini azaltdığı barədə birbaşa səbəb-nəticə əlaqəsi çıxarmaq olmaz, daha düzgün yanaşma dövlət dəstəyinin nəticələrinin onun səviyyəsindən daha çox məqsədyönlülüyü, səmərəliliyi və konkret ölkənin institusional-iqtisadi şəraitinə uyğunluğu ilə əlaqələndirilməsidir.

Cədvəl 3.1.2-nin təhlili də göstərir ki, ərzaq təhlükəsizliyi ilə aqrar sahədə dövlət müdaxiləsinin səviyyəsi arasında sadə və birxətli asılılıq yoxdur. Ərzaq təhlükəsizliyi göstəriciləri ilə aqrar sektorun liberal–dirijist tənzimlənmə indeksləri birlikdə təhlil edildikdə, görünür ki, ölkələr ərzaq təhlükəsizliyinə nail olmaq üçün fərqli tənzimləmə yanaşmalarından istifadə etmişdir. Ərzaq təhlükəsizliyi yüksək olan ölkələrdə eyni modelin tətbiq olunmaması göstərir ki, ərzaq təhlükəsizliyinin səviyyəsini yalnız aqrar siyasətin liberallığı və ya dirijistliyi ilə izah etmək mümkün deyil. Belə ki, ən yüksək ərzaq təhlükəsizliyi göstəricilərinə malik Finlandiya (83,7 bal), İrlandiya (81,7), Fransa (80,2) və Niderland Krallığında (80,1) liberal yanaşma daha çox üstünlük təşkil edir. Lakin Norveç (80,5), Yaponiya (79,5) və xüsusilə İsveçrə (78,2) kimi yüksək ərzaq təhlükəsizliyinə malik ölkələrdə isə indeksin 0,500-dən yüksək olması daha güclü dövlət müdaxiləsinin mövcudluğunu göstərir. Bu isə yüksək ərzaq təhlükəsizliyinin həm bazar mexanizmləri, həm də dövlət tənzimləməsi əsasında formalaşa biləcəyini göstərir.

Cədvəl 3.1.2.

Aqrar sahədə liberallıq/dirijistlik indeksi göstəricilərinin ərzaq təhlükəsizliyi indeksinə təsiri (ikinci metodologiya)

Ölkələr	Ərzaq təhlükəsizliyi indeksi (2022)	Ölkələrin ərzaq təhlükəsizliyi indeksinin reytinqdəki sıra yeri (2022)	Aqrar sahədə liberallıq/dirijistlik indeksi göstəriciləri (2022)
1	**2**	**3**	**4**
Almaniya	77	19	0,211
Argentina	64,8	55	0,421
Avstraliya	75,4	22	0,319
Avstriya	78,1	12	0,325
Azərbaycan	59,8	66	0,295
Banqladeş	54	80	0,374
Bəhreyn	70,3	39	0,509
Belçika	77,5	17	0,305
Benin	48,1	90	0,227
Bolqarıstan	73	29	0,405
Botsvana	51,1	86	0,491
Braziliya	65,1	52	0,326
Burkina-Faso	49,6	88	0,308
Burundi	40,6	105	0,347
Çad	43,2	100	0,538
Cənubi Afrika	61,7	59	0,437
Çexiya	77,7	16	0,301
Çili	74,2	25	0,348
Çin	74,2	26	0,400
Danimarka	77,8	14	0,326
Dominikan Respublikası	65	54	0,292
Ekvador	65,6	49	0,319
Əlcəzair	58,9	68	0,513

Filippin	59,3	67	0,325
Finlandiya	83,7	1	0,376
Fransa	80,2	4	0,224
Haiti	38,5	109	0,338
Hindistan	58,9	69	0,622
Honduras	61,5	60	0,382
İndoneziya	60,2	63	0,305
İordaniya	66,2	48	0,320
İrlandiya	81,7	2	0,299
İspaniya	75,7	20	0,327
İsrail	74,8	24	0,213
İsveç	79,1	7	0,318
İsveçrə	78,2	11	0,248
İtaliya	74	27	0,216
Kamboca	55,7	78	0,289
Kanada	79,1	7	0,340
Keniya	53	82	0,422
Kolumbiya	60,1	64	0,344
Konqo Demok. Res.	43	101	0,221
Kosta-Rika	77,4	18	0,336
Kot-d'İvuar	46,5	94	0,443
Macarıstan	71,4	34	0,335
Madaqaskar	40,6	106	0,203
Malayziya	69,9	42	0,343

Cədvəl 3.1.2.-nin ardı

1	**2**	**3**	**4**
Meksika	69,1	44	0,283
Misir	56	77	0,455
Mozambik	47,3	93	0,426
Myanma	57,6	72	0,534

Nepal	56,9	74	0,287
Niderland Krallığı	80,1	5	0,320
Nigeriya	42	104	0,337
Nikaraqua	56,6	76	0,334
Norveç	80,5	3	0,143
Pakistan	52,2	84	0,289
Panama	70	41	0,278
Paraqvay	58,6	70	0,344
Peru	70,8	38	0,324
Polşa	75,5	21	0,335
Portuqaliya	78,7	10	0,328
Qana	52,6	83	0,114
Qazaxıstan	72,1	32	0,449
Qvatemala	62,8	58	0,342
Qvineya	45,1	97	0,431
Ruanda	50,6	87	0,407
Rumıniya	68,8	46	0,360
Rusiya Federasiyası	69,1	45	0,352
Serbiya	61,4	61	0,333
Slovakiya	71,1	37	0,338
Şri-Lanka	55,2	79	0,506
Suriya ƏR	36,3	110	0,420
Syerra-Leone	40,5	107	0,416
Tacikistan	56,7	75	0,312
Tailand	60,1	65	0,343
Tanzaniya	49,1	89	0,621
Toqo	46,2	96	0,366
Tunis	60,3	62	0,315
Türkiyə	65,3	50	0,398
Ukrayna	57,9	71	0,312

Uqanda	47,7	92	0,285
Uruqvay	71,8	33	0,326
Venesuela	42,6	103	0,412
Vyetnam	67,9	47	0,527
Yaponiya	79,5	6	0,220
Yəmən	40,1	108	0,320
Yeni Zelandiya	77,8	15	0,407
Yunanıstan	72,2	31	0,241
Zambiya	43,5	99	0,452

Mənbə: Economist Impact, Global Food Security Index 2022 [66] və müəllifin hesablamaları əsasında hazırlanmışdır.


Digər tərəfdən, indeks üzrə daha dirijist mövqedə olan bəzi ölkələrdə ərzaq təhlükəsizliyi göstəricisinin yüksək olmaması da diqqəti çəkir. Məsələn, Nepal (56,9; 0,687) və Banqladeş (54,0; 0,674) kimi ölkələrdə dövlət müdaxiləsi nisbətən güclü olsa da, ərzaq təhlükəsizliyi indeksi göstəriciləri inkişaf etmiş ölkələrlə müqayisədə aşağıdır. Bu hal onu göstərir ki, dirijist müdaxilənin mövcudluğu öz-özlüyündə yüksək ərzaq təhlükəsizliyinə zəmanət vermir, müdaxilənin səmərəliliyi, iqtisadi imkanlar, istehsal potensialı və institusional mexanizmlər də mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın 59,8 bal ilə 66-cı yerdə qərarlaşması və 0,295 indeks göstəricisinə malik olması ölkənin liberal mövqedə olduğunu göstərir. Bu vəziyyətdə bazar mexanizmlərinin fəaliyyətinin qorunması ilə yanaşı, dövlətin ərzaq təhlükəsizliyinə təsir edən strateji sahələrdə müdaxilə etdiyini göstərir. Bu, kənd təsərrüfatı istehsalının stimullaşdırılması, fermerlərin gəlirlərinin və istehsal risklərinin qorunması, daxili ərzaq bazarının sabitliyinin təmin edilməsi və strateji məhsullar üzrə özünütəminetmə səviyyəsinin yüksəldilməsi baxımdan əhəmiyyətlidir.

Apardığımız araşdırmadan belə bir nəticəyə gələ bilərik ki, ərzaq təhlükəsizliyi baxımından daha səmərəli yanaşma liberal və dirijist mexanizmlərdən birinin tam üstünlüyündən deyil, bazar mexanizmləri ilə məqsədyönlü dövlət müdaxiləsinin səmərəli şəkildə uzlaşdırılmasından ibarətdir. Deməli, əsas məsələ müdaxilənin sadəcə

həcmi deyil, onun məhsuldarlığa, logistika sisteminə, istehlak əlçatanlığına, texnologiyaya və strateji məhsullar üzrə dayanıqlılığa nə dərəcədə təsir göstərməsidir.

Qeyd edək ki, həm KTDTLDİ üzrə alınmış nəticələri, həm də daha geniş ölkəni əhatə edən ASLDİ-nin nəticələrinın QƏT İndeksi ilə asılılığında nəticələri oxşar mənzərə müşahidə olunur. Təqdim olunan qrafikdə aqrar sahədə liberallıq/dirijistlik indeksi ilə qlobal ərzaq təhlükəsizliyi indeksi arasında əlaqə göstərilmişdir. Qrafikdə determinasiya əmsalının $R^2 = 0.0721$ kimi sıfıra çox yaxın dəyər alması bu iki göstərici arasında heç bir xətti əlaqənin olmadığını göstərir.



Qrafik 3.1.2. Aqrar sahədə liberallıq/dirijistlik indeksi ilə qlobal ərzaq təhlükəsizliyi indeksi arasında əlaqə (ikinci metodologiya)
Qeyd. Cədvəl müəllif hesablamaları əsasında tərtib edilmişdir.

Lakin Azərbaycanda bu əlaqə yüksəkdir. Azərbaycan üzrə hesablanmış ASLDİ və Azərbaycanın QƏTİ göstəricisi arasında güclü müsbət əlaqənin olduğunu göstərir (R^2=0,6485 və r=0,805). Yəni Azərbaycanda dövlət müdaxiləsinin artması ərzaq təhlükəsizliyinin təmin olunmasına müsbət təsir göstərir. Müşahidə illərinin sayının az olması bu nəticəyə təsir göstərə bilər. Lakin Azərbaycanda bu əlaqə yüksəkdir. Azərbaycan üzrə hesablanmış ASLDİ və Azərbaycanın QƏTİ göstəricisi arasında güclü müsbət əlaqənin olduğunu göstərir (R^2=0,6485 və r=0,805). Yəni Azərbaycanda dövlət müdaxiləsinin artması ərzaq təhlükəsizliyinin təmin olunmasına müsbət təsir göstərir. Müşahidə illərinin sayının az olması bu nəticəyə təsir göstərə bilər.

Qeyd etmək lazımdır ki, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm strateji sənədlər qəbul edilmişdir. Belə ki, 2001-ci ildə "*Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı*", daha sonra isə 2008-ci ildə "2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" qəbul edilərək icra olunmuşdur. Həmin sənədlər ölkədə ərzaq təhlükəsizliyi sahəsində əsas prioritetləri, hədəfləri və fəaliyyət istiqamətlərini müəyyən etmiş, bu sahədə kompleks tədbirlərin həyata keçirilməsinə təkan vermişdir. Bununla yanaşı, ərzaq təhlükəsizliyinin real təminatı üçün təkcə hüquqi sənədlərin qəbulu deyil, aqrar istehsal potensialının, resurs bazasının və istehlak səviyyəsinin təhlili də zəruridir.

Bu baxımdan Azərbaycanda ərzaq təhlükəsizliyinin real vəziyyətini qiymətləndirmək üçün əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsinin təhlili xüsusi əhəmiyyət kəsb edir. Çünki ölkənin müəyyən məhsullar üzrə daxili tələbatı hansı dərəcədə yerli istehsal hesabına ödəyə bilməsi ərzaq təhlükəsizliyinin mühüm indikatorlarından biridir. Özünütəminetmə səviyyəsi nə qədər yüksək olarsa, ölkənin xarici bazarlardan, idxal qiymət dəyişmələrindən və qlobal təchizat zəncirində baş verən pozuntulardan asılılığı bir o qədər azalır. Əksinə, aşağı özünütəminetmə səviyyəsi strateji məhsullar üzrə xarici təchizat risklərinin və ərzaq təhlükəsizliyi ilə bağlı həssaslığın yüksək olduğunu göstərir.

İlk növbədə bitkiçilik məhsulları üzrə özünütəminetmə səviyyəsinə baxmaq məqsədəuyğundur.

Cədvəl 3.1.3.

Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz

Məhsullar	**2010**	**2015**	**2020**	**2021**	**2022**	**2023**	**2024**	**2010–2024-cü illərdə artma-azalma, faiz bəndi**	**2020–2024-cü illərdə artma-azalma, faiz bəndi**
Dənlilərin (çəltik istisna olmaqla) cəmi	56,5	64,5	68,1	73,7	69,0	70,5	68.4	↑ 11,9	↑ 0,3
Buğda	48,9	54,8	57,1	61,5	56,7	60,4	56.1	↑ 7,2	↓ 1,0
Arpa	87,7	95,1	94,6	101,9	101,2	95,8	94.6	↑ 6,9	→ 0,0
Qarğıdalı	64,5	54,1	86,6	93,6	78,0	79,7	77.4	↑ 12,9	↓ 9,2
vələmir	80,6	93,1	86,6	88,5	87,2	81,6	77.5	↓ 3,1	↓ 9,1

sair növ dənlilər	1,0	6,3	93,9	26,7	21,7	42,5	47.9	↑ 46,9	↓ 46,0
Paxlalılar	65,8	69,3	60,3	56,4	61,5	62,8	65.1	↓ 0,7	↑ 4,8
Kartof	100,5	89,1	90,6	88,8	89,0	89,8	88.8	↓ 11,7	↓ 1,8
Bütün növ tərəvəz	97,6	103,4	110,4	106,6	106,8	107,2	105.8	↑ 8,2	↓ 4,6
Pomidor	106,0	113,7	131,0	121,1	119,8	118,9	119.7	↑ 13,7	↓ 11,3
Bostan məhsulları	100,0	100,0	100,8	102,6	103,2	103,2	101.7	↑ 1,7	↑ 0,9
Meyvə və giləmeyvə	107,9	113,7	116,3	122,9	123,9	135,5	128.5	↑ 20,6	↑ 12,2
Qoz və fındıq	121,6	132,5	138,0	136,5	137,0	139,7	126.1	↑ 4,5	↓ 11,9
Nar	…	103,7	112,0	127,8	125,9	132,8	135.1	—	↑ 23,1
Üzüm	90,4	93,1	95,8	94,4	94,8	93,9	89.4	↓ 1,0	↓ 6,4

Mənbə: Dövlət Statistika Komitəsi. Kənd təsərrüfatı statistikası [23].

Cədvəl 3.1.3-ün təhlili göstərir ki, bitkiçilik məhsulları üzrə özünütəminetmə səviyyəsi məhsul qrupları arasında əhəmiyyətli dərəcədə fərqlənir. Ən mühüm nəticələrdən biri ondan ibarətdir ki, strateji məhsul hesab edilən buğda üzrə özünütəminetmə səviyyəsi 2010-cu ildəki 48,9%-dən 2024-cü ildə 56,1%-ə yüksəlsə də, hələ də tam özünütəminetmə səviyyəsinə çatmamışdır. Bu, ölkənin ərzaq təhlükəsizliyi baxımından ən həssas istiqamətlərindən birinin məhz taxıl və xüsusilə buğda ilə bağlı olduğunu göstərir. Dənlilərin ümumi qrupunda da 2010-2024-cü illərdə 11,9 faiz bəndi artım müşahidə edilsə də, 2024-cü ildə ümumi göstəricinin 68,4% olması bu istiqamətdə hələ də idxal asılılığının qalmaqda davam etdiyini göstərir.

Digər tərəfdən, tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvə, qoz-fındıq və nar üzrə göstəricilər Azərbaycanın bu məhsul qruplarında yalnız daxili tələbatı ödəmək deyil, bəzi hallarda ixrac potensialına da malik olduğunu göstərir. Məsələn, 2024-cü ildə bütün növ tərəvəz üzrə özünütəminetmə səviyyəsi 105,8%, pomidor üzrə 119,7%, meyvə və giləmeyvə üzrə 128,5%, qoz və fındıq üzrə 126,1%, nar üzrə isə 135,1% olmuşdur. Bu məhsullar üzrə 100 faizi aşan göstəricilər ölkənin müqayisəli üstünlüklərə malik olduğunu göstərir. Xüsusilə nar, meyvə-giləmeyvə və qoz və fındıq üzrə 2020-2024-cü illərdə artımın müvafiq olaraq 23,1, 12,2 və 11,9 faiz bəndi təşkil etməsi həmin istiqamətlərdə istehsal potensialının genişləndiyini göstərir.

Bununla yanaşı, bəzi məhsullar üzrə vəziyyət sabit və ya geriləyən xarakter daşıyır. Kartof üzrə özünütəminetmə səviyyəsi 2010-cu ildə 100,5% olduğu halda, 2024-cü ildə 88,8 %-ə enmişdir. Qarğıdalı, vələmir və digər bəzi dənli məhsullar üzrə son illərdə azalma meylləri də müşahidə olunur. Bu isə göstərir ki, bitkiçilik üzrə

ümumi müsbət dinamika olsa da, məhsul qrupları üzrə dayanıqlılıq eyni səviyyədə deyil. Deməli, ərzaq təhlükəsizliyinin təmin olunması baxımından təkcə ümumi artım meylinə deyil, konkret strateji məhsullar üzrə dayanıqlı özünütəminetmə səviyyəsinə diqqət yetirilməlidir.

Bitkiçilik məhsulları ilə yanaşı, heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsinin təhlili də mühüm əhəmiyyət kəsb edir.

Cədvəl 3.1.4.

Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz

Məhsullar	2010	2015	2020	2021	2022	2023	2024	2010–2024-cü illərdə artma-azalma, faiz bəndi	2020–2024-cü illərdə artma-azalma, faiz bəndi
Bütün növ ət və ət məhsulları	87.7	94.7	84,5	86.4	86.0	85.3	83.4	↓ 4,3	↓ 1,1
mal əti və ət məhsulları	95.5	91.8	87,4	91.9	93.0	88.4	88.5	↓ 7,0	↑ 1,1
qoyun və keçi əti və ət məhsulları	99.7	99.3	97,3	98.2	97.0	94.9	96.5	↓ 3,2	↓ 0,8
donuz əti və ət məhsulları	19.7	17.8	4,7	4.8	4.6	4.7	4.6	↓ 15,1	↓ 0,1
quş əti və ət məhsulları	70.6	98.6	79,0	79.6	78.5	81.7	76.6	↑ 6,0	↓ 2,4
Süd və süd məhsulları	70.4	84.3	83,5	84.8	83.3	84.0	83.9	↑ 13,5	↑ 0,4
Yumurta	97.9	99.7	100,0	99.1	100.5	102.2	103.7	↑ 5,8	↑ 3,7
Balıq və balıq məhsulları	76.6	77.6	81,7	78.2	76.7	75.4	77.3	↑ 0,7	↓ 4,4

Mənbə: Dövlət Statistika Komitəsi. Kənd təsərrüfatı statistikası [23].

Cədvəl 3.1.4 göstərir ki, heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsi bitkiçiliklə müqayisədə daha qarışıq mənzərə yaradır. Müsbət cəhət ondan ibarətdir ki, yumurta üzrə ölkə faktiki olaraq tam özünütəminetmə səviyyəsinə çatmış və 2024-cü ildə bu göstərici 103,7%-ə yüksəlmişdir. Quş əti üzrə də 2010-cu illə müqayisədə 6% faiz bəndi artım qeydə alınmış və 2024-cü ildə göstərici 76,6%-ə çatmışdır. Süd və süd məhsulları üzrə də 2010–2024-cü illərdə 13,5 faiz bəndi artım olmuş, göstərici 83,9 %-ə yüksəlmişdir. Bu nəticələr göstərir ki, heyvandarlığın bəzi istiqamətlərində dövlət dəstəyi və istehsal genişlənməsi müəyyən müsbət nəticələr vermişdir.

Lakin burada da həssas sahələr qalır. Bütün növ ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 2024-cü ildə 83,4%, mal əti üzrə 88,5%, qoyun və keçi əti

üzrə 96,5% təşkil etmişdir. Bu göstəricilər nisbətən yüksək olsa da, tam özünütəminetməni ifadə etmir. Xüsusilə balıq və balıq məhsulları üzrə 2020–2024-cü illərdə 4,4 faiz bəndi azalma, 2024-cü ildə göstəricinin 77,3%-ə enməsi həmin məhsul qrupunda müəyyən geriləmə meylinin olduğunu göstərir. Donuz əti üzrə çox aşağı göstəricilər isə ölkənin istehlak strukturu və istehsal ənənələri baxımından spesifik xarakter daşıyır və ümumi ərzaq təhlükəsizliyi baxımından digər məhsullar qədər strateji əhəmiyyət daşımır.

Buradan belə nəticə çıxır ki, heyvandarlıq məhsulları üzrə ərzaq təhlükəsizliyi baxımından ən müsbət nəticə yumurta və qismən quşçuluq sahəsindədir. Süd, ət və balıq məhsulları üzrə isə müsbət meyllərə baxmayaraq, hələ də dayanıqlı və tam özünütəminetmə təmin olunmamışdır. Bu səbəbdən dövlət dəstəyi mexanizmləri həmin məhsul qrupları üzrə daha ünvanlı və nəticəyönümlü şəkildə təkmilləşdirilməlidir.

Ərzaq təhlükəsizliyi baxımından sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsinin təhlili də mühüm əhəmiyyət kəsb edir. Çünki müasir dövrdə əhalinin ərzaq təminatı təkcə ilkin kənd təsərrüfatı məhsulları ilə deyil, həm də emal sənayesinin istehsal etdiyi geniş çeşidli qida məhsulları ilə müəyyən olunur.

Cədvəl 3.1.5.

Sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz

Məhsullar	2010	2015	2020	2021	2022	2023	2024	2010–2024-cü illərdə artma-azalma, faiz bəndi	2020–2024-cü illərdə artma-azalma, faiz bəndi
Təmizlənmiş düyü	13.0	9.6	14,2	17.7	17.6	20.4	22.3	↑ 9,3	↑ 8,1
Un (bütün növləri)	95.1	95.1	95,4	95.0	93.3	90.4	93.7	↓ 1,4	↓ 1,7
Yarmalar (bütün növləri)	11.3	17.9	34,4	45.1	5.4	44.4	29.3	↑ 18,0	↓ 5,1
Tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzə çörək	99.99	99.99	99,98	99.98	99.98	99.97	99.97	↓ 0,02	↓ 0,01
Tortlar və sirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış	70.6	66.6	76,8	77.1	75.5	76.2	72.4	↑ 1,8	↓ 4,4

sair çörək-bulka məmulatları									
Suxarı və peçenye , uzun müddət saxlanan qənnadı məmulatları	21.2	33.8	39,4	39.2	40.2	47.7	47.9	↑ 26,7	↑ 8,5
Kakao şokolad və şəkərli qənnadı məmulatları	22.8	17.8	30,7	34.2	30.6	27.2	35.6	↑ 12,8	↑ 4,9
Makaron məmulatları	72.7	53.2	42,3	47.2	64.3	73.2	71.1	↓ 1,6	↑ 28,8
Bitki yağları	74.3	60.5	34,8	73.2	66.7	54.9	55.6	↓ 18,7	↑ 20,8
Marqarin	108.2	292.2	98,6	99.6	99.3	99.2	97.7	↓ 10,5	↓ 0,9
Meyvə və tərəvəz şirələri	140.3	114.1	130,5	128.0	118.6	138.6	131.4	↓ 8,9	↑ 0,9
Meyvə və tərəvəz konservləri	91.8	87.6	90,9	90.1	88.9	88.8	86.7	↓ 5,1	↓ 4,2
Yağlılığı 1-6 faiz olan süd və qaymaq	98.4	99.0	99,1	99.0	99.2	99.7	99.3	↑ 0,9	↑ 0,2
Yağlılığı 6 faizdən çox olan süd və qaymaq	87.7	96.8	91,8	90.6	82.9	72.9	78.9	↓ 8,8	↓ 12,9
Kərə yağı	50.0	69.2	62,7	66.7	62.0	64.7	69.8	↑ 19,8	↑ 7,1
Bütün növ pendirlər	85.7	84.2	88,1	86.3	87.9	86.4	85.0	↓ 0,7	↓ 3,1
Qatıq, qaymaq, yoqurt və s. məhsullar	93.7	94.1	94,5	93.1	93.4	94.3	93.4	↓ 0,3	↓ 1,1
Şəkər istehsalı üçün xammal	2.4	5.6	14,6	5.5	39.5	43.2	46.2	↑ 43,8	↑ 31,6
Şəkər	155.6	192.9	69,4	100.7	103.9	84.4	93.0	↓ 62,6	↑ 23,6
Çay	63.2	40.2	45,5	89.5	91.1	89.5	87.1	↑ 23,9	↑ 41,6
İnsan qidası üçün yararlı duz	26.4	76.9	111,4	104.8	117.2	101.6	121.2	↑ 94,8	↑ 9,8
Şirinləşdirilməmiş mineral və qazlı sular	89.3	95.4	95,9	97.2	94.8	96.6	97.2	↑ 7,9	↑ 1,3
Şirinləşdirilmiş mineral və qazlı sular	90.8	86.1	90,6	92.0	97.9	102.1	100.6	↑ 9,8	↑ 10,0

Mənbə: Dövlət Statistika Komitəsi. Kənd təsərrüfatı statistikası [23].

Cədvəl 3.1.5 göstərir ki, sənaye emalından keçmiş ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi daha fərqli və qeyri-bərabər xarakter daşıyır. Bir sıra məhsullar üzrə ölkə yüksək və ya tam özünütəminetmə səviyyəsinə malikdir. Məsələn, təzə çörək, marqarin, meyvə-tərəvəz şirələri, bəzi süd məhsulları, yararlı duz və qazlı sular üzrə göstəricilər çox yüksəkdir və bəzi hallarda 100%-i də keçir. Bu, həmin

məhsullar üzrə emal sənayesinin daxili bazarın tələbatını əsasən ödəyə bildiyini göstərir.

Lakin digər məhsul qruplarında vəziyyət daha zəifdir. Təmizlənmiş düyü üzrə 2024-cü ildə özünütəminetmə səviyyəsi cəmi 22,3%, şəkər istehsalı üçün xammal üzrə 46,2% olmuşdur. Bitki yağları üzrə göstərici 2010-cu ildəki 74,3%-dən 2024-cü ildə 55,6%-ə düşmüşdür. Yağlılığı 6%-dən çox olan süd və qaymaq üzrə də son illərdə ciddi azalma baş vermiş, göstərici 2020-ci ildə 91,8% olduğu halda, 2024-cü ildə 78.9%-ə enmişdir. Bu faktlar göstərir ki, emal sənayesi ilə bağlı ərzaq təhlükəsizliyi yalnız xammal istehsalından deyil, həm də emal bazasının, texnologiyanın, xammal təminatının və idxaldan asılılıq səviyyəsindən birbaşa asılıdır.

Diqqət çəkən başqa bir nəticə ondan ibarətdir ki, bəzi məhsullar üzrə uzunmüddətli dövrdə artım müşahidə olunsa da, son üç ildə geriləmə baş vermişdir. Məsələn, un (bütün növləri), meyvə-tərəvəz konservləri, yağlılığı 6 %-dən çox olan süd və qaymaq məhsulları üzrə 2020–2024-cü illərdə azalma qeydə alınmışdır. Əksinə, təmizlənmiş düyü, suxarı və peçenye, uzun müddət saxlanan qənnadı məmulatları makaron məmulatları, şəkər istehsalı üçün xammal, çay və şirinləşdirilmiş mineral sular üzrə son illərdə müsbət dinamika vardır. Bu, sənaye emalından keçmiş ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsinin dayanıqlılığının bütün məhsullar üzrə eyni olmadığını göstərir.

Bu cədvəllərin ümumi təhlili göstərir ki, Azərbaycanda ərzaq təhlükəsizliyi baxımından ən həssas sahələr əsasən buğda, bəzi dənli məhsullar, bitki yağları, balıq məhsulları, təmizlənmiş düyü, şəkər xammalı və bəzi yüksək emal dərəcəli süd məhsulları ilə bağlıdır. Əksinə, tərəvəz, meyvə, bostan məhsulları, qoz-fındıq, nar, yumurta, bəzi süd məhsulları və bir sıra içki-emal məhsulları üzrə ölkənin daha dayanıqlı mövqeyi vardır. Bu isə onu göstərir ki, dövlət tənzimlənməsi və dəstək siyasəti məhsul qrupları üzrə diferensiallaşdırılmalı, strateji həssas sahələrdə özünütəminetməni artırmağa, müqayisəli üstünlüyə malik sahələrdə isə ixrac və yüksək əlavə dəyər yaratmağa yönəlməlidir.

Beləliklə, ASLDİ ilə Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi arasındakı əlaqənin təhlili və Azərbaycanın özünütəminetmə göstəricilərinin qiymətləndirilməsi əsasında

belə nəticəyə gəlmək olar ki, aqrar sahəyə dövlət müdaxiləsinin əsas məqsədlərindən biri ərzaq təhlükəsizliyinin təmin olunması olsa da, ərzaq təhlükəsizliyinin səviyyəsi təkcə müdaxilənin həcmi ilə müəyyən olunmur. Burada müdaxilənin məhsul qrupları üzrə düzgün istiqamətləndirilməsi, məhsuldarlığın artırılması, emal sənayesinin inkişafı, logistika və saxlama imkanlarının genişləndirilməsi, strateji məhsullar üzrə daxili istehsalın dayanıqlı səviyyəyə çatdırılması və dövlət dəstəyinin nəticəyönümlü təşkili həlledici əhəmiyyət daşıyır. Məhz bu istiqamətlərdə həyata keçiriləcək tədbirlər ölkədə tənzimləmə ilə ərzaq təhlükəsizliyi arasındakı əlaqənin daha səmərəli şəkildə gücləndirilməsinə xidmət edə bilər.

3.2. Aqrar sahədə dövlət dəstəyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi yolları

Bildiyimiz kimi, aqrar sahəyə dövlət dəstəyi kənd təsərrüfatının davamlı inkişafının təmin olunması, istehsalın stimullaşdırılması, fermerlərin iqtisadi imkanlarının genişləndirilməsi və ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə həyata keçirilir. Bu dəstək mexanizmləri əsasən birbaşa və dolayı formalarda təzahür edir. Birbaşa dəstək mexanizmlərinə dövlət tərəfindən fermerlərə və kənd təsərrüfatı istehsalçılarına təqdim edilən subsidiyalar, maliyyə yardımları və digər birbaşa ödənişlər aid edilir. Dolayı dəstək mexanizmləri isə əsasən vergi güzəştləri, fiskal stimullar və digər iqtisadi təşviq vasitələri ilə həyata keçirilir. Həmin tədbirlər kənd təsərrüfatı istehsalçıları üçün daha əlverişli iqtisadi mühit formalaşdırmaqla onların fəaliyyətinin genişlənməsinə, istehsal xərclərinin azalmasına və rəqabət qabiliyyətinin artmasına şərait yaradır. Azərbaycanda aqrar sahənin inkişafını stimullaşdırmaq məqsədilə tətbiq olunan vergi güzəştləri də bu baxımdan dolayı dövlət dəstəyinin mühüm elementlərindən biri kimi qiymətləndirilməlidir [38]. Belə ki, digər iqtisadi sahələrlə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan subyektlər Əlavə Dəyər Vergisindən və mənfəət vergisindən azad edilmişdir ki, bu da aqrar fəaliyyətin iqtisadi baxımdan daha səmərəli təşkilinə imkan yaradır [24].

Məlum olduğu kimi, aqrar sahəyə dövlət dəstəyinin ən geniş yayılmış və praktik baxımdan ən mühüm mexanizmlərindən biri subsidiyalaşdırma sistemidir. Subsidiyalar kənd təsərrüfatı istehsalçılarına təqdim olunan maliyyə dəstəyi forması olmaqla, istehsal xərclərinin azaldılmasına, fermerlərin maliyyə imkanlarının genişləndirilməsinə və aqrar istehsalın davamlılığının təmin olunmasına xidmət edir. Bununla yanaşı, subsidiyalaşdırma mexanizmi torpaq resurslarından səmərəli istifadəni, torpağın münbitliyinin qorunmasını, risklərin azaldılmasını və aqrar sahədə dayanıqlı inkişaf prinsiplərinin tətbiqini də təşviq edə bilər. Bəzi inkişaf etmiş ölkələrdə isə subsidiyalaşdırma yalnız istehsalçılarla məhdudlaşmır, eyni zamanda istehlakçılara da yönəldilir. Belə hallarda dövlət dəstəyi bir tərəfdən istehsalçıların gəlir sabitliyini qoruyur, digər tərəfdən isə əsas qida məhsullarının əhali üçün əlçatanlığını təmin etməyə xidmət edir. Azərbaycanda aqrar sahənin subsidiyalaşdırılmasına 2007-ci ildən başlanılmış və sonrakı illərdə müxtəlif subsidiya alətləri tətbiq edilmişdir. Bu alətlər sırasında əkin subsidiyaları, texnika subsidiyaları, mineral gübrə subsidiyaları, toxum subsidiyaları və damazlıq heyvanlara görə verilən subsidiyalar xüsusi yer tutur.

Ölkədə aqrar sahədə dövlət dəstəyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək üçün ilk növbədə mövcud dəstək sisteminin əhatəliliyi, səmərəliliyi və tətbiq olunan alətlərin real nəticələri təhlil edilməlidir. Bu məqsədlə həm birbaşa büdcə vəsaitlərinin, həm də dolayı vergi güzəştlərinin həcmini və dinamikasını birlikdə qiymətləndirmək məqsədəuyğundur.

Dissertasiya işinin əvvəlki yarımbölmələrində aparılmış təhlillər göstərir ki, Azərbaycanda aqrar sahəyə yönəldilən birbaşa dövlət dəstəyi əsasən əkin sahələrinin ölçüsü əsasında həyata keçirilir və istehsal həcmi, məhsulun keyfiyyəti, eləcə də digər iqtisadi göstəricilər bu prosesdə kifayət qədər nəzərə alınmır. Mövcud yanaşma müəyyən müsbət nəticələr versə də, dövlət dəstəyinin səmərəliliyinin artırılması və aqrar istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından bir sıra məhdudiyyətlər yaradır. Xüsusilə buğda və çəltik istehsalçılarına hər hektar əkin sahəsinə görə maliyyə dəstəyinin göstərilməsi, habelə yanacaq, gübrə və motor yağlarının dəyərinin müəyyən hissəsinin dövlət büdcəsi hesabına ödənilməsi mövcud

subsidiyalaşdırma mexanizminin əsas elementlərindən hesab olunur. Bu subsidiyalar həm əsas əkin, həm də təkrar əkin sahələrinə şamil edildiyi üçün torpaq resurslarından istifadənin intensivliyinə müəyyən stimul verir. Lakin buna baxmayaraq, torpaq sahəsinin həcminin əsas meyar kimi götürülməsi məhsuldarlıq, keyfiyyət, gəlirlilik və strateji nəticə meyarlarını arxa plana keçirir.

Aparılmış təhlillər göstərir ki, hazırda kənd təsərrüfatına göstərilən dövlət dəstəyinin əsas meyarı kimi torpaq sahəsinin ölçüsünün, yəni hektar göstəricisinin əsas götürülməsi praktikasına üstünlük verilir. Şübhəsiz ki, bu yanaşma müəyyən dərəcədə Ümumdünya Ticarət Təşkilatının prinsipləri ilə uyğunluq təşkil edir və bir sıra inkişaf etmiş ölkələrdə də oxşar subsidiya siyasəti tətbiq olunur. Bununla belə, subsidiyaların torpaq sahəsinin həcminə proporsional şəkildə verilməsi mexanizmi sosial-iqtisadi baxımdan müəyyən ədalətsizliklərin yaranmasına səbəb ola bilər. Mövcud statistik məlumatlara əsasən, Azərbaycanda kəndli-fermer təsərrüfatlarının 90%-dən çoxunun torpaq payı 5 hektardan azdır. Bu isə o deməkdir ki, iri torpaq sahələrinə malik təsərrüfat subyektləri faktiki olaraq daha böyük həcmdə dövlət dəstəyi əldə edir, kiçik və orta təsərrüfatlar isə bu imkanlardan nisbətən məhdud şəkildə yararlana bilir. Nəticədə dövlət subsidiyalarının bu prinsiplə bölüşdürülməsi kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan fermerlərin əksəriyyəti üçün qeyri-bərabər dəstək mühitinin formalaşmasına gətirib çıxarır. Bu baxımdan aqrar sahəyə yönəldilən dövlət dəstəyi siyasətində əsas diqqət torpaq sahiblərinin say üstünlüyü ilə seçilən kiçik və orta fermer təsərrüfatlarının maraqlarının qorunmasına və onların fəaliyyətinin stimullaşdırılmasına yönəldilməlidir. Belə bir yanaşma həm sosial-iqtisadi ədalətin təmin olunmasına, həm də kənd təsərrüfatında inklüziv və dayanıqlı inkişaf modelinin formalaşmasına mühüm töhfə verə bilər.

Məhz buna görə dövlət dəstək mexanizmlərinin daha çox məhsuldarlıq və keyfiyyət göstəricilərinə əsaslanan modellərlə əvəz edilməsi və ya onların kombinə edilmiş formada tətbiqi aqrar sahənin iqtisadi səmərəliliyinin yüksəldilməsinə, innovasiya potensialının gücləndirilməsinə və nəticəyönümlü idarəetmənin formalaşmasına əhəmiyyətli töhfə verə bilər. Dövlət dəstəyinin yalnız torpaq ölçüsünü deyil, həm də faktiki nəticəni əsas götürməsi daha məqsədəuyğun olardı. Məsələn,

subsidiya siyasətində hədəflər əvvəlcədən müəyyənləşdirilə və bu hədəflər ilk növbədə ərzaq təhlükəsizliyi ilə əlaqələndirilə bilər. Belə ki, ölkənin taxıl üzrə özünütəminetmə səviyyəsinin 85%-ə, çəltik üzrə isə 70%-ə çatdırılması kimi konkret hədəflərin qoyulması həm fermerlər, həm də dövlət dəstəyinin səmərəliliyi baxımından daha faydalı ola bilər. Bu halda torpaqların münbitliyi, toxumların məhsuldarlığı, suvarma imkanları və digər iqtisadi parametrlər də subsidiya siyasətinin ayrılmaz hissəsinə çevrilər. Nəticədə hektara görə subsidiyalaşdırma meyarı ilə yanaşı digər iqtisadi parametrlərdən istifadə etməklə əlavə subsidiyalaşdırma mexanizmlərinin tətbiqi mümkün olar.

Aqrar sahədə dövlət dəstəyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi Ümumdünya Ticarət Təşkilatının prinsipləri nəzərə alınmaqla aparılmalıdır. ÜTT çərçivəsində aqrar sahəyə dövlət dəstəyinin müxtəlif meyarları mövcuddur və bunlardan istifadə edilməsi məqsədəuyğun hesab edilə bilər. Konkret olaraq, kəndli-fermerlərin gəlirlilik səviyyəsinin qiymətləndirilməsi əsasında subsidiyalaşdırma mexanizmlərinin tətbiqi kənd təsərrüfatının dəstəklənməsi baxımından əhəmiyyətlidir. Avropa İttifaqı çərçivəsində belə dəstək mexanizmi mövcuddur və o, "asılı olmayan" və ya "müstəqil dəstək" kimi təqdim edilir. Həmin mexanizm çərçivəsində yaşıl zənbil xərcləri 2023-cü ildə təxminən 65% təşkil etmişdir. Digər tərəfdən, konkret məhsullar üzrə dövlət dəstəyinin müəyyənləşdirilməsi də daha məqsədəuyğun ola bilər. Bu halda dövlət əsas məqsədləri sahə proqramları vasitəsilə həyata keçirməli, qarşıya qoyulan nəticələrə əsaslanaraq hədəflərə nail olmağı planlaşdırmalı və həmin məqsədlərə çatmaq üçün maliyyə resurslarının xərcləmə strukturunda dəyişikliklər etməlidir. Avropa İttifaqı ölkələrində bu mexanizm ən azı on məhsul növünə tətbiq olunur və 2023-cü ildə bu sahəyə çəkilən xərclər ÜTT-nin müəyyən etdiyi sarı zənbil xərclərinin təxminən 12,5%-ni təşkil etmişdir. Azərbaycanın kənd təsərrüfatına dövlət dəstəyinin gələcəkdə ÜTT-yə inteqrasiya baxımından da bu prinsiplər nəzərə alınmaqla qurulması daha məqsədəuyğun görünür.

Bununla yanaşı, birbaşa subsidiyalar ilə dolayı subsidiya tədbirlərinin qarşılıqlı əlaqələndirilməməsi də xoşagəlməz hallara səbəb ola bilər. Bu baxımdan dövlət

dəstəyinin həm birbaşa, həm də dolayı alətlərinin vahid siyasət çərçivəsində uzlaşdırılması vacibdir. Dövlətin aqrar siyasəti elə qurulmalıdır ki, kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması ilə yanaşı, kənd təsərrüfatında çalışanların gəlirliliyinin yüksəldilməsi, kənd əhalisinin sosial rifahının yaxşılaşdırılması və kənd yerlərinin dayanıqlı inkişafı da təmin edilsin. Buna görə də subsidiya mexanizminin məhsul növləri üzrə həm çeşid, həm də maliyyə baxımından yetərli olması ilə yanaşı, onun davamlılığı və nəticəliliyi də qorunmalıdır.

Fikrimizcə, aqrar sahədə dövlət dəstəyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərindən biri kənd təsərrüfatı elmi-tədqiqat institutlarının fəaliyyətinin gücləndirilməsi və onların daha məhsuldar, yüksək keyfiyyətli toxum və bitki sortlarının yetişdirilməsi imkanlarının dəstəklənməsidir. Dövlətin aqrar sahəyə dəstək tədbirlərindən biri kimi kənd təsərrüfatına yönəlik "ümumi xidmətlərin" maliyyələşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu çərçivəyə elmi-tədqiqat xərcləri, kənd təsərrüfatı təhsili, texniki dəstək xidmətləri, infrastrukturun inkişafı və digər ümumi məqsədli fəaliyyətlər daxildir. Avropa İttifaqına üzv ölkələrdə bu sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarına ayrılan vəsaitlərin illik həcminin orta hesabla 6,4 milyard avro təşkil etməsi və bunun yaşıl zənbil xərclərinin təxminən 10 faizinə bərabər olması göstərir ki, inkişaf etmiş ölkələrdə dövlət dəstəyinin mühüm hissəsi məhz ümumi xidmətlərə yönəldilir. Azərbaycanda da oxşar təcrübə mövcuddur, lakin bu istiqamətdə əsas hədəf məhsuldar toxum sortlarının yaradılması və onların kəndli-fermer təsərrüfatlarında geniş tətbiqinə nail olunmasıdır. Təəssüf ki, bu istiqamətdə əldə olunmuş elmi nəticələr və yeni texnologiyalar barədə fermerlərin məlumatlılıq səviyyəsi hələ də qənaətbəxş deyildir. Bundan əlavə, reproduksiyalı toxumların ölkədə istifadə olunan bütün toxumlara nisbəti üzrə statistik məlumatların olmaması da bu sahədə ciddi boşluq yaradır. Yüksək keyfiyyətli toxumların istifadəsi, gübrə istehsalının milli baza hesabına genişləndirilməsi, aqrar təhsil və məsləhət xidmətlərinin inkişaf etdirilməsi dövlət dəstəyinin səmərəliliyini artıran mühüm istiqamətlərdən hesab olunmalıdır.

Beləliklə, aparılmış təhlil göstərir ki, Azərbaycanda aqrar sahəyə dövlət dəstəyi həm birbaşa, həm də dolayı formalarda geniş şəkildə tətbiq olunur və onun ümumi

həcmi uzunmüddətli dövrdə artmışdır. Lakin bu dəstəyin artması öz-özlüyündə onun optimal və ya tam səmərəli olduğu anlamına gəlmir. Mövcud subsidiyalaşdırma mexanizmlərinin əsasən torpaq sahəsinin ölçüsünə bağlanması, nəticə göstəricilərinin yetərincə nəzərə alınmaması, kiçik və orta fermerlərin maraqlarının tam qorunmaması və ümumi xidmətlərə yönələn dəstəyin yetərincə güclü olmaması göstərir ki, dövlət dəstəyinin iqtisadi mexanizmləri daha da təkmilləşdirilməlidir. Bu baxımdan əsas məqsəd yalnız dövlət vəsaitlərinin həcmini artırmaq deyil, həm də dövlət dəstəyinin strukturunu nəticəyönümlülük, məhsuldarlığın artırılmasının stimullaşdırılması, sosial ədalətin qorunması və ÜTT prinsiplərinə uyğunluq meyarları əsasında təkmilləşdirmək olmalıdır. Məhz bu halda aqrar sahəyə yönəldilən dövlət dəstəyi kənd təsərrüfatının ümumi inkişafına, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və kənd yerlərinin dayanıqlı inkişafına daha güclü təsir göstərə bilər.

Kənd təsərrüfatına dövlət dəstəyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilərkən dövlətin aqrar siyasətində nəzərə alınmalı olan əsas prinsiplər, ilk növbədə, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd əhalisinin məşğulluq və gəlir səviyyəsinin yüksəldilməsi, kənd yerlərində əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması, dayanıqlı inkişafın təmin edilməsi, fermerlərin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, təhsil və peşəkar inkişafın dəstəklənməsi, bazarlara çıxış imkanlarının artırılması, infrastrukturun inkişaf etdirilməsi, ekoloji dayanıqlılığın təmin olunması, dövlət nəzarətinin təkmilləşdirilməsi, bazar effektivliyinin yüksəldilməsi, iqlim dəyişikliyinə uyğunlaşma, qlobal rəqabətqabiliyyətliliyin təmin edilməsi, aqrar innovasiyaların izlənilməsi və sosial sabitliyin təmin edilməsi ilə bağlıdır.

Hazırda əhalinin bitki mənşəli ərzaq məhsulları üzrə həm faktiki istehlakı, həm də bu məhsullar üzrə daxili istehsalı müvafiq normalar səviyyəsinə çatmışdır. Lakin bununla belə bəzi məhsullar üzrə (düyü, bitki yağları) daxili istehsalı aşağıdır. Deməli, mövcud potensialdan istifadə edərək ölkənin bu məhsullara olan tələbatının ödənilməsi üçün dövlətin müvafiq tədbirlər görməsi obyektiv zərurətdir. Bunun üçün də ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə bağlı mövcud potensialın davamlı olaraq yüksəldilməsi əsas hədəf olmalıdır. Nəzərə almaq lazımdır ki, ərzaq

təhlükəsizliyinin təmin edilməsi hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. Aqrar sahə ərzaq istehsalı və paylanmasında həlledici rol oynayır. Dünyada əhali artımı, gündəlik qida rasionunun tam dəyişdirilməsi və iqlimlə bağlı yaranan problemlər ərzaq təhlükəsizliyinə diqqətin daha da artmasına səbəb olmuşdur. Xüsusilə pandemiyalar, iqlim dəyişikliyi və ya qida təchizatı zəncirlərini poza biləcək geosiyasi gərginliklər kimi qlobal çağırışlar zamanı ərzaq təhlükəsizliyini qorumaq üçün dövlət tənzimlənməsi zəruridir. Müasir dövrdə ərzaq təhlükəsizliyinin təmin edilməsi təkcə ölkənin ərzaq məhsulları ilə daxili istehsal hesabına yüksək səviyyədə təmin olunmasını deyil, həm də ölkə əhalisinin zəruri həcmdə və çeşiddə qida məhsullarını istehlak edə bilməsini, bunun üçün isə əhalinin gəlirlərinin lazımi səviyyədə olmasını nəzərdə tutur.

Ölkə əhalisinin təqribən yarısının və fəal işçi qüvvəsinin üçdə bir hissəsindən çoxunun kənd yerlərində yaşaması nəzərə alındıqda, kənd əhalisinin məşğulluq imkanlarının və gəlir səviyyəsinin yüksəldilməsi istiqamətində dövlət tərəfindən zəruri tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatının inkişafı yalnız ərzaq təminatının yaxşılaşdırılması baxımından deyil, həm də kənd yerlərində məşğulluğun və gəlirlərin artırılması, sosial rifahın yüksəldilməsi və regional inkişafın təmin edilməsi baxımından əhəmiyyətlidir. Bu baxımdan aqrar sahənin inkişafına yönəldilən dövlət siyasəti kənd təsərrüfatı istehsalının artırılması ilə yanaşı, kənd əhalisinin iqtisadi imkanlarının genişləndirilməsinə də xidmət etməlidir.

Aqrar sahənin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini artıran əsas amillərdən biri də kənd təsərrüfatının müxtəlif xarici və daxili risklərə yüksək həssaslığıdır. Son illərdə təbii fəlakətlər, geosiyasi gərginliklər və pandemiya kimi amillərin təsiri ilə qlobal təchizat zəncirlərində baş verən pozuntular kənd təsərrüfatı məhsullarının istehsalı, daşınması və bölüşdürülməsi proseslərində əlavə risklər yaratmışdır. Bu vəziyyət kənd təsərrüfatı tədarük zəncirlərinin davamlılığının təmin edilməsi, mümkün risklərin azaldılması və yaranan böhranlara çevik reaksiya mexanizmlərinin formalaşdırılmasını zəruri edir. Belə şəraitdə dövlətin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi yalnız istehsalın stimullaşdırılması deyil, həm də

aqrar bazarın xarici şoklara dayanıqlılığının artırılması baxımından mühüm istiqamət kimi çıxış edir.

Bir çox ölkələrdə əhalinin əhəmiyyətli hissəsinin həyat fəaliyyəti və gəlir mənbələri kənd təsərrüfatı ilə birbaşa və ya dolayı şəkildə bağlıdır. Bu səbəbdən dövlətin əsas vəzifələrindən biri dayanıqlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi üçün əlverişli institusional və iqtisadi mühitin formalaşdırılması, kiçik və orta fermer təsərrüfatlarının dəstəklənməsi və kənd yerlərinin sosial-iqtisadi inkişafının stimullaşdırılmasıdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər kənd yerlərində həyat keyfiyyətinin yüksəldilməsinə, gəlir imkanlarının genişlənməsinə və kənd əhalisinin rifahının yaxşılaşdırılmasına şərait yarada bilər.

Aqrar sahənin inkişafı ölkənin ümumi iqtisadi sabitliyi ilə də sıx əlaqəlidir. Kənd təsərrüfatında istehsalın və məhsuldarlığın yüksəldilməsi əlavə dəyərin formalaşmasına, kənd təsərrüfatı məhsullarının emalının genişlənməsinə və ixrac potensialının artırılmasına imkan verir. Buna görə də aqrar sahənin iqtisadi mexanizminin təkmilləşdirilməsi istehsalçıların fəaliyyətinin stimullaşdırılması ilə yanaşı, aqrar məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə və ümumi iqtisadi artıma töhfə verməlidir. Eyni zamanda, aqrar sahənin inkişafının digər sahələrlə qarşılıqlı əlaqəsinin gücləndirilməsi kənd təsərrüfatında yaradılan əlavə dəyərin iqtisadiyyatın digər sektorlarına ötürülməsinə imkan verə bilər.

Aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsində ekoloji amillər də xüsusi əhəmiyyət daşıyır. Dövlətin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi resurslardan səmərəli istifadəni, torpaq və su ehtiyatlarının qorunmasını, ekoloji cəhətdən dayanıqlı istehsal üsullarının tətbiqini və aqroekoloji yanaşmaların genişləndirilməsini stimullaşdırmalıdır. Bu baxımdan kənd təsərrüfatında yalnız cari istehsal nəticələrinin artırılmasına deyil, həm də təbii ehtiyatların uzunmüddətli qorunmasına və gələcək nəsillərin ehtiyaclarının nəzərə alınmasına əsaslanan siyasətin formalaşdırılması zəruridir.

Aqrar sahənin inkişafını təmin edən və müasir bazar tələblərinə cavab verən uzunmüddətli strategiyaların hazırlanması və həyata keçirilməsi dövlət tənzimlənməsinin əsas istiqamətlərindən biri hesab edilə bilər. Bununla yanaşı, kənd

təsərrüfatını tənzimləyən qanunvericilik bazasının müasir iqtisadi və institusional tələblərə uyğunlaşdırılması, sahibkarlıq fəaliyyəti üçün inzibati maneələrin azaldılması, lisenziya və icazələrin alınması, habelə subsidiya və digər dövlət dəstəyi mexanizmlərindən istifadə ilə bağlı prosedurların sadələşdirilməsi vacibdir. Bu tədbirlər dövlət dəstəyi mexanizmlərinin əlçatanlığını artırmaqla yanaşı, onların daha şəffaf və səmərəli şəkildə tətbiqinə imkan verə bilər.

Dövlət dəstəyinin mühüm istiqamətlərindən biri aqrar istehsalçıların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsidir. Güzəştli kreditləşmə, mikromaliyyələşdirmə, investisiya dəstəyi və digər maliyyə alətləri fermerlərin istehsal imkanlarının genişləndirilməsinə, texniki və texnoloji bazanın yenilənməsinə şərait yarada bilər. Bununla yanaşı, kənd təsərrüfatının yüksək riskli fəaliyyət sahəsi olması nəzərə alınaraq, əlverişsiz hava şəraiti, təbii fəlakətlər və müxtəlif xəstəliklər nəticəsində yarana biləcək itkilərin təsirlərinin azaldılması məqsədilə bitkiçilik və heyvandarlıq məhsullarının sığortalanması mexanizmlərinin təkmilləşdirilməsi də mühüm əhəmiyyət daşıyır. Belə mexanizmlər fermerlərin gəlirlərində yarana biləcək kəskin dəyişikliklərin məhdudlaşdırılmasına və istehsal fəaliyyətinin davamlılığının qorunmasına xidmət edə bilər.

Aqrar istehsalçıların rəqabət imkanlarının qorunması baxımından daxili kənd təsərrüfatı bazarının tənzimlənməsi də mühüm istiqamətlərdən biridir. Yerli istehsalçıların xarici rəqabət qarşısında üzləşə biləcəyi çətinliklərin azaldılması məqsədilə tarif və digər ticarət-tənzimləmə vasitələrindən istifadə edilə bilər. Bununla belə, bu cür tədbirlər daxili bazarın qorunması ilə yanaşı, istehlakçı maraqları, rəqabət mühiti və beynəlxalq ticarət öhdəlikləri nəzərə alınmaqla tətbiq edilməlidir. Dövlət tənzimlənməsi eyni zamanda bazarda inhisarlaşmanın və rəqabətin məhdudlaşdırılmasının qarşısının alınmasına, bazar iştirakçıları arasında daha şəffaf münasibətlərin formalaşdırılmasına və kənd təsərrüfatı məhsullarının reallaşdırılması prosesində istehsalçıların mövqeyinin gücləndirilməsinə yönəldilə bilər.

Aqrar sahədə məhsuldarlığın və rəqabət qabiliyyətinin artırılması yalnız maliyyə dəstəyi ilə məhdudlaşmamalı, insan kapitalının inkişafını da əhatə etməlidir. Bu baxımdan fermerlərə və aqrar mütəxəssislərə peşəkar inkişaf proqramlarının təqdim

edilməsi, kənd təsərrüfatı texnologiyaları, idarəetmə bacarıqları və müasir aqrar təcrübələr üzrə təlimlərin keçirilməsi, həmçinin məsləhət və informasiya xidmətlərinin genişləndirilməsi zəruridir. Müasir texnologiyaların tətbiqinin stimullaşdırılması, istehsal proseslərinin avtomatlaşdırılması, dəqiq kənd təsərrüfatı texnologiyalarından istifadə, tədqiqat və innovasiya layihələrinin maliyyələşdirilməsi, bilik və təcrübə mübadiləsinin genişləndirilməsi və yeni texnologiyaların sınaqdan keçirilməsi üzrə pilot proqramların həyata keçirilməsi aqrar sahənin innovativ inkişafına şərait yarada bilər.

Fermerlərin istehsal etdikləri məhsulları daha geniş bazarlara çıxarması üçün bazar infrastrukturu və logistika sisteminin inkişaf etdirilməsi də mühüm əhəmiyyət daşıyır. Məhsulların istehsalçıdan istehlakçıya çatdırılması prosesində vasitəçilik xərclərinin optimallaşdırılması, fermerlərin bazar məlumatlarına çıxış imkanlarının genişləndirilməsi və satış kanallarının şaxələndirilməsi onların bazar mövqeyini gücləndirə bilər. Eyni zamanda, daxili və beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi üçün keyfiyyət və təhlükəsizlik standartlarının tətbiqi, sertifikatlaşdırma imkanlarının yaxşılaşdırılması, logistika və infrastrukturun inkişaf etdirilməsi mühüm şərtlərdir.

Aqrar istehsalın səmərəliliyinin yüksəldilməsində infrastrukturun inkişafı da xüsusi rol oynayır. Suvarma sistemlərinin, yol və nəqliyyat şəbəkələrinin, anbar və logistika obyektlərinin, habelə enerji təminatı infrastrukturunun təkmilləşdirilməsi istehsal və logistika xərclərinin optimallaşdırılmasına, məhsulların daşınması və saxlanması zamanı yaranan itkilərin azaldılmasına və mövcud resurslardan daha səmərəli istifadəyə imkan verir. Müasir infrastrukturun formalaşdırılması məhsulların bazara çıxarılmasını asanlaşdırmaqla kənd təsərrüfatı istehsalçılarının rəqabət imkanlarını genişləndirir və istehsalın məhsuldarlığının yüksəldilməsinə şərait yaradır.

Aqrar sahənin uzunmüddətli inkişafı baxımından ekoloji mühafizənin təmin edilməsi və davamlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi də iqtisadi mexanizmin mühüm komponentlərindən biri olmalıdır. Torpaq, su və digər təbii ehtiyatlardan səmərəli istifadə, ətraf mühitə mənfi təsirlərin azaldılması, texnologiyaların tətbiqi və

ekoloji baxımdan daha dayanıqlı istehsal üsullarının stimullaşdırılması aqrar istehsalın gələcək potensialının qorunmasına imkan verir.

Dövlət tənzimlənməsinin səmərəliliyinin artırılması üçün idarəetmə və institusional mexanizmlərin də təkmilləşdirilməsi vacibdir. Dövlət nəzarətinin şəffaflığının artırılması, hesabatlılıq sistemlərinin gücləndirilməsi və büdcə vəsaitlərindən səmərəli istifadə mexanizmlərinin təkmilləşdirilməsi dövlət dəstəyinin nəticəliliyinin yüksəldilməsinə xidmət edə bilər. Bu tədbirlərin konkret məzmunu ölkənin və ayrı-ayrı regionların sosial-iqtisadi, təbii və institusional xüsusiyyətləri nəzərə alınmaqla müəyyənləşdirilməlidir.

Kənd təsərrüfatı bazarlarının qiymət dəyişkənliyinə və tələb-təklif balanssızlığına həssas olması dövlət tənzimlənməsinin digər mühüm istiqamətlərini də müəyyənləşdirir. Dövlət siyasəti ticarət, tarif, subsidiya, standartlaşdırma və rəqabətin qorunması kimi alətlər vasitəsilə aqrar bazarın fəaliyyətinə təsir göstərə bilər. Bu alətlərin məqsədyönlü və şəffaf tətbiqi bazar iştirakçıları arasında informasiya və imkan fərqlərinin azaldılmasına, rəqabət mühitinin qorunmasına və kənd təsərrüfatı istehsalçılarının bazar imkanlarının genişləndirilməsinə şərait yarada bilər.

Aqrar sahənin inkişafı sosial baxımdan da mühüm nəticələr yaradır. Kənd yerlərində məşğulluğun və gəlirlərin artırılması kənddən şəhərə miqrasiya meyllərinin zəiflədilməsinə, regionlararası sosial-iqtisadi fərqlərin azaldılmasına və kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə şərait yarada bilər. Bu baxımdan aqrar siyasət yalnız istehsal göstəricilərinin yüksəldilməsinə deyil, həm də kənd yerlərində sosial infrastrukturun və insan kapitalının inkişafına yönəldilməlidir.

Beləliklə, aqrar sahədə dövlət tənzimlənməsinin təkmilləşdirilməsi kompleks yanaşma tələb edir. Bu yanaşma maliyyə və subsidiya mexanizmləri, güzəştli kreditləşmə və sığorta, bazar və ticarət tənzimlənməsi, infrastruktur və logistika, insan kapitalının inkişafı, innovasiya və rəqəmsallaşma, ekoloji davamlılıq, habelə institusional və qanunvericilik mexanizmlərinin təkmilləşdirilməsini əhatə etməlidir. Dövlətin rolu yalnız birbaşa maliyyə dəstəyi göstərməklə məhdudlaşmamalı, eyni zamanda aqrar istehsalın səmərəli fəaliyyət göstərə biləcəyi institusional, infrastruktur və bazar mühitinin formalaşdırılmasına yönəlməlidir.

Azərbaycanın aqrar potensialının genişliyi və kənd təsərrüfatının iqtisadi və sosial əhəmiyyəti nəzərə alınmaqla, bu potensialdan səmərəli istifadə olunması ölkənin ümumi inkişaf perspektivləri ilə sıx bağlıdır. Bu baxımdan kənd təsərrüfatının inkişafı üzrə dövlət siyasətində ilk növbədə uzunmüddətli inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, daha sonra isə həmin prioritetlərə uyğun dövlət dəstəyi və tənzimləmə tədbirlərinin formalaşdırılması məqsədəuyğundur. Başqa sözlə, aqrar sahədə dövlət müdaxiləsinin istiqaməti və alətləri əvvəlcədən müəyyən edilmiş inkişaf məqsədlərinə uyğunlaşdırılmalı, tətbiq olunan mexanizmlərin səmərəliliyi mütəmadi qiymətləndirilməli və dəyişən iqtisadi, sosial, texnoloji və institusional şəraitə uyğun olaraq təkmilləşdirilməlidir.

Hesab edirik ki, göstərilən istiqamətlər üzrə aqrar sahəyə dövlət dəstəyinin təmin edilməsi müvafiq iqtisadi mexanizmlərin təkmilləşdirilməsinə səbəb olmaqla yanaşı aqrar sahənin ümumi inkişafına da səbəb olacaqdır.

Nəticə.

Aparılmış araşdırmalar göstərir ki, aqrar sahənin tənzimlənməsi ilə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması arasında qarşılıqlı əlaqə mövcud olsa da, bu əlaqə birbaşa və birmənalı xarakter daşımır. Müxtəlif ölkələrin təcrübəsinin müqayisəli təhlili təsdiq edir ki, yüksək ərzaq təhlükəsizliyi səviyyəsinə həm liberal bazar mexanizmlərinin üstünlük təşkil etdiyi, həm də dövlət müdaxiləsinin daha güclü olduğu şəraitdə nail olmaq mümkündür. Aqrar sahədə liberallıq-dirijistlik indeksləri ilə Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi arasındakı əlaqənin statistik təhlili də bu göstəricilər arasında güclü xətti asılılığın olmadığını göstərir. Beləliklə, dövlət müdaxiləsinin miqyasını ərzaq təhlükəsizliyinin səviyyəsini müəyyən edən yeganə və ya həlledici amil kimi qiymətləndirmək düzgün deyildir. Əsas məsələ dövlət dəstəyinin məqsədyönlülüyü, resursların səmərəli bölüşdürülməsi, institusional mühitin keyfiyyəti və tətbiq olunan tənzimləmə mexanizmlərinin ölkənin konkret iqtisadi şəraitinə uyğunluğudur.

Azərbaycan üzrə aparılmış təhlil göstərir ki, ölkədə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində mühüm strateji proqramlar qəbul edilmiş, kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi və daxili tələbatın yerli istehsal

hesabına ödənilməsi üçün müxtəlif tədbirlər həyata keçirilmişdir. Bununla belə, əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsinin təhlili məhsul qrupları arasında əhəmiyyətli fərqlərin olduğunu üzə çıxarır. 2010–2024-cü illərdə buğda ilə özünütəminetmə səviyyəsinin 48,9%-dən 56,1%-ə yüksəlməsinə baxmayaraq, ölkənin bu strateji məhsul üzrə idxaldan asılılığı qalmaqdadır. Dənli bitkilərin ümumi qrupunda özünütəminetmə səviyyəsinin 2024-cü ildə 68,4% təşkil etməsi də bu istiqamətdə əlavə tədbirlərin zəruriliyini göstərir.

Əldə edilmiş nəticələr Azərbaycanda aqrar tənzimləmə siyasətinin məhsul qrupları və strateji prioritetlər üzrə fərqləndirilməsinin məqsədəuyğun olduğunu əsaslandırır. Bu baxımdan, buğda və digər strateji ərzaq məhsulları üzrə yerli istehsal potensialının artırılması, məhsuldarlığın yüksəldilməsi, müasir texnologiyaların tətbiqi, suvarma və logistika infrastrukturunun təkmilləşdirilməsi, aqrar risklərin sığortalanması və istehsalçıların gəlirlərinin sabitləşdirilməsi əsas istiqamətlər kimi çıxış etməlidir. Eyni zamanda, özünütəminetmə potensialı yüksək olan və müqayisəli üstünlüklərə malik məhsullar üzrə ixrac imkanlarının genişləndirilməsi, emal səviyyəsinin yüksəldilməsi və əlavə dəyər yaradılmasının stimullaşdırılması vacibdir. Dövlət dəstəyi mexanizmləri yalnız istehsal həcminin artırılmasına deyil, həm də iqtisadi səmərəliliyin, rəqabətqabiliyyətliliyin və ərzaq təchizatının dayanıqlılığının yüksəldilməsinə xidmət etməlidir.

Azərbaycanda aqrar sahəyə dövlət tərəfindən həyata keçirilən birbaşa (subsidiyalar) və dolayı (ƏDV və mənfəət vergisindən azadolmalar) dəstək mexanizmləri istehsalçıların fəaliyyətini stimullaşdırmaq və ərzaq təhlükəsizliyini möhkəmləndirmək məqsədi daşıyır. Lakin mövcud subsidiyalaşdırma sistemində maliyyə dəstəyinin əsasən torpaq sahəsinin ölçüsünə (hektara) mütənasib şəkildə verilməsi sistemin iqtisadi və sosial səmərəliliyini məhdudlaşdırır. Ölkədə fermer təsərrüfatlarının 90%-dən çoxunun 5 hektardan az torpaq sahəsinə malik olması səbəbindən dövlət vəsaitlərinin əsas hissəsi iri torpaq sahiblərinə yönəlir, nəticədə kiçik və orta təsərrüfatlar üçün qeyri-bərabər dəstək mühiti formalaşır. Eyni zamanda, yalnız torpaq ölçüsünün meyar götürülməsi məhsuldarlıq, məhsulun keyfiyyəti və gəlirlilik kimi strateji nəticələri arxa plana keçirir.

Aqrar sahədə dövlət dəstəyinin təkmilləşdirilməsi üçün mexanizmlərin yalnız kəmiyyətə deyil, nəticəyönümlü və məhsuldarlığa əsaslanan modellərlə əvəz olunması və ya kombinə edilməsi zəruridir.

NƏTİCƏLƏR, TƏKLİF VƏ TÖVSİYƏLƏR

Nəticə, təklif və tövsiyələr

Tədqiqatın nəticələri

1. Tədqiqatda aqrar sahəyə dövlət müdaxiləsinin nəzəri əsasları, onun ölçülməsi, 148 ölkə üzrə müdaxilə modellərinin dinamikası, Azərbaycanın institusional xüsusiyyətləri və ASLDİ-nin aqrar göstəricilərlə əlaqələri araşdırılmışdır. ASLDİ və KTDDLDİ iki metodologiya əsasında hesablanmışdır. Nəticələr göstərir ki, müdaxilənin səmərəliliyi yalnız onun miqyası ilə deyil, həm də seçilən alətlərin qarşıya qoyulan məqsədlərə və ölkənin sosial-iqtisadi şəraitinə uyğunluğu ilə bağlıdır.

2. 2001–2024-cü illərdə 148 ölkə üzrə qismən liberal modelin payı 45,3%-dən 66,2%-ə yüksəlmiş, qarışıq orta modelin payı 41,2%-dən 29,1%-ə, qismən dirijist modelin payı isə 10,8%-dən 0,7%-ə enmişdir. Tam liberal modelin payı 2024-cü ildə 4,1% olmuş, dirijist modelə aid ölkə qeydə alınmamışdır. Bu dəyişikliklər aqrar sahəyə dövlət dəstəyinin aradan qalxmasını deyil, müdaxilənin nisbi səviyyəsində liberallaşma meylini göstərir. Azərbaycanda torpaq mülkiyyətinin qarışıq xarakteri, müəssisələrdə qeyri-dövlət sektorunun üstünlüyü, vergi güzəştləri və subsidiyaların tətbiqi liberal yönümlü qarışıq modeli səciyyələndirir. ASLDİ nəticələri isə ölkənin qarışıq orta modeldən qismən liberal modelə doğru dəyişdiyini göstərir.

3. Azərbaycan üzrə ASLDİ ilə aqrar istehsal arasında zəif, kənd təsərrüfatı məhsulları üzrə istehsalçı qiymətləri indeksi ilə müsbət orta, kənd təsərrüfatında məşğulluq və əsas kapitala investisiyalarla isə güclü mənfi statistik əlaqə müəyyən edilmişdir. Məşğulluq və investisiya üzrə uyğun reqressiya modellərində R^2 müvafiq olaraq 0,5277 və 0,5627-dir. Bu nəticələr göstəricilər arasında statistik əlaqənin mövcudluğunu əks etdirir, lakin səbəb-nəticə münasibətini təkbaşına təsdiqləmir. Aqrar istehsal və digər nəticə göstəricilərinə infrastruktur, texniki-texnoloji təminat, maliyyələşmə və başqa iqtisadi amillər də təsir edə bilər.

4. Hesablamalara görə, ümumi məhsul buraxılışının hər manatına 22,9–26,8 qəpik dövlət dəstəyi düşür; bunun 15,8 qəpiyi vergi güzəştlərinin payına aiddir. Ərzaq təhlükəsizliyi ilə liberallıq-dirijistlik səviyyəsi arasında 148 ölkə üzrə zəif mənfi,

Azərbaycan üzrə isə ASLDİ ilə Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi arasında güclü müsbət statistik əlaqə (R^2=0,6485) müəyyən edilmişdir. Bu nəticələr təhlil səviyyələri fərqləndirilməklə şərh olunmalıdır. Ərzaq təhlükəsizliyini yalnız dövlət müdaxiləsinin miqyası ilə izah etmək olmaz; məhsullar üzrə özünütəminetmə səviyyəsi və digər amillər də nəzərə alınmalıdır.

Təklif və tövsiyələr

Aqrar siyasətin nəticəliliyinin yüksəldilməsi üçün dövlət müdaxiləsinin miqyasını özlüyündə artırmaq və ya azaltmaq deyil, dəstək alətlərinin konkret problemlərə və ölkə şəraitinə uyğunluğunu təmin etmək məqsədəuyğun hesab olunur. Tədqiqatın nəticələrinə əsasən aşağıdakı təklif və tövsiyələr irəli sürülür.

1. Dövlət müdaxiləsinin balanslı və nəticəyönümlü modelinin qorunması

Azərbaycanın liberal yönümlü qarışıq model çərçivəsində mövqeyini qoruması, dövlətin bazar təşəbbüsünü məhdudlaşdırmadan aqrar sahənin strateji və sosial əhəmiyyətli istiqamətlərini dəstəkləməsi məqsədəuyğun olardı. 148 ölkə üzrə müşahidə edilən liberallaşma meyli dəstəyin ləğvini deyil, onun forma və istiqamətlərinin dəyişməsini göstərir. Buna görə müdaxilənin səmərəliliyinin qiymətləndirilməsində onun çoxluğu və ya azlığı deyil, nəticələri əsas götürülməlidir. ASLDİ göstəricilərinin konkret hədəf səviyyəsi kimi deyil, siyasətin dəyişməsini izləyən və qərarları əsaslandırmağa kömək edən monitorinq vasitələri kimi tətbiqi tövsiyə olunur.

2. Subsidiyaların nəticələrə və təsərrüfat şəraitinə uyğunlaşdırılması

Subsidiyaların məhsuldarlıq, məhsulun keyfiyyəti və faktiki istehsal göstəriciləri ilə əlaqələndirilməsi, dəstək meyarlarının isə regionların təbii-iqlim şəraiti, su təminatı, torpaq xüsusiyyətləri və məhsul üzrə ehtiyacları nəzərə alınmaqla müəyyənləşdirilməsi faydalı olardı. Dəstək şərtlərinin əvvəlcədən açıqlanması fermerlərə istehsal qərarlarını daha düzgün planlaşdırmağa imkan verə bilər. Subsidiyaların nəticələrinin dövri qiymətləndirilməsi isə vəsaitlərin istehsal və məhsuldarlıq baxımından daha səmərəli istiqamətlərə yönəldilməsinə şərait yaradar.

3. Ərzaq təhlükəsizliyi tədbirlərinin məhsullar üzrə fərqləndirilməsi

148 ölkə üzrə və Azərbaycan üzrə alınmış nəticələrin fərqli olması ərzaq təhlükəsizliyinin vahid müdaxilə göstəricisi ilə izah edilməsinin məhdudiyyətlərini göstərir. Buna görə dövlət dəstəyinin məhsulların özünütəminetmə səviyyəsi, idxaldan asılılığı, təchizat riskləri və daxili bazardakı əhəmiyyəti əsasında fərqləndirilməsi məqsədəuyğun olardı. Strateji məhsullar üzrə istehsal təşviqlərinin saxlama, emal və bazara çıxış tədbirləri ilə əlaqələndirilməsi daha sabit təchizata və istehsalçıların bazar imkanlarının genişlənməsinə kömək edə bilər.

4. Vergi güzəştlərinin şəffaflığının və fiskal səmərəliliyinin artırılması

Hesablamalarda ümumi məhsul buraxılışının hər manatına düşən dəstəyin mühüm hissəsinin vergi güzəştləri hesabına formalaşması bu alətin ayrıca qiymətləndirilməsini zəruri edir. Vergi güzəştlərinin büdcə sənədlərində vergi xərcləri kimi ayrıca göstərilməsi və onların istehsala, məhsuldarlığa, investisiyalara və büdcə gəlirlərinə təsirinin müntəzəm araşdırılması məqsədəuyğun olardı. Belə qiymətləndirmə güzəştlərin hansı məhsul qrupları, regionlar və təsərrüfat kateqoriyaları üzrə daha səmərəli olduğunu müəyyənləşdirməyə, nəticəsi zəif olan güzəştlərin isə yenidən nəzərdən keçirilməsinə imkan verə bilər.

5. Ümumi xidmətlərə və aqrar tədqiqatlara dəstəyin gücləndirilməsi

ASLDİ ilə aqrar istehsal arasındakı zəif əlaqə istehsal nəticələrinin yalnız müdaxilə səviyyəsi ilə müəyyən olunmadığını göstərir. Bu baxımdan dövlət dəstəyinin aqrar tədqiqat və innovasiyaya, fermerlərə məsləhət xidmətlərinə, toxum keyfiyyətinə nəzarətə, fitosanitar və baytarlıq xidmətlərinə yönəldilməsi məqsədəuyğun hesab olunur. Yeni texnologiyalar və elmi nəticələr barədə məlumatın fermerlərə çatdırılması, onların istehsalda tətbiqinin təşviqi məhsuldarlığa təsir edən qeyri-maliyyə məhdudiyyətlərinin aradan qaldırılmasına kömək edə bilər.

6. İnfrastruktur və texniki-texnoloji təminatın yaxşılaşdırılması

Aqrar istehsalın nəticələrinə suvarma, meliorasiya, enerji, nəqliyyat, saxlama və emal infrastrukturu təsir göstərdiyindən, bu sahələrdəki məhdudiyyətlərin müəyyənləşdirilməsi və aradan qaldırılması tövsiyə olunur. Dövlət investisiyalarının istehsal potensialı və mövcud infrastruktur çatışmazlıqları nəzərə alınmaqla prioritetləşdirilməsi daha məqsədəuyğun olardı. Anbar və soyuducu təsərrüfatların,

kənd yollarının və logistika xidmətlərinin yaxşılaşdırılması məhsul itkilərini azaltmağa və fermerlərin bazara çıxışını asanlaşdırmağa imkan verə bilər.

7. Kiçik və orta təsərrüfatların dəstək imkanlarının genişləndirilməsi

Kiçik və orta təsərrüfatların güzəştli maliyyələşməyə, texnikaya, suvarma və məsləhət xidmətlərinə çıxışının asanlaşdırılması məqsədəuyğun olardı. Kooperasiya və birgə xidmətlərdən istifadə imkanlarının təşviqi texnika, saxlama və logistika xərclərinin bölüşdürülməsinə, fermerlərin istehsal zəncirlərində iştirakına kömək edə bilər. Dəstəyin təsərrüfatların ölçüsü və regional ehtiyaclar nəzərə alınmaqla qurulması onun daha geniş istehsalçı qruplarına çatmasına şərait yarada bilər.

8. Məşğulluq və investisiya nəticələrinin dəstək proqramlarında nəzərə alınması

ASLDİ ilə kənd təsərrüfatında məşğulluq və əsas kapitala investisiyalar arasında güclü mənfi statistik əlaqə müşahidə edildiyindən, dəstək proqramlarının bu göstəricilərlə əlaqəsi ayrıca qiymətləndirilməlidir. Güzəştli kredit, lizinq, sığorta və kooperasiya mexanizmlərinin investisiya və məşğulluğa təsirinin müvafiq göstəricilər əsasında izlənməsi məqsədəuyğun olardı. Bununla belə, müəyyən edilmiş əlaqələr müdaxilənin avtomatik artırılması və ya azaldılması üçün əsas sayılmamalı, qərarlar digər iqtisadi və institusional amillərin təhlili ilə birlikdə qəbul edilməlidir.

9. İstehsal və iqlim risklərinin idarə edilməsinin təkmilləşdirilməsi

Aqrar sahənin təbii-iqlim və mövsümi amillərdən asılılığı nəzərə alınaraq, quraqlıq, şaxta, dolu və digər risklərə karşı aqrar sığortanın əhatəsinin genişləndirilməsi tövsiyə olunur. Sığorta haqlarına dövlət dəstəyinin risk səviyyəsi və təsərrüfatın xüsusiyyətləri nəzərə alınmaqla tətbiqi fermerlərin sığortaya çıxışını yaxşılaşdıra bilər. Suya qənaət edən texnologiyaların, iqliməavamlı sortların və torpaq münbitliyini qoruyan istehsal üsullarının təşviqi də risklərin azaldılmasına yönəlmiş dəstəyin tərkib hissəsi ola bilər.

10. Ərzaq təhlükəsizliyinin qiymətləndirilməsində göstəricilərin uzlaşdırılması

Ərzaq təhlükəsizliyi ilə müdaxilə səviyyəsi üzrə 148 ölkə və Azərbaycan üçün alınmış nəticələrin fərqli olması ümumi indekslərin ölkə səviyyəsində ehtiyatla şərh edilməsini tələb edir. Qlobal indekslər ölkələrarası müqayisə üçün faydalı olsa da, Azərbaycan üzrə siyasət qərarlarında məhsulların özünütəminetmə səviyyəsi, idxal asılılığı və daxili təchizat riskləri ayrıca nəzərə alınmalıdır. Bu göstəricilərin müntəzəm izlənməsi

dəstək tədbirlərinin ərzaq təhlükəsizliyinin hansı komponentlərinə təsir etdiyini daha dəqiq qiymətləndirməyə imkan verə bilər.

11. Dövlət dəstəyinin monitorinqi və qiymətləndirilməsi sisteminin qurulması

Dövlət dəstəyinin nəticələrinin vahid və ardıcıl qaydada izlənməsi üçün aqrar istehsal, istehsalçı qiymətləri, məşğulluq, əsas kapitala investisiyalar, vergi güzəştləri və ərzaq təhlükəsizliyi üzrə göstəricilərin birgə təhlili məqsədəuyğun olardı. Qiymətləndirmə zamanı dəstəyin həcmi ilə yanaşı, onun hansı məqsədə yönəldiyi, hansı istehsalçı qruplarına çatdığı və gözlənilən nəticənin əldə olunub-olunmadığı da nəzərə alınmalıdır. Müntəzəm monitorinq nəticələrinin ümumiləşdirilməsi dövlət proqramlarının vaxtında təkmilləşdirilməsinə kömək edə bilər.

12. Əlaqələrin səbəb-nəticə istiqamətində əlavə araşdırılması

ASLDİ ilə aqrar göstəricilər arasında müəyyən edilmiş statistik əlaqələr siyasət qərarları üçün əhəmiyyətli ilkin məlumat yaratsa da, səbəb-nəticə münasibətini tam müəyyən etmir. Buna görə gələcək tədqiqatlarda zaman gecikmələrinin, ölkəyə xas amillərin, məlumatların keyfiyyətinin və istifadə edilən metodologiyaların nəticələrə təsirinin araşdırılması tövsiyə olunur. Azərbaycan üzrə aparılacaq əlavə təhlillərin 148 ölkə üzrə ümumi meyllərdən ayrı təqdim edilməsi və ölkədaxili nəticələrin müvafiq iqtisadi, institusional və infrastruktur göstəriciləri ilə birlikdə qiymətləndirilməsi daha əsaslı siyasət nəticələrinin əldə olunmasına imkan verə bilər.

.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

I. Azərbaycan dilində

1. **Abbasov, A.F.** Bazar münasibətləri şəraitində əhalinin sosial müdafiəsinin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi: / İqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. / Azərbaycan EA İqtisad və Təşkilat İnstitutu. – Bakı, 2010. – 163 s.
2. **Abbasova, V.M.** Azərbaycanda aqrar sahənin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi: / İqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. / – Bakı, 2022.
3. **Abdullayeva, R.S.** Sosial təminat: liberal və dirijist iqtisadi sistemlərdə / R.S.Abdullayeva. – Bakı: Elm, – 2018.
4. **Alıyev, İ.H.** Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli aparılması / İ.H.Alıyev. – Bakı: Bakı Universiteti, – 2004. – 108 s.
5. **Allahverdiyev, H.P., Qafarov, K.S.** Milli iqtisadiyyatın dövlət tənzimlənməsi (Dərslik) / H.P.Allahverdiyev, K.S.Qafarov. – Bakı: Elm, – 2006. – 342 s.
6. **Allahverdiyev, H.P.** İqtisadiyyatın dövlət tənzimlənməsi (Dərslik) / H.P.Allahverdiyev [və b.]. – Bakı: Nasir, – 2002. – 245 s.
7. **Allahverdiyeva, L.A.** İqtisadiyyatın liberallıq potensialı / L.A.Allahverdiyeva. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, – 2017. – 236 s.
8. **Aqrar islahatın əsasları haqqında Azərbaycan Respublikasının Qanunu** // – Bakı şəhəri, 18 fevral 1995-ci il.
9. **Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA)**, 2022-ci il üzrə fəaliyyət hesabatı. – Bakı, 2023.
10. **Aqrar sığorta haqqında Azərbaycan Respublikasının Qanunu** // – Bakı şəhəri, 27 iyun 2019-cu il, № 1617-VQ.
11. **Ataşov, B.X.** Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) / B.X.Ataşov. – Bakı, – 2017. – 536 s.

12. **Ataşov, B.X.** Ərzaq təhlükəsizliyinin aktual problemləri / B.X.Ataşov. – Bakı: Elm, – 2015. – 336 s.

13. **Azərbaycan 2030:** sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı. – Bakı, 2021.

14. **Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi** // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. – Bakı, 2016.

15. **"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi və bundan irəli gələrək bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.** – Bakı, 2025.

16. **Azərbaycan Respublikasında Vergi Məcəlləsi.** – Bakı: Qanun, – 2024. (11a)

17. **Azərbaycan Respublikası Maliyyə Nazirliyi**, dövlət büdcəsinin icrasına dair illik hesabat. – Bakı, 2024.

18. **Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat** / Azərbaycan Respublikası Maliyyə Nazirliyi. – Bakı, – 2021.

19. **Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat** / Azərbaycan Respublikası Maliyyə Nazirliyi. – Bakı, – 2022. – 65 s.

20. **Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası** // Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı. – Bakı, 2022.

21. **Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabat** / Azərbaycan Respublikası Maliyyə Nazirliyi. – Bakı, – 2024. – 43 s.

22. **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.** Məşğulluq stasitikası: Rəsmi statistik məlumatlar. – Bakı, – 2025.

23. **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.** Kənd təsərrüfatının statistikası hesabatları və elektron resursları. – Bakı, – 2024.

24. **Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.** – Bakı, 2023.

25. **Balakişiyev, M.** Azərbaycanda aqrar sahənin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır // Respublika: *Xalq qəzeti*. – 2009, 22 avqust. – s. 3. (21)

26. **Balayev, R.Ə.** Aqrar sahədə rəqəmsal mühitin formalaşmasının əsas amilləri və təcrübi aspektləri // *Kənd təsərrüfatının iqtisadiyyatı*. – Bakı: – 2020. № 1(31), – s. 93–101. (22)

27. **Fikrətzadə, F.F.** Azərbaycanda kənd təsərrüfatına ayrılan subsidiyaların effektivliyinin qiymətləndirilməsi // *Kənd təsərrüfatının iqtisadiyyatı*. – Bakı: – 2020. № 1(31). (24)

28. **Fikrətzadə, F.F., Əliyev, P.F.** Azərbaycan Respublikasında aqrar sahənin dayanıqlı inkişaf prinsipləri baxımından tənzimlənməsi // *Kənd təsərrüfatının iqtisadiyyatı*. – Bakı: – 2022. № 3(41), – s. 9–32. (25)

29. **Hacıyeva, N.Q.** Azərbaycanda aqrar sahədə islahatlar: mövcud vəziyyət və perspektiv imkanlar // *Audit*. – Bakı: – 2021. № 2(32), – s. 99–108. (26)

30. **Həsənli, Y.H., Həsənov, R.T.** İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi / Y.H.Həsənli, R.T.Həsənov. – Bakı, – 2002. – 420 s. (27)

31. **Hüseyn, R., Hüseynov, R., Müseyibov, A.** Rəqəmsal transformasiya vasitəsi ilə Azərbaycanda kənd təsərrüfatının inkişafının sürətləndirilməsi // *Kənd təsərrüfatının iqtisadiyyatı*. – Bakı: – 2020. № 4(34), – s. 141–150. (28)

32. **Hüseynov, T.H.** Azərbaycanda bazar sisteminin iqtisadi problemləri / T.H.Hüseynov. – Bakı: Elm, – 2004. – 228 s. (29)

33. **İbrahimov, E.R.** Bazar münasibətləri şəraitində kənd təsərrüfatında texniki xidmətin təşkilinin təkmilləşdirilməsi (Azərbaycan Respublikasının materialları üzrə): / İqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. / Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. – Bakı, 1997. – 187 s. (30)

34. **İbrahimov, İ.H.** Aqrar sahənin iqtisadiyyatı (Monoqrafiya) / İ.H.İbrahimov. – Bakı: NBS nəşriyyatı, – 2016. – 655 s. (31)

35. **İsgəndərov, R.K., Rüstəmov, F.V.** Azərbaycanda qoyunçuluğun tarixi keçmişi, müasir vəziyyəti və inkişaf perspektivləri // *Kənd təsərrüfatı iqtisadiyyatı*. – Bakı: – 2023, dekabr. № 2(44).

36. **İsmayılov, V.İ.** Kənd təsərrüfatı məhsullarının istehsalının iqtisadi tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi / V.İ.İsmayılov. – Bakı, – 2020. – 291 s.

37. **Kəndli (fermer) təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu** // – Bakı şəhəri, 8 aprel 1992-ci il, № 102.

38. **Muradov, A.N.** Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri // Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, – 2011.

39. **Muradov, A.N.** Bilik iqtisadiyyatı quruculuğu: liberal və dirijist iqtisadi modellərin imkanları / A.N.Muradov. – Bakı: AMEA İqtisadiyyat İnstitutu, Elm nəşriyyatı, – 2017. – s. 82–115.

40. **Muradov, Ş.M.** İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər / Ş.M.Muradov. – Bakı: Elm, – 2004. – 660 s.

41. **Musayev, A.F., Kəlbiyev, Y., Hüseynov, A.** Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr / A.F.Musayev, Y.Kəlbiyev, A.Hüseynov. – Bakı: Elm, – 2004. – 792 s.

42. **Mustafayev, F.F.** Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri / F.F.Mustafayev. – Bakı: Elm, – 2008. – 540 s.

43. **Müzəffərli, N.** İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə / N.Müzəffərli. – Bakı: Şərq-Qərb Nəşriyyatı, – 2014. – 274 s.

44. **Nuriyev, Ə.X.** Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları / Ə.X.Nuriyev. – Bakı: Avropa, – 2013. – 422 s.

45. **Qafarov, N.C.** Aqrar iqtisadiyyat (Dərs vəsaiti) / N.C.Qafarov. – Bakı, – 2009. – 180 s.

46. **Qasımlı, V.Ə.** Aqrar bazar münasibətlərinin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi / V.Ə.Qasımlı. – Bakı, – 2009. – s. 11–12. (42)

47. **Qocamanov, C.** Azərbaycanda kənd təsərrüfatında sahibkarlığa dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətləri // *Enerji iqtisadiyyatı mərkəzinin xəbərləri*. – 2025. Cild 24(06), Buraxılış 04.

48. **Quliyev, E.A.** Aqrar iqtisadiyyat (Dərslik) / E.A.Quliyev. – Bakı: Kooperasiya nəşriyyatı, – 2015. – 320 s.

49. **Quliyev, E.A.** Etibarlı ərzaq təminatı sistemi: Kooperasiya və inteqrasiya problemləri (Monoqrafiya) / E.A.Quliyev. – Bakı: Elm, – 2013. – 308 s.

50. **Rüstəmov, A.A., Qasımov, D.Q.** Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi / A.A.Rüstəmov, D.Q.Qasımov. – Bakı: Avropa nəşriyyatı, – 2013. – 406 s.

51. **Rüstəmov, F.V.** Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafının müasir vəziyyəti və prioritetləri / F.V.Rüstəmov // Azərbaycanın İqtisadi Elmlər Akademiyasının Xəbərləri. – 2018. – № 2. – s. 45-52.

52. **Salahov, S.V.** Aqrar sahənin dövlət tənzimlənməsi problemləri / S.V.Salahov. – Bakı: Nurlar, – 2004. – 504 s.

53. **Sovxoz və kolxozların islahatı haqqında Azərbaycan Respublikasının Qanunu** // – Bakı şəhəri, 18 fevral 1995-ci il.

54. **Torpaq islahatı haqqında Azərbaycan Respublikasının Qanunu** // – Bakı şəhəri, 16 iyul 1996-cı il.

55. **Vəliyev, A.H.** Azərbaycanda təbii-kənd təsərrüfatı rayonlaşdırılmasının təkmilləşdirilməsi // *Kənd təsərrüfatının iqtisadiyyatı*. – Bakı: – 2021. № 4(38).

56. **Yusifzadə, Ş.N.** Ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsi problemləri: / İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiya. / – Bakı, 2010. – s. 176.

II. İngilis dilində

57. **Agricultural Policy Monitoring and Evaluation 2020: Vietnam.** – Paris: OECD Publishing, – 2020. – 635 p.

58. **Alons, G.** The EU’s Common Agricultural Policy and the European Union’s budget: A critical analysis // *Journal of European Integration*. – 2017.

59. **Anderson, K., Valenzuela, E.** What impact are subsidies and trade barriers abroad having on Australasian and Brazilian agriculture? // *OECD Food, Agriculture and Fisheries Papers*, No. 125. – Paris: OECD Publishing, – 2020.

60. **Becker, G.S.** The economic approach to human behavior / G.S.Becker. – Chicago, IL: University of Chicago Press, – 1976.

61. **Bentham, J.** Theory of Legislation / J.Bentham. – London: Trübner & Co., – 1871. – 472 p.

62. **Bhandari, T.** Assessment of Government Policies, Farm Subsidies, and Agriculture Growth // *State, Society and Development: PMPD Perspectives*. – 2023. Vol. 1(1), – pp. 125–136.

63. **Bumann, S., Hermes, N., Lensink, R.** Financial liberalization and economic growth: A meta-analysis // *Journal of International Money and Finance*. – 2013. Vol. 33(C), – pp. 255–281.

64. **Cui, L., Sun, Y.** Evolutionary game analysis of green technology diffusion between government and farmers // *Journal of Cleaner Production*. – 2019.

65. **Divanbeigi, R., Saliola, F.** Regulation and the Transformation of Agriculture / R.Divanbeigi, F.Saliola. – Washington D.C.: World Bank, – 2016. – pp. 3–21.

66. **Economist Impact.** Global Food Security Index 2022. – London, – 2022.

67. **European Commission.** CAP overview; European Commission, Common monitoring and evaluation framework (CMEF). – Brussels, – 2021.

68. **European Commission.** CAP paying agencies. – Brussels, – 2022.

69. **FAO Action Plan 2022–2025 for the Implementation of the FAO Strategy on Climate Change.** – Rome: FAO, – 2023.

70. **Feindt, P.H., Toller, A.E.** Understanding sustainability transformations through policy instruments: Shifting ideas of social control in the implementation of the EU's Common Agricultural Policy in Germany (2023–2027) // *ECPR General Conference*. – 2023.

71. **Food and Agriculture Organization of the United Nations.** Greening the economy with agriculture / FAO. – Rome, – 2021.

72. **Friedman, M.** Capitalism and freedom / M.Friedman. – Chicago, IL: University of Chicago Press, – 1962.

73. **Gale, F.** Growth and Evolution in China's Agricultural Support Policies // *Economic Research Report*, No. 153. – U.S. Department of Agriculture, Economic Research Service, – 2013. – 1 p.

